# Beytül-əhzan naləsi

Hacı Davud Sadiqi Təbrizi

بسم الله الرحمن الرحيم

**Kitabın adı:.................Beytül-əhzan naləsi**
**Müəllif:............Hacı Davud Sadiqi Təbrizi**
**Nəşr edən:.....................................Şəhriyar**
**Çap tarixi:............................................2017**
**Çap növbəsi:.....................................Birinci**
**Tiraj:...................................................3000**

Bismillahir-rəhmanir-rəhim

## Ya Hüseyn (ə)

Lütfün olsa ya Hüseyn dərdi-dil ağaz eylərəm
Aşiqanə gəlmişəm dərgahına raz eylərəm Sən
mənə nokər desən, mən şahlara naz eylərəm
Etibarımsan, şüarımsan, vüqarımsan Hüseyn.

## Həzrət Əli (ə)

Bürci-elmü-əmələ mahi-dirəxşandı Əli
Ruhi-İncil və Sühuf, batini-Qurandı Əli
Müshəfi-natiqi-Həqq, cohəri-imandı Əli
Valiyi-mülki-şəriətdi, vilayət varıdı
Xaliqindən iki aləmdə niyabət varıdı

Yığalar bir yerə gər fatehi-əqmarları
Sürəti nura çata sürəti-əfkarları
Münhəsir fəzli-Əlidən ola qoftarları
Behər təhqiq yüz il vəxt edələr bəzli-Əli
Qülleyi-fəzlinə çatmaz birinin hərgiz əli

O məsihi üzə cari elədi gözdən yaş
Öz kitabında yazıb bu sözü alim belə faş
Hər yüz ildə bu cahana bir Əli gəlsin kaş
Zəngi-küfrü çoxu qəlbdən əbədən silmədilər

Əllərindəydi Əli, qədrini heç bilmədilər Mərkəzi-ədlidi ol
şiri-Xuda məhkəməsi Bər xilafi həqq ucalmazdı onun
soti-səsi
Hansı qaziydi Əlitək eləyə dadrəsi
Rəyin Allaha görə həqqə tərəf verdi Əli
Ədl ilə hökm elədi ədlə şərəf verdi Əli

Kimdi mövla kimi insanları təlim elədi
Südü meyl etmədi tək nəfsinə təhrim elədi
İbni Mülcəm kimi namərd ilə təqsim elədi Aləmi,
adəmi şayistədi heyran eləsin
Kimdi öz qatilinə bir belə ehsan eləsin

Mürtəzanın halı ayrı siyaq idi o gecə
Sübhədək yatmamışdı, oyaq idi o gecə
Qızı Gülsümə babası qonaq idi o gecə
O gecə ayrı gecəydi, ürəyin dağlardı Göydə
ulduzlara baxdıqca Əli ağlardı

Dedi: Gülsüm yanan qəlbimi incitmə baba
Belə qəlbim darıxır, sən məni tərk etmə baba
Nigəranam bu gecə məscidə gəl, getmə baba
Dedi Gülsümə qızım, mən sizi tərk etməliyəm
Vədeyi-vəsl yetib, ağlama mən getməliyəm

Məscidə gəldi Əli, hazır olub əhli-niyaz
İqtida eylədilər həzrətə başlandı namaz
Fürsəti saldı Muradi ələ ol səflə nəvaz
Müztəribdir ələni fikr eləmir əncamə

Xirməni-əqlinə od salmışdı Qüttamə

Qozayıb tiğeyi-şəmşiri o namərdi-dəğa Yumdu
cənnətdə gözün Fatimə başlandı nəva
Endi şəmşir, boyandı qana şiri-Xuda
Hay-hu qopdu, namazın kəsilib zəmzəməsi
Ucalıb Heydəri Kərrarın o dəm fuztu səsi

Yetiribdir başı üstə Həsəneyn özlərini
Sildilər yarəli şirin o gözəl gözlərini
Mənzilə gəlsə edər faş ürək sözlərini
Qoydular parə kilimə şəhi-Xeybərşikəni
Gətdilər öz evinə peykəri şahi-zəməni

Saldılar bəstərinə evdə o dəm mövlanı
Yarə səngin idi, durmurdu müqəddəs qanı Əlləri
yarənin üstə çağırır Zəhranı
Saldı dildən məni yarə, ürəyim çox sıxılıb
Fatimə harda qalıbsan, gəl əmoğlun yıxılıb

Fatimə, sən mənə xatir ürəyin dağlamısan
Gecələr sübhə kimi məndən ötür ağlamısan
Cənglərdən qayıdanda yaramı bağlamısan
Hardasan Fatimə, gəlsən sənə çox vardı sözüm
Dözmüşəm indiyədək yoxdu daxi məndə dözüm

Dedi Zeynəb: babacan olmadı dərman yarana
İzin ver mərhəm edim göz yaşı əlan yarana
Anasız Zeynəbin olsun baba qurban yarana

Bisəbəb əşgimi xuni-dilimə qatmamısan
Bu gecə var xəbərim sübhə kimi yatmamısan

Yarəli gəldi Əli, gəldi bu mətləb qabağa
Çıxdı evdən hamı giryan və müəzzəb qabağa
Dövrə naməhrəm idi, çıxmadı Zeynəb qabağa Kərbəlada vəli bu Zeynəb idi, əhli əza
Əlləri başda qaçırdı o qədər düşmən ara
Ravi nəql eylir: təll üstə nə gördüm o zaman
Ucaboy bir xanımı başda əli, qəlbdə fəğan
Gəh qaçır, gəh yıxılır, göz yaşı rüxsarə rəvan
Vardı ləşgərdə necə həmhəmə də baxmırdı
Ya Hüseyn səslir, naməhrəmə də baxmırdı

Dedi qardaş yenə də səbr evini yıxmamışam
Kufədə Heydərə xatir belə qəlb sıxmamışam
Mürtəza yarələnəndə qabağa çıxmamışam
Xeymədən indi Hüseyn, məqtələ birbaş gəlirəm
Baxmıram dövrədə naməhrəmə qardaş gəlirəm

Nəql edir ravi: qərəz çatdı Hüseyn qardaşına
İzin verdi o zaman qanə dönən göz yaşına
Sinəsi üstə görüb Şimri, əl atdı başına
Dedi qoyma ayağın mərifət ayinəsinə
Çəkməli çıxma Hüseynin yaralı sinəsinə

Dözə bilməz bacıdı, gül kimi birdən soldu
Tərzi dəva əvəz oldu, qəlbinə qan doldu

Gördülər Zeynəb özü Şimrilə dərgir oldu
Şimr istir kəsə qeyzilə Hüseynin başını
Zeynəb əl çəkmir ondan, qutara qardaşını

Üzülüb çarəsi Zeynəb xanımın hər yerdən
Xəncərə atdı əlin çəkdi Hüseyn vay birdən
Qəbzəsi Şimrin əlində, bu tutub xəncərdən
Keşməkeş tul tapıb, mahəsəli dərk et özün
Bilmirəm noldu o saətdə Hüseyn açdı gözün

## Həzrət Əmir əl-möminin Əlinin (ə) mədhi

Təfəkkür aləmindəydim oturmuşdum gecə tənha
Qələm götürdüm edəm şəni-Əlidən şəmmeyi-inşa
Dil açdı tutiyi-təbim be eşqi həzrəti mövla
Süruşi-qeybi səsləndi hamı qətrə, Əli dərya
Nida gəldi qulağıma Əli mövla, Əli mövla

Əlidir sadiri-kamil zamanın ibtidasından
Bənzəri gəlməyib, gəlməz vəfasından, ətasından
Əlidir qaziyi-adil qəzavətdə, qəzasında
Əlinin şəni valasın xəbər ay Həl-ətasından
Ürəkdən ya Əli səslən, Əlidən ol məδəd cuya

Dilimi bağlayıb Müshəf, gərnə səxt və bipərva
Deyərdim mən Əli küfvü-Xudadır, etmirəm haşa

Nihandır astinində hezaran Musa və İsa Hədisi
yadıma düşdü, buyurmuş həzrəti Taha
Şəbi-meracidə əshabə, sirri ləylətul-əsra

Yanımda Cəbrail idi, o peyki la yəzal ilə
Soruşdum asimani ikincini, əvvəl xoş məqal ilə
Üçüncü asimanda şad idim şövqü-vüsal ilə
Yetişdim asimani dördə gördüm cəlal ilə Neçə
min orda məscid var, dəruni Məscidül-Əqsa

O məscidlərdə gördüm hər birində nurdan yüz bab
Əli adı yazılmış üstünə, etdim ki, dəqqul-bab
Əcayib mənzərə gördüm mən orda ya ulul-əlbab
Minlərlə taq hər məsciddə, hər taq içrə bir mehrab
O mehrab içrə yüz minbər, o minbərdə Əli peyda
Peyəmbər sözüdür, söz yox, edibdir höccəti itmam
Yaratdı bəzi əshabə bu mətləb müxtəsər ibham
Ediblər zəmzəmə, qərq oldu bəhri-fikridə əvham
Təəccüblən dedi Tahaya əshabı ki, bu axşam
Əlinin biz hüzurunda var idik cəm dər yek ca

Sükut etdi Rəsulullah, həbibi-Xaliqi Mənnan
Kəənnəhu qüfl olubdur babi-hikmət, əql olub heyran
Baxıbdır bir-birə əshab Tahaya mat və sərgərdan
Təbəssüm eyləyib Peyğəmbərə ərz eylədi Salman
Əli mənlən oturmuşdu gecə bir guşədə tənha

Vilayət şöləsi od saldı nagəh hər qəlbə, cana

Ki, guya od düşübdür şəmdən səhni-şəbistana Biri
and içdi Mövlaya, biri and içdi Qurana
Əbuzər söylədi olsun qəsəm ayati-Qurana
Əli bizdəydi bu axşam namazi sübhəcək hətta

Olubdur müddəi hər kəs, sözündə eylədi israr
Hamı ərz eylədi mənlən var idi Heydəri Kərrar
Səhabə eylədi bir-bir Rəsula bu sözü təkrar
Eşitdi Fatimə, fərmayiş etdi bu gecə zinhar
Əli evdən kənara çıxmayıb sübhə kimi əsla

Bu söz pəxş oldu, bəzilər dubarə fikri-xam etdi
Dəyibdir bir-birə əshabi-Taha, izdiham etdi
Çoxu məbhut olubdur çoxları əxzi-məram etdi
Yetişdi nagəhan Cəbrəil, Tahaya salam etdi
Dedi ey mehmani-barhgahi-Qüds və Ədna

Gətirdim bu peyamı mən hüzuri-Rəbbül-izzətdən
Qutarsın Həyyi Əla cümlə əshabı heyrətdən
Xuda əmr eləyir, agah olun sirri-vilayətdən
Əli, Öz məhzərimdəydi bütün gecə inayətdən
Mən ilə bahəm idi sübh olunca həzrəti mövla

O mövla ki, göylərdə Xudaya mehman oldu
Alışdı dərgəhi yerdə, alov qalxıb əyan oldu
Vurub Zəhrasını Qonfuz, o mövlaya olan oldu
Qolunu bağladı sani, ürək bir parça qan oldu Çəkillər
məscidə sarı Əlini, qəşş edib Zəhra

O mövla ki, var idi belə izzəti göylərdə
Salıbdır boynuna şalın, çəkillər yerdə bipərdə
Fələk də zümə seyrilə Əlini satdı namərdə
Oyanda ağlayır Zeynəb, bu yanda Fatimə yerdə
Gülür sani, Bətul ağlır, xərab olsun belə dünya

Kiməm tərif edəm mən Heydərin şənu-məqamından
Əlinin şəni roşəndir Xudavəndin kəlamından
Qivami-ərşi əladır, qüudundan, qiyamından
Əgərçi Sadiqi yazdı bu mədhi öz imamından Yazıb
guya bu mövzunu əzəldə Bu Əli Sina

# Həzrət Əlinin (ə) şəhadəti

**Sinəzəni və cuşi**

Məzlumi-aləm Əli, məcruhü-xəstə
Can verir məzlumanə, qəlbi-şikəstə
Zeynəbi nalan, eyləyir əfğan
Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

Axşam çağı mövlanın qəlbi darıxdı
Dərin nəfəs çəkdi, qəm əflakə çıxdı
Yumdu gözün, Zeynəbin evin yıxdı Can
verir mövla – həmsəri Zəhra
Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

Küfrün yolun İslama bağlayan öldü
İyirmi beş il sinəsin dağlayan öldü
Nəxlistanda nimə şəb ağlayan öldü
Başda yarəsi – qəm aşinasi

Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

Dövrələyib qonaqlar Zəhra qonağın
Biri əlndən öpür, diri dodağın
Abbas ayaq tərəfdə öpür ayağın
Yandırır yaxır – göz yaşı axır
Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

Düşdü gözü Abbasa, halı dolandı
Söylüb: Hüseyn dərk et Abbası amandı
Qardaşlıqda Abbasın dərsi rəvandı
Yaxşı qardaşdı – qardaşdan başdı
Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

Səsləndi gəl yanıma ala göz balam
Çox ağlama qeyrətli, şirin söz balam
Sil gözlərin ədəbli, nazlı öz balam
Yandırıb yaxma – həsrətlə baxma
Ya Zəhra, ya Zəhra, ya Zəhra, ya Zəhra

## Həzrət Zəhra (s.ə)

Tanıyanmaz məgər Xudayi-həkim Nəfsi-qiddisi
və razi Zəhranı
Çəkib on səkkiz il Rəsuli-əmin
Tuli-besətdə nazi-Zəhranı

Xanımın adı zikr olan yerdə

Göylər və yerlər gələr vəcdə
Bilərik ki, bizə deyil mümkün
Elə bir izzü-şökətü-məcdə
Dəstə-dəstə mələk salam eylər
Fatimə eyləyən zaman səcdə
Qədr gecəsi eylədi Xudayi-kərim
Bizə zülfü diraz Zəhranı

Onda ki, cəhənnəm şərarindən
Bu xəlayiq çəkəllər va ənfüsa
Necə quş danəni seçər qumdan
Şiəni həşridə edəllər cüda
Fatimə barmağın kimə tutsa
Əhli cənnətdi, yox kəlamına la
Sinədə əl mələk dalı çəkilər
Görsə əldə cəvazi-Zəhranı

Bu mənim şəxsən öz əqidəmdir
Varam üstündə üstüvaru mətin
Ayeyi “illəl-məvəddətə fil-qurba”da
Verib Allah, Peyəmbərin əcrin
Buyurub ücrət risalətinə
Darıxanda öpə Bətulun əlin
Düşünər burda yəqilun əhli
İxtisarən fərazi-Zəhranı

Fatimə cilveyi-cəmali-Allah
Məşriqi ən-nuru Rəbbul-aləmdi
Yolunun tozun çəkər mələklər gözə

Tutiyayi du çeşmi Məryəmdi
Atası Xətmul-ənbiyadı əgər
Bu da eşqi-Əlidə xatəmdi
Şahidim şölə qızdıran mismar
Oxu suzü-qüdazi Zəhranı

Bu xanım düşdü bir çətin dərdə
Olmadı ta ölüncə dərmanı
Təng olubdur məaşı zülm ilə
Dandı həqqi müsəlləmin sani
Gül kimi doldu günbəgün balalar
Ağladı cani-xilqətin canı
Gecə-gündüz həmişə peydərpey
Etdi qəm pişvaz Zəhranı

Lacərəm Fatimə edib iqdam
Düşdü ehqaqi-həqdə fikrə
Fədəkin əlqərəz alıb sənədin
Haqqı isbat edib Əbu Bəkrə
Həsənlə gəlirdi öz evinə
Kuçədə tuş olub əbul-məkrə
Sanini görcəyin atıb rəngi
Fikr elə ehtirazi-Zəhranı

Oldu bir keşməkeş həmən kuçədə
Müxtəsər mən deyim ki, söz çoxdu
Əlini qozadı göyə sani
Bir cəsarət edib ürəyə oxdu
Gördü xanəneşin olubdu Əli

Xanımı vursa da dinən yoxdu
Dedmədi dəfələrlə Rəsuli-əmin
Tapşırıb imtiyazi-Zəhranı

Əli qalxdı həvayə sürətilən
Bərqtək gül cəmalına endi
Fatimə kuçədə yıxıldı yerə Nagəhan əsdi bəndidən bəndi
Xanımın sədmə dəydi bir gözünə
Ayın üstündə ləkkə görsəndi
Həsənə söylədi ki, tut əlimi
Bala dərk et niyazi-Zəhranı

Heydərin bağlamışdı əllərini
Onda Peyğəmbər ayrılan vəxtdə
Harda qalmışdı şiri Məkkə o gün
Gələ məzun olan həmən vəxtdə
Kaş olaydı o kuçədə Həmzə
Sani Zəhraya əl açan vəxtdə
Səslənərdi Əli adamsızdı
Gör əmi suzu-sazi-Zəhranı

Sili əldən salıbdı Fatiməni
Xanıma kuçədə olan oldu
Bala möhkəm qucaqladı anasın
Kuçə əmmən yucib ilən doldu
Olmadı bir nəfər hərayə gələn
Gül kimi üzləri o dəm soldu
Ağladı hamilani-ərşi-Xuda
Gördü suzu-qudazi-Zəhranı

Ağa, ya Sahibəz-Zaman əfv et
Gər sözüm qəlbinə mühən gətdi
Ananın möhnətin özün bilisən
Nələr ol qəmli kuçədən gətdi
Özü getmişdi öz ayağıyla
Qayıdanda vəli Həsən gətdi
Mürtəzadan başqa bilən yoxdu
Rəmzu-razi-nəmazi-Zəhranı

## Həzrət Zəhra (s.ə) sevgisi

Reyhaneyi-Peyğəmbər, ya Fatimətəz-Zəhra
Səslərdi səni Heydər, ya Fatimətəz-Zəhra
Lovh, qələm və dəftər, ya Fatimətəz-Zəhra
Dillərdə adın əzbər, ya Fatimətəz-Zəhra
Gülşəndə deyər güllər, ya Fatimətəz-Zəhra

Ya Fatimə zikrimdir, bir saliki por dərdəm
Cənnati verən şeyxə, mən yarə xoşam hər dəm
Cənnət vətənim olsa, Fatiməsiz velgərdəm
Mən Fatimənin eşqin versəm ora namərdəm
Zikrimdi mənim yeksər, ya Fatimətəz-Zəhra

Ey rəhməti-bihəddi cinü-mələk məlmus
Vey pəşşeyi-dərgahi xoş cilvətər əz tavus
Cibrili-əmin eylər xaki-qədəmindən bus
Xazedi sənə dağ, çay, dərya və oqyanus
Səslər səni dəryalar, ya Fatimətəz-Zəhra

Nəqş olub göylərdə ya Fatimə movlati
Mehrabidə, minbərdə ya Fatimə movlati
Səsləllər mələklər də ya Fatimə movlati
Movla dedi Xeybərdə ya Fatimə movlati
Götürdü qapını Heydər ya Fatimətəz-Zəhra

Sən ayeyi-təthirdə misdaqi müsəvvərsən
Yox-yox məni əfv eylə, ondan da mütəhhərsən
Sən qüdrəti-bazuyi-cəngavəri Heydərsən
İnsaf eləsə hər kim, sən fatehi Xeybərsən
Sən verdin ona ləngər ya Fatimətəz-Zəhra

De münkiri-Zəhraya, lənət sənə şamildi
Həccin də, namazın da Fatiməsiz batildi
Tut daməni-Zəhradan, həllali-məşakildi
Həm Ümmü Əbihadı, həm ümmü fəzaildi
Kim Fatiməyə bənzər, ya Fatimətəz-Zəhra

Mahi-ələvi nagəh nəhr üstə batan vəxtdə
Abbas ələmi birdən meydanda yatan vəxtdə
Peykan gözünün üstə yəni oturan vəxtdə
Qeyrətli Əli oğlu atdan yıxılan vəxtdə
Səslərdi uzun əllər, ya Fatimətəz-Zəhra

Susuz dodaqla Əsğər meydana gələn saət
Üç şöbə oxu düşmən qeyzilə çəkən saət
Nazik boğaza peykan şiddətlə dəyən saət

Şeşmahə o peykanı meydanda əmən saət
Səsləndi Əli Əsğər, ya Fatimətəz-Zəhra

Fərman yetişib xeymə zülmilə yatan gündə
Qəmçi gücünə qızlar bir-bir soyulan gündə
Bəzi Nəcəfə sarı göz yaşlı qaçan gündə Vəhşətdən
özün xəndək, ya nəhrə atan gündə
Eylərdi səda yeksər ya Fatimətəz-Zəhra

Qəlb dağlı Rüqəyyən də Şamata gedən axşam
Nagəh dəvənin üstən torpağa düşən axşam
Əhvalına ahular çöldə mələşən axşam
Ol qorxulu səhrada vəhşətlə gəzən axşam Səslərdi
həmin doxtər ya Fatimətəz-Zəhra

Bir naqə minər Zəhra, məhşər olar nurani
Yaqut və zəbərcəddən dırnaqları, müjqanı
Həm zahiri peydadır, həm batini pünhanı
Bir nur mücəssəmdir, həml eləyər Zəhranı
Cibrili-əmin çakir, ya Fatimətəz-Zəhra

Ol naqənin üstündə səslər Həqqi Subhanı Başında
qara məcər, zülfündə oğul qanı
Bir qanə batan köynək, söylər ki, Hüseyn hanı
Gözlər dolanar nagah, görsünlər o movlanı
Məhşərdə qopar məhşər ya Fatimətəz-Zəhra

Aləm görəcək ol dəm tufan kimi göz yaşın
Şəh qoydu qədəm həşrə, ağlatdı dağın, daşın

Yoxdur başı peykərdə, almış ələ öz başın
Sürətlə qaçır Zeynəb didar edə qardaşın
Başında qara məcər, ya Fatimətəz-Zəhra

Eşq atəşinə poşti-dərgahidə yandın sən
Divara sıxılmışdın, qüdrətlə dayandın sən Əvvəldə
ölüb Möhsin, al qana boyandın sən
Mismar öz işin gördü, nagah yaralandın sən
Mismar idi, ya xəncər, ya Fatimətəz-Zəhra

Hər gün saralıb soldun, soldu gülü-Peyğəmbər
Şiddətlə məriz oldun, evdə salınıb bəstər
Bir gün nigəran gəldi qəm mənzilinə Heydər
Baxdı üzünə həsrət, gördü yumulub gözlər
Səsləndi o dəm Heydər, ya Fatimətəz-Zəhra

Səndən sonra fikr etmə aydın günüzüm qaldı
Ya qüssəli qəlbimdə əssaə dözüm qaldı
Dindir məni, can səslə, ağzımda sözüm qaldı
Zəhra yumulan gözdə vəllahi gözüm qaldı
Qoyma yumula gözlər ya Fatimətəz-Zəhra Qəlbim başına
indi hicr atəşini vurma
Sərhəddi fəraq üstə israr eləyib durma
Bari mənə rəhm eylə bu riştəni gəl qırma
Yəsribdə təkəm Zəhra, getmə məni sındırma
Noldu o keçən günlər, ya Fatimətəz-Zəhra

## Həzrət Zəhranın (s.ə) şəhadəti

Aləm gəlibdi naləyə, bəhrü-bərr ağlaşar
Xuldi-bərrin, ərşi-Həqqi Davər ağlaşar
Fərmani-təziyət yetişibdir aləmlərə
Dərya, mövc, mehr, meh və əxtər ağlaşar
Zəhranı dəfn ediblər gecəylən Bəqidə
Mikayil və Cəbrəil peyamavər ağlaşar
Fatiməyə əza sahibidir Həyyi ləm yəzəl
Lovh, Kitab, vəl-qələm, dəftər ağlaşar Əza
vaxtıdı, nalə gəlir ərşü-fərşdən
Qütb, mədar, dairə və mehvər ağlaşar
Sübhün zamanı qönçə qəribanı çak edər
Ya ləl-əcəb nolubdu məgər güllər ağlaşar
Alsa xəbər bu sirri biri bağbanidən
İllət nədir ki, zənbəq və nilufər ağlaşar
Lalə niyə məlalə batıb, sərbezir olub
Aya nə var ki, qönçə və bərgi-tər ağlaşar
Söylər qürub vaxtı Əlinin gülü solub
Gülzar, bağiban, nəhal və bərr ağlaşar
Bir gül solub ki, ətri keçib qabi-qövsidən
Səf-səf məlaikani-zümürrüdpər ağlaşar
Bir gül solub ki, sinəsi Sinanı yandırıb Tur,
Kəlim və nuri-muşəşəfər ağlaşar
Bir gül solub vilayətin ərkanı titrəşir
Ruhi-mücərrəd, ərəz və covhər ağlaşar
Tahaya ənbiya yığışıb təsliyət verir
Quran, Qədr və sineyi-Peyğəmbər ağlaşar
Başdan açıb əmmamə, imamət verir başa

Ləngər sınıbdı, kəştiyi-biləngər ağlaşar
Hammı gedib, Bəqidə tək ağlır Əli
Qəlbində dağına Fədək və Xeybər ağlaşar
Gizlin məzarə fatehi-Xeybər dəxil olub
Guya vurublar sinəsinə xəncər ağlaşar
Ehsasi dərdü-suzeş edir məğzi-ostuxan Tənha
nə gözləri, başabaş peykər ağlaşar
İstir durub ayağa gedə, dizləri əsir
Yerdən duranmır, neyləsin dizlər ağlaşar
Dildən düşəndə başlayıb əmmən yucib oxur
Mövla Əli nəvasına nöh keşvər ağlaşar
Eyb etməyin desəm ucalıb nalə qəbridən
Qəbr, hənut, Fatimə və bəstər ağlaşar Gəh
öz-özüylə söhbət edir, ağlayır bir az
Gəh dindirir Bətulu, qəlb və dilbər ağlaşar
Peyğəmbərin baharına sən qanlı laləsən
Sinəndə daği-eşqə yaran bənzər ağlaşar
Olsun qəsəm bu qəbrə ölüm axtarır Əli
Düşmür ələ gözümdəki əşgi-tər ağlaşar
Həqqim ölümdü, ölməmişəm zindəyəm hələ
Sən qıl dua Əli də ölə teztər ağlaşar Qurana
hər baxanda gözüm Kosərə düşür
Ayati-Nur,Vaqiə və Kosər ağlaşar
Hər karvan yolu düşə şəhri-Mədinədən
Boynunda zəngi-naqə və məhmillər ağlaşar
Qurban olum qünutuna, “əccil vəfati”na
Məqbul olan duaya evim yeksər ağlaşar
Peyğəmbərə denən məni Qonfuz vuran zaman
Gördüm ki, Zülfəqar, qapı və Heydər ağlaşar

Sən hayil olduğun qapını etmərəm əvəz
Orda müdafeim yıxılıb, səngər ağlaşar
Qan ilə yazmısan qapıda “yaşasın Əli”
İsarına ürəkdə qalan əxyər ağlar Ta
əşhədu ənnə Əliyyən vəli deyər
Mehrab, məscid, hərəm və minbər ağlaşar
Qəbrimdə də o sili yeri ağladar məni
Hər ləhzə yara tazələnər neştər ağlaşar
Ruhum küsüb, mədinəlilərdən gileyliyəm
Əhvalıma sipehr, mehi-ənvər ağlaşar
Aya uşaqlara necə tapşırmısan məni
Qoymur biri gözündən olam peyi-dər ağlaşar
Tez-tez baxır yatan yerə nazlı qızların
Səslir cavan məzarə gedən madər, ağlaşar
Amma Həsən elə tutulub dindirənmirəm
Pozğundu halı, halına bəhrü-bərr ağlaşar
Məhşərdə izin alıb açaram köhnə dağını
Onda görəllər iş pozulub məhşər ağlaşar Yaz,
ağla Sadiqi nə qədər ömr edə vəfa
Bax dəftərə qələm pozulub, dəftər ağlaşar

# İmam Əlinin (ə) həzrət Zəhranın (s.ə) qəbri üstündə növhəsi

Ey Zeynəbin xəzan eləyən nobaharını
Zəhra, Əlidi qəbrinə qoymuş üzarını
Axşam ki, gün batır daxi evdə qalanmıram
Daim çəkir Əli gecənin intizarını

Bax gör qalıb nə halə, o Mərhəb yıxan qol
Dur gör özün o cənglərin namidarını
Bir halə qalmışam daxi yerdən duranmıram
Dərdin alıb Əlinin olan iqtidarını
Müşgülqoşa Əli necə gör müşgülə düşüb
Təng eləyibdi dövrü-fələk ruzigarını
Ey kaş, həmən o yeddi nəfər dəfninə gələn
Sənlən qazaydı burda Əlinin məzarını
Bir söz tutub məni, vəli xəlqə açanmıram
Qeyrətliyə çətindi, pozar etibarını
Namusumu qapıda döyüblər, kimə deyim
Qövmi-sitəmgərin sitəmi-bişümarını
Qonfuz əl atdı qəmçiyə öldüm, ölənmədim Səbr
elədim, qəbul et Əli etizarını
Gizlin gedib quyulara dərdi-dil elərəm
Ta söndürəm ürəkdəki möhnət şərarını
Ondan əlavə var bu işin ayrı hikməti
Ayəndələr biləllər o rəmzü-qərarını
Bir dərdimi suya deyərəm aləmə yayar
Şiyəm içər bilər ürəyim istinarını
Sübhə yaxındı gəlmir ayağım evə gedəm
Gözlür əgərçi dörd bala öz qəmqüsarını
Olsun qəsəm gözündəki qana, darıxmışam
Qurtar Əlini görməyə dəhrin fişarını
Səndən sonra həmişə mənə fatimiyyədi Çərxin
görüm xərab ola bu kəc mədarını
Var xatirimdə çox yaramı bağladın özün Toxtatdı
tez əlin səbəbi zəxmi-karını
Qəlbimdə leyk bir yarə var səbrimi kəsir

Az qaldı Mürtəzanın ala istibarını
Bu yarə sili yarəsidi, toxdayan deyil
Bir sili ki, salıb qulağın güşvarəsini
Silinin yerin özün ki, nişan vermədin mənə
Gördüm yuyanda kuçə sərəncam karını
Tahaya hər şikayət əgər etsən eybi yox Amma
o silidən demə, alma qərarını
Həşrə kimi bu bir sözü aləm gərək bilə
Dəfn etdi Mürtəza gecə darü-nədarını
Gər olmasaydı dörd bala getməzdim heç evə Şəhrin
məkan edərdim özüm nəzli-zarını
Amma uşaqların gecə yatmaz mən olmasam
Neylim qəfəsdə dörd pəri sınmış qənarini
Yox rəğbətim bu ömrə, özün bir dua elə
Çək əmnigahi-mərgə Əlinin qətarını
Fuztu və Rəbbi Kəbə, belə könlümə düşüb
Çox istirəm ki, tez verəm eşqin şüarını Əzbəski,
ağladı şəhi-Xeybərşikən Əli
İslatdı göz yaşıyla o qəbrin qübarını
Durdu ayağa daməninin saldı toprağın
Tərk eləsin Bəqidə ziba nigarını
Üz tutdu asimanə tərəf baxdı bir aya
Guya açıbdı razi-dili-dağdarını
Tutqun səs ilə səslədi ey mahi-asiman
Ver kəhkəşanlara bu sözün intişarını
Ulduzlara xəbər ver Əlinin ayı batıb
Tar eləyib qarə gecələrtək naharını
Zəhranı vurdular öz evində əl açmadı
Dözdü bu əmrə çəkmədi heç Zülfəqarını

Ol dəm Əli müxatəb edib əhli-Yəsribi
Saldı xəyalə şəhridə çəkmiş fişarını
Hər gün mənə şikayətə gəldiz Bətuldan
Qoymurduz ağlaya o məsaib şikarını
Heç bilmədiz ataası ölüb, dağdaridir
Həqqin alıb, döyüblər o möhnət düçarını
Agah olun Əli ürəyin böldü Fatimə
Rahət yatın mədinəlilər, öldü Fatimə

## Qitə

Bu qədər zülmilə ey vay deməyim, bəs nə deyim
Mürtəzanın halına vay deməyim, bəs nə deyim
Öz evimdir, tutulub qəlbim odur ağlayıram
Öz balam Möhsinə lay-lay deməyim, bəs nə deyim

## Həzrət Zeynəb (s.ə) ana matəmində

Ey gündüz gözündə olan leyli tar ana Ali-Əbayə
həşrə kimi iftixar ana
Gərçi babam vəliyyidi xəllaqi-zulmənə
Sənsən onun vilayətinə etibar, ana
Sinəndəki nişani-məhəbbətdi, qan deyil Nəhri-vilayətə
gecə-gündüz axar ana
Sənsiz görüm zəmanədə gün çıxmayaydı kaş
Sənsiz nə gün, nə ay, nə bulud, nə bahar ana

Zəvvarın olmasa ürəyin qüssələnməsin
Daim gəlir babam gecələr əşgibar ana
Ta gəlməyincə evmizə bir ləhzə yatmaram
Mən yuxlasam, qapını gecə kim açar ana
Bir söz deyim işarə ilə qüssə eyləmə
Hər kəs ki, bir əzizi ölüb həqqi var ana
Səndən sonra bu evdə hamı ruzədardı Xun
cigər qidadı bizə hər nahar ana
Axşam çağı yerin babamın sallam, ağlaram
Qallam oyaq gözüm qapıda əşkgibar ana
Ahım yanıqlı şəmdi, pərvanəsi Həsən
Hər gün belə yanıb alışır dilfikar ana
Kuçə sözü düşəndə Həsən evdə qəşş edir
Sili sözü pozur onu hər leyli tar ana
Çadırşəbin mənimkidi can misli saxlaram
Verrəm Rüqəyyənə onu başa salar ana
Kərbübəla sözün ki, xəbər vermisən mənə
Billəm özüm bəlalı başımda nə var ana
Kərbübəlanı gəz o zaman, gəl xərabəyə
Baş çək uşaqlara o çətin ruzigar ana

## İmam Əli (ə) həzrət Zəhranın (s.ə) matəmində

Zəhranı ta ki, dəfn elədi şahi-lafəta
Əyləşdi qəbri üstə bir az eylədi nəva
Darü-nədarını gecə dəfn eylədi Əli Gənci
nihan izzətini qoydu topraqa

İstirdi yarıyla özü bir xəlvət eyləsin
Əshabı qaytarıb o zaman miri-müqtəda
Əyləşdi baş tərəfdə bir az ağladı özü Guya
uşaq kimi o şəh ağlardı bisəda
Qəlbin boşaltdı durdu ayağa yavaş-yavaş
Yol başlayıbdı evə fəxri-övliya
Gər olmasaydı evdə uşaqlar gümanıma
Gəlməzdi bir də heç o evə miri-masəva Həm
ruhən inciyib hamı küsmüşdü şəhridən
Mayil deyildi Fatiməsiz, şəhridə qala
Dünyaya üç təlaq verən neyləyir evi
Zəhrasız ev nə ləzzəti var əgər behişt ola
Əlqissə, ayrılıbdı Bəqidən şəhi-zəmən
Bir nəhvilə xülasə evə gəldi Mürtəza
Ətfalı yatmamışdı, gözətlirdilər yolun Bir
əncüməni xüsusi qurub tutdular əza
Ta sübh olunca heç birisi yummadı gözün
Sübh oldu, gün çıxıb, verilib aləmə səfa
Sani yığıbdı başına bir iddə cirəxar
Gəldi Bəqiyə ta yenə də xəlqi tovlaya Peyğəmbərin qızı
dedi gizlincə dəfn olub
Nəbş eləyin xəlifə namazın gərək qıla Gəldi
xəbər ki, ya Əli bəs harda qalıbsan Az qaldı
qəbri-Fatiməni bu dəni aça
Yetcək bu söz qulağına o qəlbi yorğun şəhin
Çox hövl ilə ayağa durub şahi-övsiya
Gəldi təməvvücə şərəfi-heydəriyyəti
Dərya kimi təlatüm edib bəhri Həl-əta
Halı dolandı yeksərə qan tutdu

gözlərin Guya ki, qan içirdib ona saqi-
bəla
Boynunda üqdələndi üruqi-həmiyyəti
Əl Zülfəqarə atdı şəhənşəhi Qul kəfa
Bağlıbdı başına sarı dəsmalı qeyz ilə
Çox sürətlə evdən o ləhzə düşüb yola
Zeynəb durub ayağa o dəm baxdı ağladı
Yandırdı Mürtəzanı dilə gəldi guya
Səndən sonra daxi anamın yoxdu bir kəsi Çək
Zülfəqarı sənə qurban olum baba
Tək getmə, ver icazə ki, qardaşlarım gələ
Tək görməsin əqəlli səni qövmi-əşqiya
Çox sürət ilə çıxdı qərəz astanədən
Yapraq kimi əsirdi qəzəbdən bu müqtəda
Yetdi Bəqiyə saninin yaxasından tutub
Vurdu yerə, buyurdu aya mədəni-xəta
Zəhra deyil bu qəbridə ruhum yatıb mənim
Baxma zəmanədə hələ beş gün dolanmağa
Zəhra deyə-deyə hamızı doğraram bu gün
Bir nəhvilə ki, bəhr kimi mövc edə dəma Baxma
o gün də kuçədə vurdun, danışmadım
Əmri-Rəsul idi ki, gərəkdir məta ola
Qüslün verəndə gördüm özüm silinin yerin
Bəsdir həya elə daxi ey pəstü-bihəya
Bir nəbşi qəbrə ya Əli sən səbr edənmədin Kərbübəlaya
bəs niyə heç gəlmədin şəha
Bir sinə ki, onda oğul dağı var idi
Atlar ayaqladı, dağılıb misli-tutiya
Sinə sınanda Fatimə səsləndi vay oğul

Cənnətdə gəldi naləyə ərvahi-ənbiya

## Həzrət Zəhranın (s.ə) şəhadət əhvalatı

Eldə bir qayda var yaxşı bilər əhli-nəzər
Bir kəsin ölsə cavan orəti dünyada əgər
Qövmü, həmsayə eşitdi tökülüb hamı gələr
Belə saətdə onlar sinələrin dağlallar
Qoşulub yaslıya evdə ölənə ağlallar

Xassə ki, tiri-bəliyyatə nişan olsa ölən
Özü xırda balalı, dilnigəran olsa ölən
Həmsəri-layiq və şayistə cavan olsa ölən
Yandırar aləmi bu dərdü-müsibət ələni Ağladar
öz-özünə möhnəti yasə gələni

Mətləbi mən dedim aldın, qəlbinə qəm doldu
Qaidi-Əzəmi-Şəriət qızı gül tək soldu
Öldü Zəhra vəli bu qayda bərəks oldu
Demirəm ölməyini bildilər, ya bilmədilər
Bu qədər vardı ki, təşyiinə də gəlmədilər

Ölənin olsa neçə tifli ürək dağlallar
Üzə göz yaşlarını həsrət ilə bağlallar
Ucadan vay ana vay, zikr eləyib ağlallar
Fatimə gülləri rahətlə nəfəs çəkmədilər
Matəmində ananın bir uca səs çəkmədilər

Dedi Movla: demirəm sinənizi dağlamayın

Matəmində anazın əşki üzə bağlamayın Bilisiz
müşgülümüz var ucadan ağlamayın
Əmri-movlaya gecə hammı itaət elədi
Ayrı tərz ilə bu dəsturu riayət elədi

Ağa Yəbnəl Həsən! həll eylə ürək niskilini
Qoy deyim dörd uşağın evdə olan müşkülünü
Ağlayanda balalar ağzına qoydu əlini
Demirəm başlarını möhnət ilə açmadılar
Evlərində ucadan səs çəkib ağlaşmadılar

Ravi Salmandı deyir, keçmişdi çox gecədən
Evdə məşğuli-nəmazi-şəbidim qərqi-mühən
O gecə çox nigəran idim elə Fatimədən
Qapı ahistə döyüldü, ürəyim diskindi
Dedim Allah görəsən xeyir ola kimdir indi

Hücrəni tərk elədim dildə bəsi şurü-nəva
Nigəran çıxdım otaqdan görəsən kimdi, Xuda
Xəbər aldım gecənin aləmi kimsən qapıda Fori
bildim o zaman nuri-Xuda cilvəsidir
Səslərindən tanıdım ki, Həsəneynin səsidir

Dedi ahistə: əmu aç qapını mən Həsənəm Bir
sözüm var sən üçün qərqi-bəla və mühənəm
Gəlisən gəl daxi, təxir eləmə öldü anam
Qapını açdım özüm mən gecənin qəmli çağı
Gül kimi gördüm əsirdi onların dil-dodağı

Əlqərəz başladı qüslü gecənin vəxti Əli
Xanımın dəydi o sınmış qoluna birdən əli
Ağladı bir tazə müşkül yenə üz verdi vəli
Kaş göz yaşın üzə bağlamayaydı o gecə
Saxlayaydı özünü ağlamayaydı o gecə

Nə qədər eşqi var imiş onların bir-birinə
Fatimə dözmədi bir verdi təkan peykərinə
Yaranın başı açıldı, qan axıb su yerinə
Qan ilə su qarışıbdır elədi qüslü çətin
Guya endi o saətdə ora Ruhul-əmin

Dedi: Zəhranı sənintək tanıyan olmayacaq
Bu məhəbbət qanıdır, cuşə gəlib durmayacaq
Nə qədər ağlayasan sən, o qədər qan axacaq
Ağlama, göz yaşın axdıqca yara qan verir
Tazədən bəs deyəsən Fatiməni can verir

Hey töküb su, yaranın qanını sildi o gecə
Nə çəkib Heydər, Allah Özü bildi o gecə
Geydirincə kəfənin öldü-dirildi o gecə
Qüslü qurtardı Əli dərdü-qəmə tuş oldu
Yaralı Fatimə əlqissə, kəfənpuş oldu

Bağiban səslədi bülbülləri gülzarə gəlin Anazı
bir də görün söhbətə, qoftarə gəlin Dolanın
başına bu axır didarə gəlin
Elə bir məhşər olub aləmi-məna doldu
Qoşulub Zeynəbə öz zülfünü hura yoldu

Səs veribdir balalar qəmli Əlinin səsinə
Yığışıblar dili-şəbdə ananın dörəsinə
Hamıdan əvvəl Hüseyn saldı özün sinəsinə
Ərz edibdir anacan, qəlbimi doldurdu məlal
Sağlığıntək məni bir dəfə də ağuşuna al
Mürtəza and içir Allaha, nə gördüm o zaman
Kəfənin bəndi açıldı ucalıb ahü-fəğan
Fatimə qolların açdı, özünə verdi təkan
Aldı ağuşə balasın o gülü əfsürdə Zəccə
çəkdi mələkut əhli gəlibdir dərdə

Səhni-mənzildə olar qol-boyun olmuşdu ələn
Ucalıb nalə Hüseyn ilə xanım Fatimədən
Səs gəlib ya Əli forən balanı al anadan
Ərşiyan halını əssaə dolandırdı onlar
Gecənin aləmi aləmləri yandırdı onlar

## Bəqinin Əmirəlmöminin Əliyə (ə) naləsi

Ya Əli sən nimə şəb Zəhranı tapşırdın mənə
Get evin abad ola, cananı tapşırdın mənə

Ləylətul-Qədri-Xuda, ayineyi-ismətdi bu
Höccətəllahsan özün amma sənə höccətdi bu
Rəhmətən lil-aləmin Peyğəmbərə rəhmətdu bu
Məxzəni-sirri-Həqqi-Subhanı tapşırdın mənə

Kimdi səntək keştzari-ömrə toxmi-səbr əkə
Sən kimi bir şiri-mərd istir bunun dərdin çəkə
Bir gözü sədmə görüb məlum olur qanlı ləkə
Haləsi qandan məhi-tabani tapşırdın mənə

Bir sualım var ağa, əzbəs məni diltəng edib
Öz mədarımda dolanmaqdan məni çox ləng edib Seyyidi,
aya xanım da öz qapızda cəng edib?
Çox yeri məcruh olan əzanı tapşırdın mənə

Qol-budağın sındırar hər bir gülü vursa dolu
Hansı gül bu gül kimi eyni baharında solu
Nə gözü salimdi, nə sinə səlamət, nə qolu
Pərpər olmuş bir gülü-zibanı tapşırdın mənə

Çox cavan orət ölübdür, şahidəm mən dəfninə
Belə bir məzlumə amma görməmişdim mən yenə
Zülfü ağ, qəddi xəmidə, heç yaraşmır sinninə
Sinni az, qəddi kaman nalanı tapşırdın mənə

Bu yaralı öz vəfasın aləmə elan verir
Hər səsin gəldikcə guya tazədən bu can verir
Ağlama, sən ağlayanda yarəsindən qan verir
Qəlbi qan ağlır sənə bu ani tapşırdın mənə

Ta baxıb Taha görüb Ümmü Əbihanın üzün
Silidən ad tutmadı rəzm ilə andırdı sözün
Şükuhi-ünvan ilə Tahaya nişan verdi gözün Səslədi
getdin baba, mövlanı tapşırdın mənə

Az zaman səndən sonra nagəh baba üç yüz nəfər
Oldular beyət adıyla Heydər üstə həmləvar
Bidifa gördüm Əlini sinəmi etdim sipər
Ox kimi mismar dəldi ani tapşırdın mənə

Bir qapı ki, sən döyərdin ey məhəbbət gülşəni Vurdular
od, yandı, Qonfuz götürdü təxtə parəni
Mürtəza baxdı, o vurdu, saldı ta dildən məni
La cərm mən boşladım damanı tapşırdın mənə Sən
buyurmuşdun əl açma Mürtəzaya, açmadı
Vurdular namusunu bir zərrə amma daşmadı
Bisəbəb əhvalına divarü-dər ağlaşmadı Səbri,
səbri ağladan insanı tapşırdın mənə

Sadiqi bir neməti-üzmadı Zəhranın adı
Hər kimin Zəhrası vardır, vardı əlhəq hər zadı
Öpmüsən xaki Bəqini, vardı ruhunda dadı
Şükr elə ərz et, xanım ehsanı tapşırdın mənə

## Həzrət Zəhranın (s.ə) həzrət Zeynəbə (s.ə) xitabı

Gəl səni vaqif edim hikmətü-əsrarə qızım
Bu qədər ağlama, pozma məni məhparə qızım

Belə fikr etmə bala fikrizə mən qalmamışam
Neçə müddətdi ki, ağuşə sizi almamışam

Bilisən yarəliyəm gözdən özüm salmamışam
Neyləyim bais olub sinədəki yarə qızım

Xuni-dil həsrətilə əşkinə qat bu gecədən
Vəsli-kalasini hicranıma sat bu gecədən
Təkliyinə adət elə, fikrimi at bu gecədən
Kərbəlada səni görrəm ürəyi yarə qızım

Babanın fikrinə əlbəttə özün qal gecələr
Onu dindir ürəyindən qəmini al gecələr
Hər namazında xəyala məni də sal gecələr Kömək
et qüssəlidir Heydəri Kərrarə qızım Gecəni xəlq
edib Allah ki, cəhan zülmət ola
Göz-gözü görməyə məzlum atana fürsət ola
Gedə çöllərdə boşalda ürəyin rahət ola
Sözlərin çahə deyib, ağlaya ənharə qızım

Hər baxışda dili-məcruhumu sən dağlayısan
Baxısan üzdəki sili yerinə ağlayısan
Hey gözümdən öpüsən əşki üzə bağlayısan
Neylirəm toxdadı qurbandı gözüm yarə qızım

Sizə bir Kərbübəla var ki, bəla baş verəcək
Həqq Özü Ali-Əbaya qəmi yoldaş verəcək
Kərbəlaya sənə bir sevməli qardaş verəcək Adı
Abbasdı, məşhur ələmdarə qızım

Xoşdiləm mən o qəddi-qaməti Heydər səmərə
Çəp baxanmaz sizə bir kimsənə Abbasə görə

O da oğlumdu mənim bu sözümü al nəzərə
Can fəda eyləyəcək xırdaca qızlara qızım

O balam həşrə kimi babül-həvaic olacaq
Üz qoyan ləhzədə meydana cəmalın solacaq
Çiyninə məşgi gedən vəxtdə Səkinəm salacaq
Məşginə ox dəyəcək, məşg olacaq parə qızım

Kərbəlada ona hər sədmə yetər billəm özüm
Çəkərəm başına əl, qəlbində qəmin silləm özüm
Ox dəyəndə gözünə başı açıq gəlləm özüm O
zaman qəm yetişər itrəti-ətharə qızım

Bir Rübab adlı gəlin bu evə bir gün gələcək
Oxlanıb südəməri qəlbini möhnət dələcək
O da bu evdə elə gün qabağında öləcək
Olacaq niskil onun möhnəti əhrarə qızım

## Həzrət Zəhranın (s.ə) Əmirəlmömininə (ə) xitabı

Gəl əmoğlu ömrüm günəşi az qaldı bata
Sən mənə Quran oxu, ey şəhriyari-Həl-əta

İstərəm Quran səsinlə azimi-rizvan olum
Bir hicazi ləhni başla ləhninə qurban olum
Göz götürmə gözlərimdən eşqinə mehman olum
Bax mənə canım çıxınca ey əmiri-masəva

Qəlbdən eşqin sənin bir an kənarə qoymaram
Mən sənə vabəstəyəm, rəxti-əlayiq soymaram
Hər qədər baxsam bilirsən gözlərindən doymaram
Ağlama qoy çox baxım ey gözləri dərdü-dəva

Beyətə xatir çəkirdi məscidə sani səni
Boşlamırdım, tutmuş idim mən səni, Zeynəb məni
Qonfuzun qalxdı əli, soldu vücudum gülşəni
Mən yıxıldım öz qapımda, sinə də batdı qana

Mən özüm məsuməyəm heç sözdə rəddə getmərəm
Sən imamımsan, sənə təyini-təklif etmərəm
Vursalar yüz dəfə ölsəm şənini əsgitmərəm
Sən ağamsan, sərvərimsən, dilbərimsən müqtəda

Öz qəmim yaddan çıxıbdır əşgrizəm mən sənə
İsmətullaham özüm billəm əzizəm mən sənə
Xilqətin Zəhrasıyam amma kənizəm mən sənə
Bilsin aləm ki, bu evdə mən kənizəm sən ağa

Pozğun əyləşmə başım üstə aya miri-hümam
Ağlama bu tərz ilə ey sərvəri vala məqam Ağlayanda
sən yaram göynür ürək etməz davam
Ağlaram Zeynəb də ağlır başlayır şurü-nəva

Bu iki ağlar gözüm daim tökər əşgin yerə
Bilmişəm təklifini bu gözlərin mən yeksərə
Bir gözüm ağlar sənə, bir göz babam Peyğəmbərə

Vəslinə nail olam müştaqəm ey miri-hüda

Gördü Zəhra əşgilə sərşar Kərrarın gözün
Dözmədi gözyaşlı görsün yari-dildarın gözün
Naxoşun qalxıb əli sildi pərəstarın gözün
Səslədi sən ağlama Zəhra sənə qurban ola

Söylədi Heydər həman Kərraram ey xilqətdə şam
Ömərlər öldürmüşəm əda olubdur qəlü-qəm İstəsəydim
hammısın birdə qırardım dəstə cəm
Bu azan olmazdı, amma nə səlat və nə dua

Əmri-Taha səbrimə baisdi, ey əfzun qəmi
Ayrı bir hikmət də var bilməz çoxu bu mübhəmi
Bu sükutum şiəyə xatirdi tutsun aləmi
Vədə vermişdi bizə çün şiəni əvvəl Xuda

Keşməkeş başlandı bildim dinmədim, qəlb dağladım
Sən çağırdın Fizzəni, mən də özümü saxladım
Ta səsin birdən ucaldı, Zeynəbi mən yolladım
Get dedim öyrəş qızım vardır qabaqda Kərbəla

## Zülfüqar

Əgər Ruhul-Qudus dəm vursa feyzi-canfəzasından
Qələm bir süfreyi-rəngin açar şərhi-rəsasından
Mürtəza eşqilə kəlmə-bekəlmə sözləri düzsəm
Görərsən porbəhadır gənci-Qarunun təlasından
Əli Tövrat, İncil və Zəbur, vasili Qurandı

Bizə təfhim olur babi-ülum Mutafasından
Kiməm tərif edəm mən məzhəri-küllül-əcayibdən  Gedib
Qurana bax, şənin xəbər al Həl-ətasından
Əlidir sadiri-kamil, Əlidir aşiqi-amil Əlidir
qaziyi-adil, qəzavətdə qəzasından
Əli Qurani-münzəldir, əvvəldən əvvəldir
Peyəmbərlərdən əfzəldir, məgər Taha və Yasindən
Əlinin rəfəti-şəni salıbdır şübhə xəlqə Bir
iddə fikr edib allahdı, öz zənni-xətasından
O movlanın məqamı müxtəsər birdən olur peyda
Və matəş-Şafi və ləysə yədri  qəd kəfasından
Ki, yəni Şafi öldü və lakin bilmədi axər
Ki, Allahdır Əli, ya yox kamali-etilasından
Buyurdu həzrəti Sadiq bu mətləbi özü möhkəm
Əmir əl-möminin tənha Əlidir ibtidasından
Biri qeyr əz Əli bu iddianı eyləsə mütləq
Ki, mənkuhud-duburdur  müddəi öz iddiasından
Əli öz nəşinin pişvazına gəldi gecə vəxti
Bu iş görsənməyib nə ənbiya, nə ovliyasından
Əlinin adı hər yerdə deyilsə, Fatimə orda
Ki, ayrılmaz vəfalı aşina öz aşinasından
Sözüm bir ayrı mətləbdir gözüm yaşı aman versə
Görəkdir başlayam başdan Xudanın ittikasından
Əvamünnas ümmət Mürtəzanı eylədi məzlum
Sükut etdi benahəqq satdı dinin qəhqərasından
Qədiri-Xumu yetmiş gündə nadidə tutub dandı Olar ki,
zahirən hacıydılar bimöhtəvasından Xudaya, cahili öz
cəhlinə agah elə bilsin
Və bir də aləmi hifz eylə nəfsin bəd həvasından

Yerin üstündə cəmiyyət köçübdü neçə milyard
Çoxu kafirdi, inkar eyləyib dini əsasından
Qalanda iddiayi-din edir, şiə və ya sünni
Olardan kəm deyil gahi günahü-ibtilasından
Nə qədri yer üzündə bu xəlayiq məsiyət etsə
Ona şirkətdi sani ta qiyamət öz cəzasından
Deyiblər, əvvəlin xişti əgər memar kəc qoysa
Sürəyyayə kimi divar kəcdir, kəc bənasından
Peyəmbər öldü, xişti əvvəli bu sani kəc qoydu
Mübarək peykəri-dinə vurub xəncər qəfasından
O tohin eylədi Tahaya vəxti-ehtizarında
Buxari öz Səhihində yazıbdır macərasından
Onun tərhiydi Şura da, Əli xanəneşin oldu
Qapı yandı, Fədək getdi, ölüb Zəhra yarasından
Özü bədxülq idi, Movlaya guya eylədi izhar
Deyibsən ağlaram peyvəstə Zəhranın vəfasından
Mən ilə durmusan indi və lakin ağlamırsan sən
Niyə təbliğ edirsən bu sözü boş iddiasından
Əlinin halı döndü ta ki, Zəhranın adı gəldi
O namərdin cavabın verdi ləhni-dilrübasından Dedi:
Zəhraya hər yerdə tək olsam gözlərim ağlar
Siz ilə bahəm olsam qəlbim ağlar, ixtifasından
Əlimi bağladı Taha, Bətulu kuçədə vurdun
Mənə göstərmədi sili yerin amma həyasından
Edib qasibləri mövləl-məvali bu sözə agah
Əli məzun deyil izni Xudayi-zülətasından Əgər
məzun olub haqqızdakı ayati açsaydım
Deyərdim xəlqə kimsiz, niyyətizdə ibtidasından
Danışsam tez deyərsiz Mürtəza dünyaya talibdir

Sükut etsəm deyərsiz qorxur ölümün həvasından
Sükutum şiə və Qurana xatirdi, bilin gərnə
Qırardım hammızı vəllahi, bu zülmün cəzasından
Əlinin səbri dildən saldı səbri ya Rəsuləllah
Və lakin çıxmadı bir ləhzə əmri-pişvasından
Deyillər təngə gəldi Zülfəqarı səbri-Mövladan
Dil açdı öz diliycə bir günü izni-Xudasından
Bu sani Samiritək bir böyük fitnə edib bərpa
Əbu Bəkri çu qusalə danışdırdı xəfasından
İcazə ver ağa, boynun vurum, səhərin edim batil
Məgər mən kəmtərəm Musəbni İmranın əsasından
Edim bir zərbət ilə qəri-duzəxdə onu sakin
Cəhan əhli xilas olsun o bidinin xətasından
Məni şaha, uşaqlardan bu əndazə utandırma
Həsən ağlır, Hüseyn ağlır, qəmi-biintəhasından
Deyəndə oxşama Zeynəb sızıldar tiğeyi-tizim Qəlaf
içrə nəvanı başlaram Zeynəb nəvasından
Xilas eylə qəlafımdan bu dəfə Zeynəbə xatir
Öləndən Fatimə şərməndəyəm mən Ali-Yasindən
Vücudum vəqfdir Qurana, mən Zəhraya mədyunam
Əlindən öpmüşəm hərdəm yuyanda öz vəfasından Həmin
bu Zülfəqar idi Hüseynə çox kömək etdi
Vəli əfsus ola, şah yorğun idi çox yarasından
Hüseynin Əkbəri ölmüşdü, qəlbi dağidar idi
Hələ qanı qalırdı, getməmişdi heç Abbasından
Bu şerin Sadiqi yoxdur nəziri şerlər içrə Sənə
ehsan edib mövləl-məvali öz ətasından
Əmir əl-mömininindən şerinə bir Kərbəla istə
Pəsənd etsə verər muzdun Hüseynin Kərbəlasından

## Həzrət İmam Həsənin (ə) şəhadəti

**(Sinəzəni)**

Can verdi Həsən, bülbülü-baği-mühən öldü
Sili yerini kuçədə əvvəl görən öldü

Göz yaşını rüxsarına bağlardı həmişə
Həsrətlə yanan qəlbini dağlardı həmişə
Zəhrayə dəyən siliyə ağlardı həmişə
Kim alsa xəbər, mən deyərəm kuçədən öldü

Sözdən söz alır qüssəli qəlbim söz evində
Əşkim dolanır şamü-səhərdə göz evində
Əmniyyəti yoxdur bu şəhidin öz evində
Zülm ilə gecə zəhri-cəfanı içən öldü

Məsmum elədi Cudə şəhi-ərşi-vəqarı
Zəhrin əsərindən göyərib rəngi-üzarı
Səsləndi həraya bacısı Zeynəbi-zarı
Dur səslə Hüseyni, denən qardaş Həsən öldü

Bu zəhri-cəfadan bacı rəngim saralıbdır
Qardaşlarımı səslə ki, səbrim azalıbdır Abbasə
demə Cudə bu əhvala salıbdır
Dözməz görə bu nəhvilə şahi-zəmən öldü

Ta gördü Hüseyn qardaşını səbri azaldı
Ömrüm gülü zülmilə dedi soldu, saraldı
Getdim anamın yanına Qasim sənə qaldı
Əkbərdən ayırma onu, bu mümtəhən öldü

Qoş Əkbərinə oğlumu dilşad elə qardaş
Qəmli ürəyin qüssədən azad elə qardaş
Məndən sonra sən Qasimi damad elə qardaş
Şayəd ürəyində görə dərdü-mühən öldü

Qismət bu imiş səbr elə ənduhu-fəraqə
Bir gün gedəsən Zeynəb ilən səmti İraqə
Verməz bir içim su o yerin əhli qonaqə
Onda görəsən bülbülü-bağü-çəmən öldü

Düşsən yaralı peykərilə qanlı minayə
Səbr eylə bəliyyatə o gün gəlmə nəvayə
Gəlləm anam ilə mən özüm Kərbübəlayə
Onda deyərəm qəlbini Taha öpən öldü

Orətdə təfavüt nə qədər var hamı bilsin Bax
qəmli Rübabə ürəyin qəm oxu dəlsin
Vəllahi, Rübabın qadası Cudəyə gəlsin
Ağlardı Hüseynə o qədər qüssədən öldü

Aşiq odu daim ola yarın sorağında

Zəhranın ədəbli gəlini qəm siyağında
Axırda verib can özü də gün qabağında
Zeynəb dedi vay Əsğərə lay-lay deyən öldü

## Mədinədən çıxış

Şəbanə şəhri-Yəsribdən Hüseyn xunin-dil ayrıldı
Bətulun qəbri üstündən vəli çox müşkül ayrıldı

O itgin qəbrin üstündə Hüseyn yerdən duranmırdı
Döşənmişdi ananın qəbrinə heç ayrılanmırdı
Tökürdü seltək əşgin üzarə saxlıyanmırdı
Xudahafiz edib öz madərindən acil ayrıldı Keçirdib aşiq küllü karivan eşqini sandan
Baxıb məcmu üşşaqə əlamət gördü nöqsandan
Görüb bir südəmər kəmdir, quruhi-eşqbazandan
Götürdü Əsğərin olsun quruhu kamil ayrıldı

Vurub Süğra təfəüül Əkbərin səd tari zülfündən
Dilaviz oldu naz ilə o dəm dildari zülfündən
Dedi qoy eyləyim əhvalim istifsar zülfündən
Nə gördü vermədi yol istixarə bir tel ayrıldı

Dedi ey vay mənə, ol tari-muya bənd idim qəlbdən
Təbibi-eşq yazmışdı mənə dərman o kakildən Gələndə ağladın bildim özüm axırdan, əvvəldən
Qırıldı rişteyi-vəslin Əli teldən, qəlb ayrıldı

Buyurdu Qasimi-naşadə ol dəm şahi-dilxəstə
Ayağa dur gedək bir Müctəbanın qəbrinin üstə

Babandan bir xudahafiz elə ey sərvi-norəstə
Denən qoymur qalaq burda bu qövmi-batil ayrıldı

Dedi Qasim baba məndən ötrü çox bağrıqan olma
Bu axər gəlməyimdir qəbrinə dərdə nişan olma
Əmim ilə mən də getdim Kərbəlaya nagiran olma
O qədri ağladı guya uca dağdan sel ayrıldı

Çıxıb dərvazeyi-şəhri, Hüseynin göz yaşı axdı
Dönübdür çiyni üstündə Bəqinin səmtinə baxdı
O baxmaq Zeynəbi yandırdı bil-mərrə o da baxdı
Qalıb Süğra tək evdə, karivan əlhasil ayrıldı

## Mədinədən köç

Ta bar olundu naqələrə bari-qafilə
Müşgülqoşa əzizi-Hüseyn düşdü müşgülə
Ali-Əba Mədinədə rahət qalanmadı Tərk
etdi evlərin gecə vəxti düşüb çölə
Rahət nəfəs çəkə onları, qoymadı fələk
Ali-Rəsulu satdı zəmanə ərazilə
Əmr elədi imam ki, Süğranı bir görün
Könlün alın mərizdi ol doxti-kamilə
Əmri-imam ilə gecənin vəxti əhli-beyt
Gizlin vidayə mənzili-Süğraya gəldilər Qəm
bəstərində gördülər bir dilrüba yatıb
Cismi əsir o nəhvilə ki, yel dəyər gülə
Əyləşdi bir tərəfdə Rüqəyyə Rübab ilən
Qundaq içində Əsğəri Süğraya verdilər

Bir baxdı Əsğərə o zaman bildi mətləbi
Tazə libası var gedir ayrı mənzilə
Zeynəb açıb sözü dedi: Süğra gedir hamı
Qismət budur nə çarə qızım, eylə
hövsələ Qəlbin darıxsa evdə oturma
Bəqiyə get
Zəhraya de sözün, ürəyin bəlkə dincələ
Əyləşmə tək otaqda, darıxdırma öz-özün Hər
dəmdə get günüzləri Abbas əmingilə
Ta ki, eşitdi bu sözü səslədi vay mənə Hammı
gedir yanımda qalan yox bu mərhələ Va
qürbəta dilində kəənnhu ovunmadı
Guya alovlanan cigərin çəkdilər milə
Ərz etdi: Əsğərin hələ heç qırxı çıxmayıb
Sinni bu norəsin əcəba çatmayıb ilə
Yalvardı, ağladı o qədər zaru-xəstə dil
Bir nəhvilə xanımlar onu tutdular dilə
Leyla xanım qəza və dəvasın xəbər alıb Verdi cavab xuni
cigərdir qəza hələ
Əkbər gələndə əzr eylədi yaxşıyam ana
Bir gün yubansa vay halıma iş gəlib belə
Mən Əkbərin mərizəsiyəm qoymayın gedə
Bağlayıb fələk bu ömrümü bir tari kakilə
Yerdən durubdu Əkbəri bir də qucaqladı
Səsləndi müşgülü sən özün bari həll elə
Bəs kim qalır Mədinədə ölsəm əza tuta
Yandırdı kainatı o banuyi-fazilə
Əlqissə, karivan gecə vəxti düşüb yola
Gözdən itib o dəm ki, uzaqlaşdı qafilə

Qoydu üzün o halda Əkbər otağına Qüflün
öpüb, alışdı ürək, az qalıb ölə
Axdı sireşgi səslədi ki, siz gedin gedin
Süğra ögeydi şayəd odur düşdü müşgülə

## Həzrət Süğranın (s.ə) əhvalatı

Rəsmidir şanə deyər zülfü-pərişanə sözün
Andırar rəmzilə ta bilmiyə biganə sözün
Bu məlahət, bu lətafət ki, sənin var cana Yeri
vardır yazalar səfheyi-Quranə sözün
Naz edəndə mənə nazında nələr var demərəm
Açmaram özgələrə nərgizi məstanə sözün
Hər zaman dərdin olanda de təbibin özünə
Demədi mur, o zəfilə Süleymana sözün
Baxma Yusif dedi öz dərdini biganələrə
Sən həmişə degilən həzrəti cananə sözün
Müfti-əzəm eşqin bizə fətvası budur Zülmdür
kim deyə aqillərə divanə sözün
Bir gecə şəmilə xəlvət elədim sübhə yaxın
Ta salam məhfilə bir nəhvilə pərvanə sözün
Adını tutdum alışdı mənə qeyzilə dedi Dəstəmazsız tutma
adın salma şəbistanə sözün
Dedi çox baxma həqarətlə bu pərvanələrə
Çox əcib işləri var gər dözəsən sanə sözün
Nə qədər sağdı, salamatdı danışmaz əbəda
Alışan vəxtə deyir şəmə bu divanə sözün
Ağladar şəmi öz əhvalına ta sübhə kimi
Əşki şəmilə qatar ta verə payanə sözün

Gərçi şagird idi, özünün məktəbi var
Qanadında yetirir şöleyi-suzanə sözün
Xəbər aldım deyirəm kimdi onun ustadı
Dedi Süğradı düzər əşgilə müjqanə sözün
Əkbərin dərdi bu Süğranı ayaqdan saldı
Ayrı dərdi yoxdu ta deyə cananə sözün
Duduman bağlı qalıbdır bir elin ayrısıdır Nə
gedib, nə qala bildi deyə bir yanə sözün
Eşqi Əkbər otağı idi, o da ki, bağlı qalıb
Qapısın hər gün öpərdi deyə hicranə sözün
O qədər bağlı otağın qapısın öpmüş idi Adət
etmişdi deyərdi ona ruzanə sözün
Gün batan çağı durub tez sürünərdi qapıya
Ərz edərdi yana-yana Həqqi Rəhmanə sözün
Bir gün əyləşmişidi gördü ki, bir səs gəlir
Qasidəm səmti İraqa varun aya nə sözün
Eşitdi vəxti İraq adın itirdi özünü
İstədi yolluya dildarə qəribanə sözün
Naxoşun durmağı müşküldü, süründi eşiyə
Ağlayır dildə deyir Xaliqi Subhanə sözün
Səslədi getmə dayan, məndə verim bir namə
Yazmışam əşgilə ey qasidi-fərzanə sözün
Baxdı qasid ona gördü ayaq üstündə ölüb Ürəyi
yandı dayandı ala dürdanə sözün
Xəbər aldi ki, xanım yolda kimin vardı? Dedi:
Əkbərə müntəzirəm ta ki, alam canə sözün
Bir neçə xırda uşaq caməsi bir boxça ara
Vurdu namilə dedi zimni-həkimanə sözün
Qasidə neçə əlamət babasından saydı

Ki, özü şahdi deməz qeyri-Mənnanə sözün
Sinni altmış hələ olmaz, üzü çox nurani
Oxşadar hər eşidən ayeyi-Quranə sözün
Bir əmim var uca boy sağ tərəfində dayanar
Babamın arxasıdır ərz elər sultanə sözün
Bir cavan sol tərəfində adı Əkbərdi onun
Qardaşımdır o mənim pəxş elə hər yanə sözün
Çatmadı qaşları, başda yaşıl əmmaməsi var
Özü bir aydı, deməz heç məhi-Kənanə sözün

## Həzrət Süğranın (s.ə) əhvalatı

Əli sənin adını nəqli-məhfil eyləmişəm
Ki, şəmi-məhfilimi bir yanan dil eyləmişəm
Əgər dübarə sənə üzbəüz gözüm sataşa
Bu xəstə canımı nəzri-şəmayil eyləmişəm
Namazi-sübhü ki, qıllam, Əli, Əli deyərəm
Sənin gözəl adını mən nəvafil eyləmişəm Fələk
bizi ayırıb, yoxsa bivəfa deyilsən
Özüm-özümə iqameyi-dəlayil eyləmişəm
Sənin bu bağlı otağın məni kabab eləyib
O asitanədə hər ləhzəmi il eyləmişəm
Batanda gün mənə birdən ürək döyünmə gəlir
Qurub vəxti gözüm yaşını sel eyləmişəm
Gözüm yaşilə sənə namə yazmışam bu
gecə Vəfalı qasidilə indi rahil eyləmişəm
Yubansa qasid əgər çoxda nagiran olma
O qədər ağlamışam yolları gül eyləmişəm
Əli həmən gecə ki, siz Mədinədən çıxdız

Aparmaduz məni çün əmri müşgül eyləmişəm
Məni qaşın qılıncıyla şəhid edəydin kaş Sənin
qələm qaşını canə qatil eyləmişəm
Cahanda sənsiz əgər Nuh qədri ömr eləyəm
Yox ərzişim nə qədər olsa zail eyləmişəm
Öləm yenə diriləm bir dəqiqə sənlən olam
O bir dəqiqədə bir ömr kamil eyləmişəm
Amandı çox da yubanma qabaqda bayram var
Görən səni soruşur bəs ki, nisgil eyləmişəm Keçən
gecə Əli bir qorxulu yuxu gördüm
Qiyamətdi desəm gər rəsail eyləmişəm

## Həzrət Müslimin (ə) xitabı

Mən Əqilin oğluyam Müslim adımdır ey cəmaət
Hər qədər canımda can var eylərəm dinə himayət
Mən ətiullahdakı nəfsi-ulul-əmrə səfirəm
Heydəri Kərrar əmimdir məsdəri sədri-imamət
Şöhrətim Seyfi-Bəni-Haşimdi, şərzə şirgirəm
Naibi-xassi imamam, həqqə mənzurimdi xidmət
Cövrü-zülmü-kinədə Ad və Səmuda bənzəyirsiz
Haqdan Haqqa uzaqsız yoxdu sizlərdə dəyanət Ey
gedib Hindi-cigərxar oğluna tez xar olanlar
Uff olaydı sizlərə yox zərrəcə sizdə şərafət
Namənizin imzaları qurumamış döndüz sözüzdən
Etmisiz dəvə yükü qədərində siz namə kitabət
Tövə bir övrətdi sizdən başdı qeyrətdə şərəfdə
Hərzə övrətdən də kəmtərsiz aya qövmi-zəlalət
Baxmayın siz dönmüsüz Müslim ölər dönməz Hüseyndən

Axmasa bir qan Hüseyn üstə o qanda yoxdu qeyrət
Cəng edib əzbəs yoruldu şəhridə sərdari-tənha
Tutdular məkrilə axirdə o sərdari o saat
Gətdilər ibn Ziyadın bəzminə məcruhü-xəstə
Qolları bağlı dayandı vüqarla çox basəlabət
Bir nəfər səslədi təzim və salam eylə əmirə
Ta əmir adın eşitdi çox geran gəldi bu söhbət
Etdi fərmayiş əmirim Fatimə oğlu Hüseyndir
Mən Hüseyndən qeyrinə baş əymərəm yox məndə adət
Vəqfdir başım Hüseynə mən qulamam, o ağamdır Ölsə
də Müslim qoy ölsün ki, Hüseyn başı səlamət
Mən gələndə Kufəyə hər dərsimi şahım veribdir
Ali-Haşim eyləməz hər bisərü-padən itaət
Təkləyibsiz siz məni yox heyf ola Abbas əmoğlum
Neyleyim ki, olmadı yanımda ol kani-şücaət
Kufədə Abbas olaydı ol zaman məlum olardı
Kim kimin bağlar qolun meydanda ey qövmi- şərarət
Kufəyə gəlsəydi əlan qollarım bağlanmaz idi
Saxlıyanmazdız məni qol bağlı ey əhli-şəqavət
Arizuyi-Müslimi yazdım qələm sözdən söz aldı
Müslimə ərz eyləsəm bu mətləbi olmaz cəsarət
Kufəyə Abbas əmoğlunda gəlib amma nə gəlmək
Bir təbəqdə bir dağılmış baş daxı yox şərhə hacət
Tək sənin qollarını bu çərxi kinə bağlamayıbdır
Zeynəbin də qolları bağlıydı ey kani şəhamət
Bu fələk namərdidi, düz olsa bir əl fori bağlar
Fasiqin amma açıqdır əlləri eylər cinayət Şahidim
də xeyzərandır qanlı ləblərdən xəbər al
Neçə dəfə qalxıb-endi qopdu məclisdə qiyamət

Bilmirəm nə oldı uşaqlar hamısı durdu yerindən
Səsləniblə vurma-vurma saxla əl ey pəstfitrət
Gördü qızlar Zeynəbin hər yerdən ümidi kəsildi
Döndü Abbasə tərəf bir baxdı gözdə əşgi-həsrət
“Sadiqi” bəzi camaat dandılar Həqqül-yəqini
Pis verub çün dərsini sani, o ustadi-xəbasət
Bir kəsiki əl açıb “həyyə əla xəyrul-əməl”dən
“Əssəlatu xəyru min novmi” azanda qoydu bidət
Tinəti-Ali-Əlidən xəlq olub şiə əzəl gün
Lacərəm tərkib olanmaz heç zaman nurilə zülmət
Bizlər ilə düşmənin hərgiz suyu bir arxa getməz
Düşməni-Zəhra ilə axir nə qardaşlıq, nə vəhdət

## Rübai

Kim aşiq olsa əgər fikri-nəngü-nam eyləməz
Əsiri-eşq olu dünyadə əxzi-kam eyləməz
Dedilər ibni Ziyadə gərək salam edəsən
Buyurdu Müslim ölər fasiqə salam eyləməz

## Kərbəlayə giriş

Bu yerdi bacı eşqidə ecaz eləyən yer
Kəbə yerinə həşrə kimi naz eləyən yer

Bir mədfən olar burda ki, üşşaqə məhəldi
Çün Tur, təcəlligahi-ənvari-əzəldi Hər
guşəsi minlərcə behiştdən də gözəldi
Zülfün bacı xoşdur ki, mənim xələtim olsun

Bir köhnə həsir ilə gərək ülfətim olsun

Başdan-başa bu yer qəmü-ənduh və nəvadı
Baxma o Fəratın səsinə ruhfəzadı
Burda su verilməz qonağa Kərbübəladı
Tiri-qəmü-möhnət dili-pakın böləcəkdir
Baxma o suya qardaşın ətşan öləcəkdir

Bu yerdi bacı göz yaşını qanə qatan yer
Cənnatə təfaxür eləyib, naz satan yer
Dilsiz balama ovçu yaxından ox atan yer
Ox Əsğəri güldürsə sireşgim tökərəm mən
Dilsiz balamın qanını ərşə səpərəm mən

Bir yerdi bacı halıma beytül-həzən ağlar
Mədfəndi mənə qəbrimə həsrət çəkən ağlar  Zəvvarım olar qəbrimin üstə gələn ağlar
Xuni-dili göz yaşıma hər dəm qataram mən
Bir qəbridə Əkbər balam ilə yataram mən

Gərdişdədi ta çərxi-fələk günbəzi-dəvvar
Olmaz elə bir qəbri görən ta ki, cahan var
Bir yerdə ata cüt balasıylan yatışıblar
Əkbər ayaq altında yatıb qəlbi şikəstə
Əsğər də yatıbdır atanın sinəsi üstə

Şah barmağı ilə bir tərəfə etdi işarə
Bir söz dedi Zeynəb dilinə saldı şərarə

Ordan bacı qızlar qaçacaq dəştü-kənarə Alam
və mühən zahir olub bəllidi Zeynəb
Gözlür yolunu, bax ora da təllidi Zeynəb

Qəm tirini öz qəlbinə daim saçacaqsan
Səy üstə Səfa eyləməyə yol açacaqsan
Qodalə tərəf sən bacı ordan qaçacaqsan
Gözdən tökəcəksən üzünə göz yaşını Zeynəb
Orda yıxacaqlar yerə qaradaşını Zeynəb

Gün batdı uşaqlar sözü dillərdə yatışdı
Yorğun balalar yol tozu tellərdə yatışdı
Yəsribdə qalıb evləri çöllərdə yatışdı
Əvvəl gecə yatmaqları çox qüssəli oldu
Qızlar yata çöldə bu gecə əvvəli oldu

## Hürrun (ə) tövbəsi

Ya Hüseyn, Hürrü-pəşimanü-diləfkarəm ağa Gəlmişəm
qovma qapından çox günahkarəm ağa

Seyyidim, gəlmir üzüm dərgahına üz döndərəm
Hürrü-nalanəm, məni əfv et, aya kani-kərəm  Sən
əlimdən tutmasan məhşər güni mən neylərəm
Xeyridən boşdur əlim möhtaci-isarəm ağa

Qüsli-tövbəmdir üzümdə göz yaşım ey möhtəşəm
Düzdü səngindir günahım mən sizi incitmişəm
Hər nə olsam da ağa indi qapından girmişəm

Əfv elə, qovma məni, yox ayrı bir çarəm ağa

Müxtəsər bundan qabaq öz ağlıma etdim rücu
Feyzi-tövbə şamil oldu halıma tapdım xüzu
Gəlmişəm sürtəm üzüm toprağına dildə xüşu
Sən qəbul et tövbəmi gör nə fədakarəm ağa

Sənsiz ömrü neynirəm xoşdur həyatı boşlayam
Pişmərgi-eşq olam, dərdü-bəlanı xoşlayam
Mən sənə müddətdi şaha, xəstə bir can borcluyam
Gəlmişəm borcun verəm indi bedehkarəm ağa

Almışam öz canımı əssaə şaha ovcuma
İmtahan eylə məni ta sabit olsun müddəa
Əmr elə qara qulun qəlladə vursun boynuma
Mən hürüm, çəksin məni bəski səzavarəm ağa

Baxma nəfsi tovlamışdı Hürrü ey miri üməm
İndi amma nadiməm qəlbdən aya kani-kərəm
Zülcənahın nalının tozun kainata verməræm Sabiqən
əğyar idim, əssaə əxyarəm ağa

Mayiləm cami-viladan mən də bir cürə dadım
Zadi-rahi-eşqim olsun malü-canim hər zadım
Küsmüsən məndən barış, ta həşrə tək qalsın adım
Ad sənindir, mən kiməm bir zərreyi-xarəm ağa

Lütfün olsa ya Hüseyn dərdi-dil ağaz eylərəm
Aşiqanə gəlmişəm dərgahına raz eylərəm

Sən mənə nokər desən, mən şahlara naz eylərəm
Tut əlimdən sərfəraz eylə giriftarəm ağa

Qayəti-amali-eşqü-arizusan sən mənə
Qul huvəllahu əhəddə şərhi-husən sən mənə
Abirudan düşmüşəm mən, abirusan sən mənə
Abiru ver abirundan mənə zarəm ağa

Mən səni verrəm qəsəm şaha cavan qardaşına
Rəhmətindən həlqə vurmış gözdəki göz yaşına
Əkbərə xatir ağa Hürrü dolandır başına
Yox demə sən bil balan canı xətakarəm ağa

Acizanə bir sözüm vardır sənə ey xoş xisal
Eylə bu biçarəni lütfilə məşmuli-nəval
Xırda qızlardan mənə şaha özün halallıq al
Keçməsə qızlar əgər möstocibi-narəm ağa

## Vəhəb və Abisin (ə) əhvalatı və həzrət Abbasın əhvalatına (ə) işarə

Səni ziba yaradan davərə eşq olsun Hüseyn
Zati-pakında olan gövhərə eşq olsun Hüseyn
Səni ərşə aparan şəhpərə eşq olsun Hüseyn
Sən kimi əhli-vəfa rəhbərə eşq olsun Hüseyn

Ya Hüseyn zikr eləyən dillərə eşq olsun Hüseyn

And ola qızlarının dildəki nisgillərinə
Zeynəbin Kərbübəlada dağılan ellərinə
Əkbərin gözlərinə, Qasiminin tellərinə
Uca boy qardaşının məşki tutan əllərinə
Dini sən hifz elədün yeksərə eşq olsun Hüseyn

Aşiqə fərq eləməz Kəbə, bütxanə ya deyr
Harda yar olsa ora qiblədi üşşaqə nə qeyr
Şozəb ilə Hənzələ, Cündəb, Hürr ilə Büreyr
Şühəda şeyxi Həbib ibni Məzahirlə Züheyr
Müslimə, Ovsəcyə, Amirə eşq olsun Hüseyn

Şəbi-Aşurada üşşaqə təkan verdin sən
Cənnəti xeyməyə gətdin həyəcan verdin sən
Qozadın barmağını möcüz əyan verdin sən
Barmağından görünən kovsərə eşq olsun Hüseyn

Hamı baxdı məgər Abbas neveştimdi mənim Sən
olan yer dedi kəbəmdi, keneştimdi mənim
Cənnətim nazlı Rüqəyyəndi sereştimdi mənim
Əkbərin bircə qələm qaşı behiştimdi mənim
Neynirəm cənnəti mən Əkbərə eşq olsun Hüseyn
Qoymadın eşqidə kəm rətbin və la yabisdən
Sibqət aldın əcəba sabi və həm sadisdən
Kimiya misli ayırdın zəri-nabi misdən
Bəzədın gülşəni-eşqi Vəhəb ilə Abisdən
Bağibana, çəmənə, güllərə eşq olsun Hüseyn

Fəqət on yeddi gün idi ki, toy etmişdi Vəhəb
Anası, həmsəri yanında o pakizə nəsəb
Şühədada var idi adı onun ya lələcəb
Bildi ki, dəvət olub qəlbi tapıb şuru tərəb
İstədi rəzmə gedib qan verə eşq olsun Hüseyn

Bəski övrət özü şirkətdi hamı nikü-bədə
Təzə damadı odur həmsəri qoymurdu gedə
İstəmirdi hələ bu tezlyə çün tərkin edə
Hey deyirdi daxi ondan sonra dünyada nə edə
Yalvarırdı o mələk mənzərə eşq olsun Hüseyn

Vəhəbin həmsəri rüxsət demə rahat verdi
Dedi tazə gəlinəm üz ona riqqət verdi
Noərus ağladı hey göz yaşı şiddət verdi
Ta Hüseyn şəxsən ona vədi-şəfaət verdi
Vəhəbə söylədi get bilmərrə eşq olsun Hüseyn

Dedi hicranə daxi səbr edərəm yoxdu sözüm
Get Hüseynə kömək et, məndə qəmə çoxdu dözüm
Əbri-neysan kimi qoy ağlaya hicrində gözüm
Həşridə Fatiməyə mən də kəniz ollam özüm
Belə tazə gəlinə, həmsərə eşq olsun Hüseyn

İzn alıb getdi Vəhəb qaldı anası, hərəmi Bir
sifariş eləyib Zeynəbə də bişü-kəmi
Noərusim sənin ümmidinə qaldı nə qəmi

Əgər ölsəm yenə Leyladan ayırma anamı Gözlərindən axan əşgi-tərə eşq olsun Hüseyn

Çox rəşadətlə gəlib ləşgər ilə cəng elədi
Ərsəni ali-Yəzidə o cavan təng elədi
O qədər qırdı Ömər Sədi də diltəng elədi
Nəfəsin tazələyə xeyməyə ahəng elədi
Gəldi bir yol da anasın görə eşq olsun Hüseyn

Qaydıb xeyməyə yorğun yaralı peykəri qan
Qol-boyun oldu anasıyla o pakizə cavan
Heyni-söhbətdə edib madərinə belə bəyan
Vəhəbindən deyirəm indi razısan anacan Bir belə şirzənə, madərə eşq olsun Hüseyn

Dedi fürsət ələ düşməz belə mehman olasan
Ömrüdə ləzzət odur həmrahı canan olasan
Bu Hüseyn çox ağadı get şitaban olasan
Mən səni yollamışam Əkbərə qurban olasan
Təzədən verdi özün ləşgərə, eşq olsun Hüseyn

Vəhəbin kəsdi başın atdı qoşun xeymələrə Anası şirzən idi, alıb eşqin nəzərə
Başı yerdən götürüb atdı o qövmi-kəfərə
Dedi mən istəmirəm vermişəm Allaha görə
Satmışam Allaha xeyrin verə eşq olsun Hüseyn

Ey qələm Abisi yaz rəzmə xuraman gəlir Tələsir bəzmi-vüsala çata hər an gəlir

Nə zireh var, nə sipər, cəngə şitaban gəlir
Çıxarıb köynəyi balatənə üryan gəlir
Niməüryan savaşan dilbərə eşq olsun Hüseyn Şozəbə
söylədi ki, cəngidə bir himmət edək
Çoxunu ver mənə bu ləşgəri gəl qismət edək
Balalar dil nigərandı ikimiz qeyrət edək
Sındıraq ləşgəri, Zeynəb xanıma xidmət edək
Ver qulaq xeymədəki, səslərə eşq olsun Hüseyn

Bir rəcəz başladı meydanda inşad elədi
Evi abad ola dinin evin abad elədi
Elə cəng etdi xanım Fatiməni şad elədi
Əlhəzər qalxdı qoşundan hamı fəryad elədi
Dağılıb meymənə və meysərə, eşq olsun Hüseyn

Şur edib əhli-qəbayil dedilər səhm olsun
Abisin şöhrəti-davası gərək fəhm olsun
Bura meydani-əməldir nə ki, sözü vəhm olsun
Hər qəbilə bunu öldürməyə zisəhm olsun
Tökülün fori atızdan yerə, eşq olsun Hüseyn

Kimdi Abis kimi haqq üstə bu noyi savaşa
Sölətindən o güni lərzə düşüb dağa-daşa
Əşqiya gördi ki, az qaldı ölən nisfi aşa
Çəkilibdir dalıya ləşgər onu basdı daşa
Belə sərbaza, belə peykərə eşq olsun Hüseyn

Demə Abis kimi heç bir əhədün-nas olmaz
Tiği-bürrəndə necə tiz ola almas olmaz

Özgəsi Ümmü-Bənin oğluna miqyas olmaz
Min nəfər Abis ola cəngidə Abbas olmaz
Hamı əllərdən uca əllərə eşq olsun Hüseyn

Təllin üstə dayanıb Zeynəbi-nikupadaş Cəngi-
Abbasə Hüseyn ilə baxır gözləri yaş Uca əllər
görünəndə çağırır can qardaş Belə Zeynəb sənə
qurban qardaş, ey kaş
Səslənir bəndi-dili-Heydərə eşq olsun Hüseyn

Dedi Səd oğlu ki, hər qədri buna ox atasız
Çün baxır Zeynəbə təll üstə çətindir yıxasız
Yoxdu imkanı bu tərzilə mərama çatasız Yol
açın Hərmələyə bəlkə gözündən vurasız
Onda qan ilə dolan gözlərə eşq olsun Hüseyn

Ta ki, Abbas yıxıldı o şəqi səsləndi
Ki, Hüseyn öldü daxi fəthu-zəfər bizdəndi
Qarətin fürsəti əssaə bizə görsəndi
Biri söylüb bu Əbəlfəzlidi şəhi-dilbəndi
Tanımırsan dedi ol kafirə, eşq olsun Hüseyn

Dedi yaxşı tanıram eyləmə sən şivənü-şin
Adı Abbas, Əli oğludu nurus-səqəleyn
Budu şahənşəhi-məbuba özü nuri du eyn
Bu ki, atdan yerə düşdü elə bil öldü Hüseyn
Hərəm əmniyyəti sərləşgərə eşq olsun Hüseyn

Dedim ey piri-cəhandidə pakizə rəvan

Ömrümü harda verim başa ola rəşgi cənan
Mən behişt axtarıram aləmi xakidə əyan
Beytül-əhzani nişan verdi mənə qıldı bəyan
Beytül-əhzanə gələn kəslərə eşq olsun Hüseyn

## Həzrət Əli Əkbərin (ə) vidalaşması

Gün kimi ta çıxdı min nazilə Əkbər xeymədən
Maşaəllah güya çıxdı Peyəmbər xeymədən

İstirəm əfkarımı məlbus edəm suz rəxtinə
Əkbərin zülfünfdə söz vardır yetibdir vəxtinə
Qaralıqda çəkmiş idi zülfü-Leyla bəxtinə
Leyla bəxtitək qaraydı zülfü ənbər xeymədən

Tək nə Leyla Əkbərin zülfündə sərgərdan idi
Şanədə qəlbi-Züleyxatək elə şan-şan idi
Qüdsiyan etsin təbərrük zülfünə pərran idi
Əkbərə xatirdi əl çəkmir mələklər xeymədən

Mən necə təşbih edim hüsnün o mah nəxşəbə
Asiman leylidən süzdü qəmər dər əqrəbə
Ayrılanda baxdı bir Leylayə, bir də Zeynəbə
Aləmi yandırdı ol mahi münəvvər xeymədən

Əkbərin İsmayıla bir rütbeyi-balası var
Öldü Hacər dözmədi fikr eləmə yarası var
Əkbərin də Kərbəladə ölməyən Leylası var
Qəşş edir, səslir mükərrər Əkbər Əkbər xeymədən

Get Əli Leylanı qoy hicrində əfğan eyləsin
Çöllərə düşsün həmişə qəlbini qan eyləsin
Birdə bax qoy gözlərin Leylanı büryan eyləsin
Canımı alsın Əli ol qarə gözlər xeymədən

Sərvə düşsə gözlərim mən baxmaram dil dağlaram
Ağlasam bir gün sənə bir il Hüseynə ağlaram
Xeymədə yoxdur suyum əşgi üzarə bağlaram
Şəh gedən vəxtə kənizlər su səpəllər xeymədən

Zülfünə şanə vuranda olmuşam giryan oğul
İndi də görmür gözüm Leyla sənə qurban oğul
Sən mənə baxma, pozulma rəzmə get xəndan oğul
Nagiran olma Əli, getmə mükəddər xeymədən

Var yeri əmr etsə Haqq İbrahimə canana bax Çox
da İsmayıla naz etmə şəhi-dövrana bax
Çıx tamaşaya Hüseynim bəsliyən qurbana bax
Gör nə Əkbər göndərir dilbəndi-Heydər xeymədən

Şükr elə ki, imtahandan çıxmısan olma məlul
Qəlbinə fəxrü-təkəbbür etməsin amma düxul
Mən kəriməm kəsməmiş qurbanını etdim qəbul

Bax Hüseynə yollayır bir zibhi bərtər xeymədən

Əlqərəz ayrıldı Əkbər şövqilə dildə sözü
Zeynəbə bir sözdü tapşırdı yavaş doldu gözü
Söz vəli Qasim sözüydü rəmzən andırdı özü
Zeynəbin yandırdı qəlbin qopdu məhşər xeymədən

Ərz edibdir güya əmmə gedəndə razıyam
De ərusə gül gülə yetsə çəməndə razıyam
Olmasam mən, Qasimə əqd olsa mən də razıyam
Öz əmoğlumdur vəfa pərvərdi dilbər xeymədə

## Həzrət Əli Əkbərin (ə) vidalaşması

Kərbübəla ki, möhnəti-biintihası var
Aşiqlərin yatan yeridi, qəm fəzası var

Köhnə həsir içində şəhi-Kərbəla yatıb
Şeşquşədi məzarı müqəddəs binası var

Bir təll var o yerdə adı Zeynəbiyyədir
Ordan qaçıbdı məqtələ Zeynəb nəvası var

Heç bağiban Hüseyn kimi zinət verənməyib

Hər beş qədəmdə laləsi var, bərgi-yası var

Abbas ağa ədəb rəsmiylə cəbhə bağlayıb
Şərməndədi uzaqda yatıb macərası var

Alsan xəbər harda yatıb Əkbəri cəvan
Ərz eylərəm ki, qisməti-payini-pasi var

Əkbər nə Əkbər heç bir oğul bənzəməz ona
Məhşərdi gözləri rüxi-Taha naması var

Bir xalı var Mədinədə Süğranı yandırıb
Daim xəyali xal ilə sübhu məsası var

Hurilərin giləsidi Əkbər üzərliyi
Qamət demə qiyaməti-Leyla həvası var

Yusuf zəni-əzizə qulam oldu Misirdə
Bu Fatimə əzizidi, Zəhra anası var

Yusuf ona qulam idi, bu Zeynəbə qulam Zeynəb
kimi bir əmməsi var, dilrübası var

Qardaşların məzəmmət edib Yusuf nəbi
Bu qardaşın əlindən öpür xoş ədası var

Əkbər gəlibdi Zeynül-ibadi görüb gedə
Bimar idi müqəddər olub ibtilası var

Səsləndi yatma aç gözlərini mən yol üstəyəm
Şayəd gələnmədim fələkin çox cəfası var

Naxoşsan ağlama sənə qurban olum özüm
Hikmət bu idi səbr elə səbrin cəzası var

Salim qayıtmasam məni qardaş halal elə
Görsün yaralı cismimi qanlı Abbası var

Bir də sözüm budur sənə getsən Mədiniyə
Süğraya de ki, Əkbərinin çox duası var

Toy xələtin qiyamətə qaldı gözləmə
Toy olmadı başın sağ olsa qan hənası var

Qardaş səsin alanda o fəxri sacidin
Açdı gözün yanında görüb məhliqası var

Bir baxdı Əkbərə o zaman açdı qolların
Qardaşlıq aləmi belədir çox səfası var

Hey dəmbedəm öpüşdü onlar, Zeynəb ağladı
Qızlar mələşdi xeymədə şövqü bükası var
Səccad ağa tutulmuşdu şövqü-vəslidən
Əkbər danışdırıbdı onu ahü-vası var

Səsləndi ki, qədəmlərinə gözlərim fəda
Bu gülməyin özün bilirsən çox bəhası var

Tutdu üzün Hüseynə o dəm miri-abidin Faş
eləsin babasına bir iltiması var

Ərz eylədi icazə buyur bir bəda ola
Qoy mən gedim cihadə əgər iqtizası var

Mən Əkbərin yerinə gedim doğranım baba
Gəlsin mənə bu Əkbərimin hər qadası var

Qəddin əyər oğul dağı Leyla düşər çölə
Əkbər toy etməyib gözü yaşlı anası var

Ayrıldılar məşəqqətilə əlqərəz onlar
Yaxşı bilər o kəs ki, vəfalı əxası var

Bir nəhvilə Əlini Hüseyn rəhsipar edib
Kim əl çəkər gedə belə rəna balası var

Heç bir şəhidi təllə kimin şah gətirməyib
İlla gətirdi Əkbəri Allah rizası var

## Həzrət Əli Əkbərin (ə) vidalaşması

Xəyal etmə fələk əhli-vilanı kamyab eylər
Həqiqət əhlinə daim gecə-gündüz əzab eylər Məhəbbət
imtahanında çox aşiq gəldi rədd oldu
Məhəbbətdə görüb möhnət də var tez ictinab eylər

Məhəbbət sikkeyi-rayic deyil hər dildə zərb olsun
Müqəddəs bir ürək istər tapa, gər inqilab eylər

Nə qədri xaneyi səbri mərəmmət eylərəm neylim
Yenə axşam ki, gün batdı gözüm yaşı xərab eylər

Amandır dərdini gizlət dəri biganiyə getmə
Görürsən qədrini bilməz sənə birdən cavab eylər

Nə dərdin olsa həmişə Hüseyndən istə heç qorxma
Hüseyn sailnəvaz aşiqdi forən müstəcab eylər

İlahi səbr ver aşiqlərə ey əvvəlin aşiq
Hüseyndən dərs alaq bəlkə səbri-bihisab eylər

Fələk Ali-Peyəmbərdən Xudavənda nə görmüşdü
Bu qədri niyyət azari Ali-Bu Turab eylər

O Əkbər ki, başın tükün Hüseyn dünyaya verməzdi
Kəfənpuş edibdir xeyməgahdə çox şitab eylər

Necə Əkbər, necə tərif edim ziba camalından
Zəkati hüsnü Yusufdir, Züleyxanı kabab eylər

"Təala şənuhu qəd qamətin"də min qiyamət var Üzündə
xalının təfsiri minlərcə kitab eylər

Özü məxmuri-cami-vəhdət bəzmi-məhəbbətdir

Gözü qəmmazədir amma xitab və gəh itab eylər  Necə
gözlər, baxanda babi cənnət baz olur xəlqə
Yumanda gözlərin cənnətdə hurilər də xab eylər

O vəxt oldu hərəmdən Əkbər dərya dil ayrılsın Hüseynə
dil verən aşiq bəlanı intixab eylər

Həya mane olar öpsün cavan oğlun ata, amma
Məhəbbət aləmi aşiq özü rəddi hicab eylər

Hüseyn başdan atıb qeydi öpərdi Əkbəri tez-tez
Atadı neyləsin doymur ürək hey iztirab eylər

Üqab üstə çıxanda güya gün indi zin üstə  Və
lakin müxtəsər tutqundu qəmdən ehticab eylər

Tamaşaya xeymədən qız-gəlin kim varidi çıxdı
Tutulsa gün baxar aləm ki, seyri-aftab eylər

Gedirdi dildə amma Leylidən çox nagiranidi
Nə qədri zəhmətin çəkmişdi ömründə hesab eylər

Dolandırdı gözün bir Zeynəb, bir Leylaya baxdı
İşarəylə yetirdi mətləbi çün səlbü-tab eylər

Ki, yəni əmməcan olsun gözün daim anam üstə
Qolun əda onun piçideyi-bəndi-tənab eylər

Çəkəndə karivanı qətligahdan qoyma vursunlar

Cənazəm üstə qəmçi dəysə ruhum iltihab eylər

Özün agəhsən əmmə anam səndən müqəyyəddir Ucadan
ağlasa əfv et, anadı qəlb kabab eylər İcazə ver
hüzurunda qanımdan zülfünə yaxsın
Oğul qanın ana ağ zülfünə bəski xizab eylər

At üstə Əkbəri Kəbə kimi dövr edir qızlar
Əmirül-hacidir nazlı Rüqəyyə çox şitab eylər

Qiyamətdir təvafında gəlib şeşmahə Əsğər də
Və lakin niyyətin qəlbində ürək dağlı Rübab eylər

Xanımlar səs çəkib ağlıllar Leyladan xəbər yoxdu
Deyillər qəşş edibdir xeyməgəhdə piçü-tab eylər

Hüseyn çox dil dedi əhli hərəmdən Əkbəri aldı Yola
salsın şəhadət vaxtını çün ehtisab eylər

Hamı əl çəkdi Əkbərdən Rüqəyyə boşlamır amma
Üç ildi öyrəşibdir neyləsin hicran kabab eylər

Boyu çatmır at üstə Əkbəri öpsün dodağından
Ayağından öpür bir söz deyib fikri savab eylər

Deyir qardaş öz səhmim bu da Leyla əvəzindən O
qəşş eləyib gələnmir göz yaşın çün seyli-ab eylər

## Həzrət Əli Əkbərin (ə) xeymələrdən ayrılması

Xeymədən ki, naz ilən Əkbəri çıxartdılar
Rubəru qabağına Əsğəri çıxartdılar

Gördülər Rüqəyyəni qaçdı qəm otağına
Çıxdı xeymədən alıb Əsğəri qucağına
Getdi sürət ilə tez Əkbərin qabağına
Durdu birdən ağladı məhşəri çıxartdılar

Bülbülə nə hal olar görsə qönçə yarpağın
Əkbərin dolub gözü şirixari görcəyin
Aldı öpdü ləblərin birdə öpdü qundağın
Ta bələkdən açdılar əlləri çıxartdılar

Ta iki susuz dodaq dəmbədəm öpüşdülər
Gərdi matəmə hərəm yeksərə bələşdilər
Hey onlar öpüşdülər, hey bunlar mələşdilər
Əl gedibdi başlara zülfəri çıxartdılar

Bax sireşki-Leyliyə hər nə var fələkdədi
Kərbəla qəziyyəsi qəsb olan Fədəkdədi
Bir Əli kəfən geyib, bir Əli bələkdədi Bir
Əli mərizidi, bəstəri çıxartdılar

Gördü əşqiya o dəm ayəti-cəli gəlir
Var iki şəbahəti nuri-muncəli gəlir
Surətən Rəsulidi, sölətən Əli gəlir

Səfbesəf qabağına ləşgəri çıxartdılar

Gördü küfiyan əcəb qaməti-rəsası var
Hər gələn vurub onu biədəd yarası var Baxmadı
o əşqiyaya xeymədə anası var
Gözləyir onun yolun xəncəri çıxartdılar

Bir salam edib Əli xeymədə babasına
Gəldi başı üstünə bükdü öz əbasına
Parə-parə peykəri gətdilər anasına
Nəşi üstə xeymədən madəri çıxartdılar

## İmamın (ə) Əli Əkbərin (ə) cənazəsinə xitabı

Ey məzhəri-Rəsuli-Xudayi-cahan oğul
Vey aftabi-ömrümə həft asman oğul

Yeddi qədəm cənazənin üstə sürünmüşəm
Ta yetmişəm bu gül bədənə nimə can oğul

Ey ömrümün dadı, gözümün nuru aç gözün
Can üstəyəm gülür mənə bu küfiyan oğul

Tapşırmışam ki, qəbridə bir yataq Əli
Sənsiz dözənmirəm bilirsən mehriban oğul

Bir sirr var baxanda sənə ağladıb məni
Qoy faş edim ki, qalmaya sirri-nihan oğul

Tahadan artıq öz anama vardı bənzərin
Vardır Bətuldan baxışında nişan oğul

Tək getmə Fatimə yanına mən də qoy gəlim
Atma məni bu ərsədə ey dilsitan oğul

Zülfündə telbətel düzülən qana ağlıram
Bir gülşən olmusan ki, veribdir xəzan oğul

Ayrı şəhidə salmamışam mən əba yerə
Gül tək dağılmısan neyləsin bağiban oğul

Yığsam da mən əbayə səni həml edənmərəm Abbası
səslərəm gələ ey nocavan oğul

Bu yatmağın mənim günümü çəkdi məğribə
Dur ver qürubi ömrümə bir də azan oğul

Səs ver darıxmışam məni qoyma şəmatətə
Düşmən gülür, danış mənilə xoşbəyan oğul

Qəlbim kimi əsən telinə and ola Əli
Çox qalmaram zəmanədə mən də əyan oğul

Bir az sonra ki, ox dəyəcək qəlbimə mənim
Ey kaş, Əli indi dəyə həmzəman oğul

Səbri imamətə hələ mən dözənmirəm
Vay Leylaya necə dözəcəkdir anan oğul

Gözlür yolun Rüqəyyə bacın yatma dur gedək
Qızlar tikib gözün yoluna nagiran oğul

Bir hacıyam Minada özümü itirmişəm
Görmür gözüm çağır məni Taha nişan oğul

Bir ayə başla, tut əlimi xeyməyə gedək
Gəlmir dizim ayağa duram bu zaman oğul

Abbas əmin gəlib bala, əmmən də burdadı
Dur başın üstə gör necə eylir fəğan oğul

Ali-Əba əbaya yığıb gül cənazəni Gəldi
əbada xeyməyə bir parça qan oğul

Leylanı gətirdilər balanın nəşi üstə
Oturdu ayaq tərəfdə səda etdi, can oğul
Dindir məni Əli, ananam yoxdu bir kəsim
Qəlbim sınıqdı yatma belə bir oyan oğul

Al yanına əbada məni barı bir yataq Salma
çölə bu dərbədəri bağrı qan oğul

## Həzrət Qasimin (ə) vidalaşması

Öldü Əkbər, Qasimə aləm olub zindan əmu
İzn ver məndə olum ta azimi-meydan əmu

Şəhri-Yəsribdə verərdim Əkbər ilə əl-ələ
Xoş gəzərdik daimən biz yekzəban-yekdilə
Bu mürüvvətdən uzaqdır mən qalam Əkbər ölə Əbərin
nəşi gələndən olmuşam giryan əmu

Olmaram rahat qucağında minadan gəlməsəm
Əkbərin yoldaşıyam imkanı yox dincəlməsəm
And ola Zəhraya, Leyladan utannam ölməsəm
Qoy gedim Əkbər kimi qana olum qəltan əmu

Çün babam öldü şərari-hicrə yandım ağladım
Boynu çiynində əmu daim dolandım ağladım
Məndə sayəndə həmişə daldalandım ağladım
Qəlbimi yandırdı daği-həsrətü-hicran əmu

Bağban oldun o gündən sən bu nagiran gülşənə
Vermişəm bu uzun müddət çox zəhmət sənə
Nazımı çəkdin evin abad, ata oldun mənə Heç
məhəbbətdə sən qoymadın nöqsan əmu

Pərvəriş verdin mənə rəsmi vəfadən keçmədin
Verdin izzət əynimə zillət libasin biçmədin
Bu on ildə sən məni öz Əkbərindən seçmədin
Eylədin mərhuni-lütfü-rəhməti ehsan əmu

Ayrılıq bir od salıbdır odlanan əkbadimə
Bu odu xamuş elə, rəhm et dili-naşadimə
Öz babam vallah əmu elə düşübdür yadımə

Vəslinə nail elə, Qasim sənə qurban əmu

Hər kimin ölsə atası tez solar izzət gülü
Qəlbidən getməz yətimin heç zamanda nisgili
Nazımı çox çəkmisən yaddan babam çıxmır vəli Eyləyib belə müqərrər Xaliqi Mənnan əmu

## Şairin ürək sözü və həzrət Əbəlfəzin (ə) əhvalatına işarə

Bəhri-möhnətdə qəmə qutəvərəm ya Zəhra
Kuyi-eşqində xoşam, dərbedərəm ya Zəhra

Bilmirəm öz adımı mən nə qoyum bu qapıda
Haşa lillah sənə nokər demərəm ya Zəhra

Tərki-övla elədi çıxdı behiştdən Adəm
Az qalırdı eləsin qəlbi vərəm ya Zəhra

Müxtəsər qəlbinə əyləşdi sənin hübbündan
Onu əfv etdi Xudavəndi kərəm ya Zəhra

Qəbrimin fikrini də eyləmişəm əvvəldən
Gecə-gündüz ora nəqşə çəkərəm ya Zəhra

Qəbrin əvvəl gecəsi hər nə soruşsa mələkin
Onlar aldıqca xəbər mən deyərəm ya Zəhra

Həşr olan vəxtə şəfaətdə əgər naz edəsən
Kül olar başıma axər nə edərəm ya Zəhra

Sən nəzər eyləməsən baxmaz Hüseyn də üzümə
Bəs kimim var, hara onda gedərəm ya Zəhra

Ruhumun ülqəsi var naləyə, qara äləmə
Ney kimi naləni neylim sevərəm ya Zəhra

Müxtəsər gər mənə lütfün ola əşarindən
Hamı ədadi-səhihə dəyərəm ya Zəhra

Səni Abbas at üstən yıxılanda çağırıb
Onda ki, səsləndi xunin cigərəm ya Zəhra

Nə gözəl vəxtə gəlibsən ana qurbanın olum İzn
versən ayağından öpərəm ya Zəhra

Kaş yüz yol yıxılam hər yıxılanda gələsən
Düşdüyüm yer ola ta rəşgi-irəm ya Zəhra

Sən dua eylə düşən qol yerinə vəsl olsun
İzn ver cəngə sonra gör nə edərəm ya Zəhra

Kimdi Səd oğlı dönüb xeymələrə çəp baxsın And
ola haqqına nəslin kəsərəm ya Zəhra

Qoymaram bir nəfəri can qutara mərəkədən

Başların hərzə ələftək biçərəm ya Zəhra Neyləyim çarə nədir bağladı oğlun qolumu
Gərnə yaxşı bilisən porhünərəm ya Zəhra

Şahzadəmdi Rüqəyyə mən onun əfsəriyəm Təkbətək qızlara şəxsən sipərəm ya Zəhra

Nigəranam balalardan odur çıxmır canım
Yoxsa axşamdan elə can besərəm ya Zəhra

Keçən axşamdan ana gözlərimi yummamışam
İndi ox yumdu birin didə tərəm ya Zəhra

İqtida eyləmişəm şahıma məndə orucam
Ayı gördüm vəli iftar edərəm ya Zəhra

Heyf ola ay tutulubdur, üzünün ləkkəsi var
Sındırıb bu orucu qan içərəm ya Zəhra

Üzdəki sili yerin dərdimi artırdı mənim
Əlim olsa başa topraq səpərəm ya Zəhra

Hər ölən rəsmidi üç fəsl təşəhhüd söylər
Hüsnü-iqbalıma çox müftəxərəm ya Zəhra

Sən təşəhhüd özüsən, mən də o babətdəndir
Hamısın bir eləyib səslənərəm ya Zəhra

Qəlbidə bir də xüsusi ana bir dərdim var

İzn versən sənə mən ərz edərəm ya Zəhra

O amannamə məni xeymədə çox sındırdı
Necə ruhiyyəmi pozdu demərəm ya Zəhra
Səs düşüb xeymələrə, mətləbi Zeynəb bildi
Mən dedim yer açılar, gizlənərəm ya Zəhra

Məni ehzar elədi məhzərinə şahi-cahan
Ayrı bir söz buyurub miri-hərəm ya Zəhra

Şəh buyurdu mənə Abbas əgər getsən get
Qəlbimə gəldi ki, şayəd ögeyəm ya Zəhra

## Həzrət Əbəlfəzin (ə) əhvalatı

Qələm Abbas adına başladı bu ünvanı
Lütfü ölsa yazaram öz qədərim imkanı

Ağam Abbasın uca qamətinə can qurban
Canını verdi vəli qoymadı tək cananı

Heydərin Babül-həvaic balası, şir oğlu
Kaşiful-kərbidi bu mülkü vəfa sultanı

Çox çətin müşkülüm olsa ətəyindən tutaram Səndə
tut nazlı Rüqəyyə yapışan damanı

Nəfəsi el dayağıdı, özü ləşgər qabağı

Odu eylərdi dua Zeynəb o məh simanı

Hey deyərdi səni çox görməsin Allah bacına
Kimi var Zeynəbin ey gözlərinin qurbanı

Hər zaman bacısı istərdi öpə surətini
Müxtəsər qəddin əyərdi o şücaət kanı Çoxları Həmzəni vurmışla şücaətdə məsəl
Rəhmətullah ki, yari eylədi Tahani

O Rəsulullaha Həmzəydi əgər dəvadə
Bu Hüseyn Həmzəsidi canı-cəhanın canı

Kərbəlada ağamın hər əli bir Həmzəydi
Odu illər boyu dillərdə qalıb dastanı

Hər şücaət ki, yazıblar ağama bir tərəfə
Bu işi bir tərəfə, fikrinə sal cəryani

İndi bir möhnəti var ərz edirəm Yəbnəl-Həsən
Məni əfv eylə çətindir bilirəm ünvanı

Üç pər ox bir nigəran göz, nə sipər var, nə əli
Göz evindən necə xaric eləsin peykanı

Dizlərin qozadı tutdu oxu bir verdi təkan
Çıxmağı mükül idi parçalanıbdı alını

Nəql edillər Nəcəfə sarı dolandırdı üzün
Bir təvəssül elədi Heydərə, Səqqa ani

Babası etdi nəzər çəkdi oxu atdı yerə
Taqətin kəsdi vəli bu əməli şayani

Başda əmmaməsi bilməm var idi, ya yox idi
Hər nə idi baş açıldı mələdib huranı

Üç pər ox dəysə bu gözədən o birindən nə qalar
Mən işarəylə dedim səndə oxu mənanı
Uca qamət atın üstü görə bilmir gələni
Yetişən vurdu at üstə o yəli-heycanı

Bu qədər ərz edə billəm ki, fəqət səs eşidir Hər
yana döndü vurublar o mələk simanı

Bilmirəm neyləmişdi çox acıqlıydı qoşun
Saldılar ortaya səqqayi-şəhi-xubani

Ox atanlar irəli gəldi yığışdı qabağa
Zeynəbin yıxdı evin tar elədi dünyani

O qədər yarə dəyib çıxdı bədən mizandan Dağılıbdır
o keşidə bədənin ərkani

Yenə hər cür yaralansaydı gedərdi hərəmə
Görə bir də gözü yollarda qalan tiflanı

Qabağın ləşgər alanmazdı su aciz elədi
Əli çıxdı boşa sükna elədi meydanı

Yenə üzr istəyirəm Yəbnəl-Həsən bu sözümə
Bilirəm qəlbi-şərifindən alır yaranı

Bir açıq başın əmud ilə məgər nisbəti var
Necə mən şərh eleyim bu mühəni-üzmanı

Atın üstən onu torpağa əmud oldu yıxan
Bürüdü qırmızı qan mahi cəhan aranı

Biri düşsə uca yerdən ona əl lazımdı
Ki, yerə hayil edib görməyə çox eyzanı Olmadı əlləri dəydi üzü üstündə yerə
Vay əgər Ümmü-Bənin bilsə belə cəryanı

Gərçi atdan yerə düşdü vəli qurtulmadı iş
Ayrı bir dərdə düşüb Fatimənin mehmanı

Həlqeyi-bəndi-rikabə ayağı bənd oldu
Sürünüb topraqın üstündə rüxi-rəxşanı

Çox çətin vəxtə hər kəs çağırar öz kəsini  Səslənər dadına vazehdi bu söz əvanı

O qədər Ali-Əlidən birini səsləmədi
Dil tuta-tutmaya səsləndi xanım Zəhranı

Atın üstən yıxılanda çağırıb ya Zəhra
Başı üstündə görüb Fatimeyi-üzranı

Xanımı gördü ürəkləndi bir az ağladılar Soradan
ərzə verib möhnəti bipayanı

Dedi gəl yaxşı gəlibsən ana qurbanın olum
Əcəba yad elədin sən bu bəla gərdanı

Sevdiyim tək ana bu qövmilə cəng etməmişəm
Hər nədən başdı mənə çün ağamın fərmani

Sən dua eylə düşən qol bədənə vəsl olsun
İzn ver cəngə təmaşa elə dəştistanı

Kimdi Səd oğlı dönüb xeymələrə çəp baxsın And
ola haqqına nəslin kəsərəm mən ani
Öz gözüm çıxdı yadımdan gözünü gördüm ana
Güya ki, vurdular birdən başıma dünyanı

Ölməsəm də məni bu qanlı gözün öldürəcək
Yanıram ruhuma əzbəski salıb tufanı

Üzdəki sili yerin dərdimi artırdı mənim
Necə vurmuşdu səni küçədə məlun sani

Elə bir vəxtə gəlibsən nə gözüm, var nə əlim
Acizəm neyləyə billəm daxi bu ədani

Müxtəsər bəzi sözü Ümmü-Bənin nəql eləyib
Açmamışdı vəli bu həddə kimi cəryani

Mən eşitdim küçədə bir Həsən imiş, bir özün
Bəs hayandaydı babam ol Əli İmrani

Suyu almışdım ana məşkimə bir ox dəydi
Mənə məşk ağladı, mən məkkə o dəm pünhani

Həsənin mərkəbin istərdi minə Maridi-şum
Qeyrətim çəkmədi görcək o nəcib heyvanı

Qoymaram Ali-Əlinin atını özgə minə Mən
baxam düşmən, Qurana verə cövlanı

Maridi xar elədim sondan onu öldürdüm
Təllidə şah bəyənibdir rəvişi-davanı

Bu gecə nazlı Rüqəyyə məni çox ağlatdı
Küsmüş idi dilə tutdum o gülü-zibanı
Məni gözdən bu gecə qoymadı ta sübhə kimi
Hey gedib gəldi danışdırdı bəhri-ünvanı

Göz yaşın xeymədə sildim üzümə baxdı dedim
Getmərəm qorxma bala heç yerə Əkbər canı

Nigəran olma qızım get bu gecə rahat yat
Xeyr edə Allah özü kari-şəbi-fərdanı

Get Rübabın yanına, Əsğərə bir lay-lay de
Mən varam gəşt edirəm sübhə kimi səhranı

Bu gecə müştəriyəm Əsğərə lay-lay çalasan
Qonağındır bu gecə teşnə quzu qurbanı

Anacan lütf elə təşrifin apar xeymələrə
Ram elə bir-bir orada mələşən tiflanı

Əvəzimdə balalardan sən özün üzr istə
Teşnə ləb qızlarına ver sonra bu elanı

Denən Abbas əmizi gözləmiyin gəlmiyəcək
Su kənarında yıxıblar yaralı aslanı

İstəsən xeymələrə qollarımı şahid apar
Hamı görsün ki, salıblar nə hala Səqqanı

Olmasa zəhmət apar pərçəmi ver sahibinə
Verəcək Zeynəbə şayəd ələmi Quranı

Sadiqi ömrünə sərmayədi Beytül-əhzan Yayılıb
gün kimi aləmlərə ad-sanı

# Həzrət Abbasın (ə) qardaşına xitabı

**(Cuşi)**

O dəm ki, sındı zülmilə əlimdəki səbu Hüseyn
Od oldu düşdü canimə nə yandırandı su Hüseyn

Demə vəfalı qardaşım təlaşa mayil olmadı
Nə qədər səy elədim nəticə hasil olmadı  Əmud
gördü şərmdən hüzuruna dil olmadı
Odur ki, yazdı hər sözü başımda mubemu Hüseyn

At üstə sərnigun olar çoxu zamani-cəngidə
Vəli mənim kimi hanı qalan fişari-təngidə
Düşəndə sədri-zeynidən ayaq qalıb üzəngidə
Üqaba rəm veribdi bu qüruhi-kinəcu Hüseyn

Əlim ki, yox cilovlayam, nə göz görür, nə at salır Amandı
Zeynəbə demə hayan gəlir məni çalır
Üzümdə yoxdu saf yerim, fəqət bu bir gözüm qalır
O da həya edir baxa sən ilə rubəru Hüseyn

Dedim bu təllin üstünü yol olsa bəlkə mən aşam
Su məşkidən gedə-gedə uşaqlara yaxınlaşam
Qalan suyu verəm öləm deyəm bu xidmətə xoşam
İçə sudan balaların deyə əmu-əmu Hüseyn

Xiyamə qətligahidan qan ilə arx açam gərək
Vəfa ağacların onun kənarına saçam gərək
Qiyamətin günündə də Rüqəyyədən qaçam gərək
Xəcalətəm, olanmaram onunla rubəru Hüseyn Gərək
xəyali xeyməni bu saatımda boşlayam
Rüqəyyədən uzaq gəzəm kənari-nəhri xoşlayam
Sənə baş ilə bir ələm, ona sərin su borcluyam
Görəndə borclu borclunu ölümdü arizu Hüseyn

Yadında var o Kufədə bizə bəla gələn gecə
Başında yarə Mürtəza ürəkləri bölən gecə
Məni qulam edib sənə babam Əli ölən gecə
Baxıb qulama ağlama belə füsurdəru Hüseyn

## Həzrət Əbələfəzin (ə) müsibətinə işarə

Qəmi-əyyamilə gərçi bu dilim porqəmdi
Bir Hüseyn adlı ağam var ürəyim xürrəmdi

Aləmi gözdən atıb bir ona bel bağlamışam
O gözəl adına qurban şərəfi-adəmdi

Qapısından bilirəm saili boş qaytarmaz
Çün kərəm sahibidi sibti-şəhi-əkrəmdi

Köynəyin sailə ehsan edənin oğludu bu
Bizi etməz əli boş qorxma sözüm möhkəmdi

Gəzərəm dildə Hüseyn adı əzaxanələri  Bu
Hüseyn vay səsi yomiyyə mənə həmdəmdi

Məkkə də olmasa qismət mənə vardır nə qəmim
Ağamın məclisi Məkkəmdi, gözüm zəmzəmdi

Dolanıb hər yeri gəlləm bu əza məclisinə
Ya Hüseyn izni-düxulumdu sireşgim yəmdi Ruzi-
məhşərdə sıxıllam ağamın sayəsinə

Yandıranmazla məni qəleyi-müstəhkəmdi

Sipəri-atəşi-duzəxdi qara köynəyimiz
Abirumuz iki dünya bu qara pərçəmdi

O səbəbdəndi əzadari-Hüseyn ölsə əgər
Görəcək qəbri qaranlıqdı əzəl müzləmdi

Nabələddır özü, nəmnak, çuxur, eldən uzaq
Qorxulu vəhşəti var, xeyr əməli çün kəmdi

Baş tərəfdən o zaman qəbrinə bir nur düşər
Ax nə nur aləmi röşən eləyib xürrəmdi

Ta gözün açdı görər başının üstə ağasın
Buyurar gəldim Hüseynəm, kərəmim çün yəmdi

O Hüseyn ki, gecə-gündüz çağırardın, o mənəm
Gəlmişəm görməyinə qorxma qənimət dəmdi

Bəli, hər yerdə hüseynçi ölə izzət varıdı
Şəbi-əvvəldə ağa nökər ilə bahəmdi

Bir hüseynçi tanıram eşqinə heç kim çatmaz
Adı Abbasidi ol nəhri alan zeyqəmdi

Başının üstə Hüseyn gəldi vəli beldə əli
Gördü əzayi-cəvarih dağılıb bərhəmdi

İki əlli götürüb başını aldı dizinə
Şaha başilə salam etdi, sözü mübhəmdi
Dedi Abbas uşaqlar yolunu gözlüllər
Belə yatma yaralı xeyməsəra matəmdi

Mümkün olsa səni Əkbərtək əbaya bükərəm
Bu əba aləmidə görməli bir aləmdi

Baxıram bu dağılan cismə əba yer verməz  Neyleyim
ağlamayım qüssə mənə həmdəmdi

O qədər dil dedi gətdi qərəz Abbası dilə
Dedi şaha bu başımdır, bu da sinəmdi

Səni Zəhra əlini qoy bu dağılmış başıma
Sonra bir ayrı sözüm var ki, qəmi əzəmdi

And  verrəm ananın sili göyərdən üzünə Məni
əxyamə aparma ki, yerim Əlqəmdi

Məni qoy burda qalım məşki apar xeymələrə
Ağladan çox da məni dildə qəmi-müdğəmdi

Belə fikr eylər uşaqlar ki, su içdim mən özüm
Şahid ol içməmişəm, bir də Xuda ələmdi

Soruşan olsa məni xeymədə, qızlara buyur
Ki, əmiz içmədi su fikri sizə dərhəmdi

Sənə layiq deyiləm, heç demə qardaşdı mənə
Dinə mən şəmi-vəfayəm, bu da pərvanəmdi

Yaralar ağzın açıbdır sənə ləbbeyk desin
Min belə yarəm ola bir baxışın mərhəmdi Mən otuz dörd
il ağa duz-çörəyindən yemişəm
O ki, röşəndi sənə ömrüdə pərvəndəmdi

Sən əyil bir yol öpüm mən səni canım çıxsın
Can dodağımda durub müntəziri-busəmdi

Bu vəfa dilləri birdən ağanı ağlatdı
Dedi boynumda xəyal eyləmə haqqın kəmdi

Sənə Abbas özüm, əhli-əyalım qurban
Az utandır məni qəlbim qəmi bir aləmdi

İstədi olsun Hüseyn qol-boyun Abbas ilə
Görələr məhşər olub şəmsü-qəmər bahəmdi

Şah qolun saldı Əbəlfəzlin o dəm gərdəninə
Can kimi bağrına basdı onu, sözü əzəmdi

Qol-boyun olmağa Abbasidə ki, qol yox idi
Bu da bir nisgil o sərdara olub mözəmdi

Ürəyindən belə keçdi ki, qolum olsaydı
Ağamı məndə qucaqlardım əcəb bir dəmdi

Nagəhan onda Hüseyn boynuna bir qol gəldi
Bir baxıb gördü əcəb vəxtə gəlib məhrəmdi

Elə bir diqqət edib gördü Əlinin əlidi
Dəsti-Abbas əvəzi gərdəninə münzəmdi

## Həzrət Əbəlfəzin (ə) əhvalatı

Qəmi-eşq ilə həmişə ürəyim porqəmdi
Əbri-porbara vurar tənə gözüm çün yəmdi

Uca bir sihə ki, zahir olacaq nəfxeyi-sur
Aləmi yandıracaqdır o mənim naləmdi

Mən dedim zülfü səmən barə təffal eləyim
Bəxtə bax məndə qara zülfü xəm əndər xəmdi

Hansı bir həlqə sənə mən əl atım xoş gəlsin
Dili-aşiq kimi aşüftə teli dərhəmdi

Qoymayın xəlvəti eşqə, bizə irad edəni
Gər ola katibi-Quran yenə naməhrəmdi

Güllərin müctehidi lalədi dərsin qutarıb
Dağı vardır ürəyində hamıdan ələmdi

Rəğbətim yoxdu gülüstanə gedəm seyri gülə

Qəlbimin hal-həvası gecə-gündüz çəmdi

Su kənarındə əyləşməyə heç könlüm yox
Sahili-qəm gətirir bəs deyəsən Əlqəmdi

Darıxan vəxtə gəlləm ağamın məclisinə
Ağlaram göz yaşı hər bir yaraya mərhəmdi

Qorxu yoxdur əbədən həşridə düz ağlayana Həzrəti
Sadiq özü vəd eləyib, möhkəmdi Onda ki, izni-
Xudavənd ilə məhşər qurular
Səfbesəf məhkəmədə xeyli bəni-Adəmdi

Dayanar bir neçə səflərdə xəlayiq nigəran
Ta hesabın çəkələr görməli bir aləmdi

Tək əzadari-Hüseyndir duracaq bir səfdə
Ağlayanlar o zaman pir, cavan bahəmdi

Binəva Sadiqiyə il gecələr sübhə kimi
Giryeyi-niməşəbü-ahi-səhər həmdəmdi

## Həzrət Əbəlfəz (ə) meydanda

Ey nifaq əhli bilin yavəri-əhraram mən
Qeyrəti-əhli-yəqin, cövhəri-isaram mən

Adım Abbas, özüm Fatimənin şiəsiyəm

Mürtəzanın balası haqqa tərəfdaram mən

İznim olsa sizi bir hərzə ələftək biçərəm
Qılıcım dasi əcəldir sizə kərraram mən

Marid ilən məni qorxutmayın ey qövmi-dəni
Mən Hüseyn Həmzəsiyəm cəngidə cəbbaram mən

Siz gedib Hindi-cigərxara ələmdar olduz
Uff ola sizlərə, Zəhraya ələmdaram mən

Mən gələndə neçə yol Zeynəb öpüb alnımdan Zeynəbin bəsdi duası mənə fəxxaram mən Xırda qızları gecə təbil səsiz qorxuzdu
Əməlizdən o səbəb yeksərə bizaram mən

Məni əvvəldən anam bəski hüseynçi böyüdüb
Süd verib eşqi-Hüseyn ilə ki, sərşaram mən

Verməræm səltənəti-aləmə mən bir baxışın
Nə amannamə; məgər eşqidə fərraram mən

Gizlənib hansı səfin poştisərində Münqəz
Niyə çıxmır qabağa talibi didaram mən

Əkbərin qüssəsi vallahi qocaldıb ağamı
Yandırıb qəlbimi hicrində xəbərdaram mən

Boşlayın şərri yolun hammı tökün ələhəzi

Yarı yoldan qaydın xeyrə ki, əxyarəm mən

Dəsticəmi aparım xeymə qabağında durun
Öyrədim tövbə yolun sizlərə naçaram mən

Ağamı and verin öz anası Fatiməyə
Hamızı əfv eləsin vaqifi-əsraram mən

Mərkəzi-feyz Hüseyndir mən ona əbdi-müti
Dolanan başına çün pərreyi-pərgaram mən

Salmısız təngə ətəşdən balaca qızlarını
Suya məmurəm odur talibi-rəftaram mən

Pəncə dər pəncə bu gün qoymağa çox müştəriyəm
Əllərim bağlıdı əfsus dil əfkaram mən
Əsğərin halı vurubdur hərəmi bir-birinə Bildim
ağlır anası xeymədə, xunbaram mən

Dil ki, yoxdur su deyə ağzın açır bir də yumur
Yanır o suzi-ətəşdən, ona qəmxaram mən

Həzrəti Fatimənin mehridi su aləmdə
Gəlmişəm mən suya sizdən su təlbkaram mən

Kişisiz indi quraq alış-veriş bazarin  Görəsiz
baisi-gərmiyyəti-bazaram mən

Siz gəlin qanımı bir məşk su ilən dəyişin

Bu suya qan verirəm xibrə xəridaram mən

Sözümün səhhətinə sağ gözümü mən verrəm
Görəsiz düzdi sözüm əhdə vəfadaram mən

Yetirim xeymələrə mən suyu bir də qaydım Hamı
vursun məni bilmərrə səzavaram mən

## Həzrət Qəməri Bəni Haşimə (ə) sevgi

Ey düşən eşqində aləm dərdə ya Babəl-həvaic
Aləmə gəlməz nəzirin bir də ya Babəl-həvaic

Nemət eşqində daim şakiri-Rəbbi-cəliləm
Sən Hüseynə nokər oldun, mən sənə əbdi- zəliləm
Dərdiməndəm sən bilirsən asitanında dəxiləm
Adətimdir səsləərəm hər yerdə ya Babəl-həvaic
Ləzzətindən şiə doymaz kamımızda dad qoyubsan
Zadrahi-eşqin olsun baş və can hər zad qoyubsan
Yadigar bir su məşki, bir ələm, bir ad qoyubsan
Var adın bu qara pərçəmlərdə ya Babəl-həvaic

Mən deməm şənin kitabi-vəhyi-münzəldən ovcidi
Şöhrətin tutmuş cahanı bəski əvvəldən ovcidi
Rəzmidə Heydər öpən əl hər uca əldən ovcidi
Çox gözüm vardır uca əllərdə ya Babəl-həvaic

Daməni-Heydərdə tapdın pərvəriş çatdın yəqinə
Kim qoyar qiymət sənintək porbaha dürrü- səminə

Sən kimi oğlan becərdib afərin Ümmü-Bəninə
Çox əsər var süddə, həm madərdə ya Babəl-həvaic

Rəsmidir bülbüllər ağlar hər çəməndə gül solanda
Çoxları səslərllər adın qəlbinə möhnət dolanda
Ağlaram amma həmişə mən sənə bayram olanda Səslənir
bayramda saillər də ya Babəl-həvaic

Qəlbinə bir dağ çəkdi əsri-Tasuada küffar
Bir amannamə gətirdi Şimri-şum, o kinə rəftar
Sən əgər birdən gedəydin qüssədən ölmüşdü qızlar
Şamə çatmazdı Rüqəyyə bir də ya Babəl-həvaic

Gər Hüseyndən əl çəkəydin şiəyə aləm gülərdi
Tiri-möhnət xırda qızlar qəlbini axşam bölərdi
Ruzi-Aşuraya çıxmazdı yəqin Zeynəb ölərdi
Afərin əl vermədin namərdə ya Babəl-həvaic

Sevdiyin tək izni-cəngin olmadı ey dil şiksətə
Təllidən Zeynəb baxırdı həm şəhənşahi xücəstə
Maridə bir nizə vurdun rəzmigəhdə sən at üstə
Naz edibdir şəstinə Heydər də ya Babəl-həvaic

Nagəhan bir zülm olubdu rəzmidə qolsuz göründün
Vurdular başdan at üstə lalətək qanə büründün
Onda ki, atdan yıxıldın müxtəsər yerdə süründün
Qalmadı taqət daxi peykərdə ya Babəl-həvaic

Su yanında gül vücuda sədmeyi-üzma yetişdi

Soti "ədrik ya əxa" ta aləmi bala yetişdi
Sən Hüseyni səslədin ondan qabaq Zəhra yetişdi
Gördü qan vardır rüxi-ənvərdə ya Babəl-həvaic

## Həzrət Əbəlfəz (ə)

**(Sinəzəni və cuşi)**
Abbas idi xeymədə ellər dayağı
Abbas öldü Zeynəbin keçdi çırağı
Ellər dayağı, ləşgər qabağı
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

Abbasa Zeynəb baxıb məsrur olardı
Sayəsində balalar daldalanardı
Əmniyyətdə bacılar xoş dolanardı
El dayağıdı, sel qabağıdı
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

Ümmül-Bənin oğlu ta atdan yıxıldı
Əmniyyətdən uşaqlar yeksər çıxıldı
Vay Zeynəbin halına qəlbi sıxıldı
Göz yaşı axdı, qızlara baxdı
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

Tiri-bəla heyf ola səbrin apardı
Bir ox gəldi Abbasın qəlbini yardı
Qara saçı Zeynəbin birdən ağardı
Dillər dağlandı, yollar bağlandı
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

Gördü Hüseyn başını salmış aşağa
Yorğun gəlir alışıb nari-fərağa
Can qardaş dildə Zeynəb qaçdı qabağa
Səbrin qəm kəsir, dil-dodaq əsir
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

Şəh söylədi eşqidə miqyasım öldü
El dayağı sahibi-ehsasım öldü
Elan elə qızlara Abbasım öldü
Nəhr üstə yatdı, məni ağlatdı
Ya Abbas,  ya Abbas, ya Abbas, ya Abbas

## Həzrət Əli Əsğərin (ə) əhvalatı

Ey bəşər uyma bu beş gündə fəna dünyayə
Həmdü-təsbih elə Zati Əhədi Yektayə
Ki, Hüseyn eşqini vermiş sən üçün sərmayə
Sahibi-xeyrü-ətayadı Xudavəndi kərim
Rəhmətə şamil edib bəndəsini Həyyi Qədim

Neçə min gəldi peyəmbər bu cəhanə ki, əyan
Əli və Fatimə, on bir balası nuri-geran
Təkbətək hammısına canımız olsun qurban
Hamısı gərçi mükərrəmdi vəfadə sözü var
Ruzi-məhşər onların da bu Hüseyndə gözü var
Dəmbedəm qəm yemə gərçi dilinə qəm yetişib
Ayıq ol müjdeyi-rəhmət bizə kəm-kəm yetişib

Başlanıbdır ağamın yası Məhərrəm yetişib
Dili-afaqı bəla tirləri böldü bu ay
Su kənarında Hüseyn teşnə cigər öldü bu ay

Ramazan gərçi təqərrübdə çox ecaz eləyir
Ramazana bu ayın bir güni min naz eləyir
On bir ay gözlərimiz on günü pişvaz eləyir
Yoxdu aylarda Məhərrəm ayının həmtası Ləylətül-qədridi
hər ləhzeyi-Aşurası

Gərçi mahi-Ramazanın mühəni digəri var
Sübh vəxtində qızıl qana batan Heydəri var
Ramazanın vəli harda südəmər Əsğəri var
Şəbi-Aşurada aramişi gözdən atdı
Yatmadı sübh açılınca anasın ağlatdı

Gülşəni-ömrünə badi qəm əsildi o gecə
Nə çəkib dilsiz uşaq Həqq özü bildi o gecə
Neçə yol sübhə kimin öldü-dirildi o gecə
Su uzaq düşdü o dilsiz baladan peyvəstə
Süd də getdi su yolu sübhü tapıb can üstə

Cami-zərrin fələk çıxdı baxır dövrü-bərə
Yayılıb hər yerə ta şahid ola xeyrü-şərə
Bala bir nəhvilə əlqissə çıxıbdır səhərə Balanı
bir dil ilə ta anadan aldı imam
Su verə şayəd o ətşan balaya qövmi-zülam

Dərdə bax dərdi-dilin rəiyyətinə şah aparır

Dağ çəkillər deyəsən dağlı dilə ah aparır
Güya gün alıb ağuşinə bir mah aparır Yetişib
firqeyi-naəhlə müqabil dayanıb
Elə bil cəddi, Əbu Cəhlə müqabil dayanıb

Deməliydi o ki, bir-bir dedi qövmi-küfrə
Demirəm mən su verin ta aparım xeymələrə
Bir içim Allaha xatir su verin südəmərə
Qoymayın əllərim üstə ürəyi odlansın
Kafidir isti havada dodağı islansın

Ayrılıb Hərmələ yanmış ürəyə od qalaya
Oxu rədd eylədi heç yanmadı dilsiz balaya
Bala bir silkələnib başı axdı dalıya
Belə bir faciəni yox biri məşruh yaza
O oxun üç pəri də gəldi dayandı boğaza

Rəsmidir xar əgər dəysə gülü tez yaralar
Bağıbanın qucağında o gül saralar
Üçpər ox südəmərə dəysə uşaqdan nə qalar
Mənə irad eləmə gər deyə bilsəm nə oldu
Mələkut əhli baxıb Əsğərə məbhut oldu

Tuli-tarixdə çox söz dolanıb Əsğərdən
Abiru çoxları əlhəqq qazanıb Əsğərdən
Ənbiya gördi boğazın utanıb Əsğərdən Şahidin
halını meydanda dolandırdı bala
Özü güldü vəli aləmləri yandırdı bala

Bilmirəm ox nə hala saldı o ətşan uşağı
Dili ağzında əsirdi quzu qurban sayağı
Bədən ölmüşdü dayanmırdı yenə dil-dodağı
Gülşəni-eşqi-Hüseyn gördü əcəb güllləndi
Əsğərin öpdü dodağın o zaman dilləndi Baği-Tahanın
oğul pərpər olan bir gülüsən
Şaxi-Tubanin Əli qanə batan bülbülüsən
Evin abad ola mən ağlayıram, sən gülüsən
Bilisən qəlbimi üç şöbəli ox yandırdı
Gülməyin ağlamağından məni çox yandırdı

Bala ölmüşdü kəənnəh yenə durmurdu qanı
Gecədən can besəridi hələ çıxmırdı canı
Qozadı əlləri üstə göyə sarı balanı
Dedi səbt eylə Xuda qəlbi kəbabın adına
Bunu yaz dəftərə qəlb dağlı Rübabın adına

Dəmbədəm busə vurur şah balanın üz gözünə
Busələr gördü ki, razı eləmir öz-özünə
Gördü qan keçməli bir qan deyil yaxdı üzünə
Gözvurum anidə birdən lala qan oldu Hüseyn
Balası əlləri üstə yarı can oldu Hüseyn

Ala bilməz nəfəsin kim kəsilə həncərəsi
Xırda seyyid bir için çaldı batıbdır nəfəsi
Şəh görübdi ki, qarışdı gözünün ağ-qarası
Şənə bax, izzətə bax, gör nə ucaltdı balanı
Özü qibleydi qucaqında uzatdı balanı

## İmamın (ə) Əli Əsğərə (ə) xitabı

Ey vəfa gülşənin qönçeyi-xəndanı oğul
Qanı ehya eləyən məktəbi-Quranı oğul

Mehri-Zəhra ki, su idi üzünə bağladılar
Qadağan oldu su içmək sinəni dağladılar
Ağladın sən sudan ötrü mələkut ağladılar
Qarəpuş etdi qəmin cənnətul-əlani oğul Belə ehsas edirəm dildəki nisgil sözünü
Ox dəyəndə boğazından çox itirdin özünü
İş keçib müşgülün üstə yum o yorğun gözünü
Ta çəkim yaradan ol zəhrili peykani oğul

İki peykərdən öləndən sonra bənd olmadı qan Biri sən, bir də anamdur qanı vermirdi aman
Səsin alcaq babamın, qanı atırdı yaradan
Kəfi-tabuta süzürdü şəbi-zülmani oğul

Məktəbi eşqdə öz eşqinə təfsir imiş ox
Qismətində su yox imiş, sənə təqdir imiş ox
Belə ox yarası olmaz bala şəmşir imiş ox
Bu yara bağlana yoxdur daxi imkanı oğul

Hansı gül sən kimi ey gül günü-gündən saralı
Hansı bir ovçu vurar qaçmayan olsa maralı
Bəxtə bax, qismətə bax, sən yaralı, mən yaralı
Ağladar bu iki yara iki dünyani oğul

Bilən olmadı bu bazaridə heç qiymətini
Xibrə sərrafam özüm sat mənə can xələtini
Basaram sinəmə cantək öpərəm surətini
Çəkərəm nazını ey Fatimə mehmanı oğul

Ey kiçik sinnilə sərməşqi-bozorqani-cahan
Şəfəqin mənzərəsin qanı üfüqdə yaradan
Ağlama səbr elə ta gəlsin həqiqi qan alan
Alacaq Məhdi bu nahaq tökülən qanı oğul

Qutəvər əşgi qəmü-möhnətə ol şahi-zəmən
Meydanın sağ-solunu gəzdi Hüseyn Əsğərilən  Səslədi
qardaşı Abbasi görüb yoxdu gələn
Binəfəs şah qucaqında gəzir hər yanı oğul

Əsğərin tez-tez öpür qanlı ləbi-nuşindən
Balanın qanı süzür sinəsinə döşündən
Bir nəfər yoxdu ala meyyiti ağuşundan
Gəzdirir ərsəgəhi qüssəli babanı oğul

Baxmır ləşgərin heç tənə ilə baxmağına
Qarşıb ağlamağı Hərmələnin gülməyinə
İyləyir Kəbə kimi sürtür özün qundağına Deyəsən
hacı öpür kəbeyi-cananı oğul

Gah səslir bala vay, gah yarasın tez-tez öpür
Dolayıb sağ-solunu qundağına didəsi tər
Sol əlin hayil edib başa otursa üzülər
Ağladır ərsədə öz halına sultanı oğul

## İmamın (ə) Zeynəbə (s.ə) xitabı

Gəl bacı məni gör nə pərişan edib Əsğər Başdan-ayağa
peykərimi qan edib Əsğər

Səpdim göyə qanın bir ovc dildə münacat
Bu qan da sənindir dedim ey Qaziyil-hacat Qaldı
bu nümayişdə aləmlər o zaman mat
Meydanda peyəmbərləri heyran edib Əsğər

Şeşmahə balam gərçi xədəngə hədəf oldu
Fikr etmə bu qan axdı və lakin tələf oldu
Bu qandı bizim şiəyə bacı şərəf oldu Çün
şiəmizi cənnətə mehman edib Əsğər
Yandırdı əgərçi məni bu Babül-həvaic
Təzmin elədi nehzətimi ta qala rayic
Aldım bir ovuc qandan əcəb yaxşı nətayic
Həqqaniyyətimi aləmə elan edib Əsğər

Oxlandı balam mən elədim Haqqə təvəkkül
İcad elədi məndə vəli ayrı təhəvvül
Etdim mən özüm Əsğərə meydanda təvəssül
Gördüm ki, böyük müşkülü asan edib Əsğər

Səpdim dəmi-məzlumi o dəm sahəti-Həyyə
Gərçi yanacaqdır bu müsibətdə Rüqəyyə
Bu qanilə nabud olacaq ali-Üməyyə
Nuhi-şühədadır bacı tufan edib Əsğər

Eşq atəşinə birdən alışdıq ikimiz də
Küsməmişdi balam, rəmzi danışdıq ikimiz də
Öpdüm dodağın, güldü barışdıq ikimiz də
Bax ləblərimə gör nə bacı qan edib Əsğər

Mən ağladım amma bacı Əsğər oxa güldü
Bu gülməyi yandırdı məni Haqq özü bildi Baxdı
üzümə gözləri həsrətlə süzüldü
Ruhu pər açıb aləmi geryan edib Əsğər

Zəhranı salıb yadıma bu qəlbi-şikəstə
Durmurdu qanı Fatimətək əllərim üstə
Meydanı dolandım qucağımda məni xəstə
Olmadı alan qəlbimi büryan edib Əsğər

Aldım su adıyla anasından məni-naşad
Etdi məni şərməndə və lakin bacı səyyad
Al Əsğəri sən, ver ona, söylə evin abad
Din üstə gözəl canını qurban edib Əsğər

# Zərr aləmi

Zərr aləmi mütabiqi "qalu bəla" günü
Ovladi-Adəmə yazılan ibtila günü
Ərzə verib bəlanı Xuda ibtida günü
Kimdir aça bəla ələmin Kərbəla günü

Etdi əhatə maxələqi soti-Davəri
Bir səs ucaldı, tutdu o dəm bəhr ilən bəri
Kimdir ola bəlalara eşqimdə müştəri
Alsın, satım bəlanı ona ibtila günü

Şərti budur bəlaya ürəkdən bəli deyə
Malü-əyal, baş sözünü başdan eyləyə
Mən də quram cəzasına ərşimdə mərsiyə
Təyin edim yer üstə də hətta əza günü

Lazımdı alverdə axər və əvvəlin qoya
Eşq üstə barmağın üzüyün, həm əlin qoya
Bir qız verəm bu şərt ilə adın gəlin qoya
Damad ölə əzaya dönə toy həna günü

Ərvahə göstəriblər bəlanın nümunəsin
Ta Əsğərin görübdülər əl üstə ölməsin
Ərbabi iddia hamısı gizlədib səsin
Musa görüb deyil bu qəziyyə əsa günü

Gördü Xəlil nəqzi bu peyman olan deyil
Bir müşkül əmridir daxi asan olan deyil
Bu od bir oddu bir də gülüstan olan deyil
Bərdən Səlamidən sovuşub hakəza günü İsa görüb ki, iş sovuşub vəzü-pəndidən
Meydanda od çıxır güya səmmi-səməndidən
At dırnağı sökür dağıdır bəndi bəndidən
Var ölmək ayəsi nə ki, şami-işa günü

Kala ağırdı qiyməti ağır bahal idi Asan
bir iş deyil satanı Zülcəlal idı
Səslər batıbdı bəs deyəsən hammı lal idi
İlla Hüseyn səslədi əynəl-bəla günü

Ta çıxdı müştəri şəh o qiymətli müsmənə
Aldı icazə ərz elədi Həyyi-zülmənə
Hər nə bəla mətayi-Xuda vardı sat mənə
Mən qaçmaram nə qədri ola rəncü-bəla günü

Vəchül-müsalihə bu işə kamilin verim
Hər zad Sənindi gərçi, vəli qabilin verim
Qimət bu cinsə Əkbərimin bir telin verim
Əlbaqisi mənim tələbim ta cəza günü

Mənşuri-namədə neçə məhparə yazdılar
Ad verdilər Rübab ilə gəhvarə yazdılar
Leylanı naqədə səri-bazarə yazdılar
Qarət yazıldı bir də qəmü-mübtəla günü

Mənşura ki, baxdı Hüseyn bəndi bəndinə
Qarət görəndə düşdü təfəkkür kəməndinə
Birdən nə gördü, Zeynəb əlin qoydu çiynınə
Yəni darıxma mən də varam Kərbəla günü

Ərvah ara düşübdü qərəz şurü-həlhələ
Ta ki, alan-satan ikisi verdi əl-ələ
Bir ya Əli deyiblər iş tapdı feysələ
Söz qaldı pərdəli gəlib əhdə vəfa günü

Gün qızardıbdı ərsəgəhi sübhidən şaxır
Bir seyyidi basıblar daşa, yandırır baxır
Gahi dönür o halda bir Əlqəmə baxır
Abbas hardasan bu müsibət fəza günü

Tək qaldı çün qitalda ol seyyidi kərim
Bir lövh nazil etdi ona Rəbbiyəl-əzim
Yazmışdı istəsən ölən ənsarı qaytarım
Gər meylin olsa əmr elə qaytar dala günü

Məşuq nazını gərək aşiq özü bölə
Sözdən söz aldı həzrəti aşiq gəlib dilə Min
yol əgər öləm diriləm etmərəm gilə
Çək imtahana aşiqini hər bəla günü

Ərz etmirəm ki, səbridə sərhəddi yıxmışam
Ağlar qoyub uşaqları sürətlə çıxmışam
Əfkarımı Rüqəyyə pozub çox darıxmışam
Ağlatdı xeymədə məni hücbü-həya günü

Öz halıma gərəkdi ki, şahid tutam Səni
Gül cismimə bu bəsdi sancıblar nizəni
Yorğun yıxılmışam bu qoşun daşlayır məni
Eşqində səhlidir mənə bu macəra günü

Bir lütf olubdu orda gərəkdir onu deyəm
Könlün alıb Xudası Hüseynin həmən o dəm
Səs gəldi qəm yemə mən özüm də hüseynçiyəm

Səbt eylədim bu sirri həmən aşina günü

## İmam Hüseyn (ə) və namaz

Qələm Allah adıyla ibtidadə
Sözü başlayır və lakin sərquşadə

Hüseynin haqqı çoxdur boynumuzda
Nəmək pərvərdeyik xani-vilada

Mürüvvətdən deyil haqqın itirmək
Cavab olmaz buna yovmi-cəzada

Bir iddə bu sözü izhar edillər
Deyillər əksərən bəzmi-əzada

Hüseyn guya namaza oldu qurban
Verillər şərhü-bəsti-fövqəladə

Bu mətləb düz deyil şərən və əqlən
Bihəvlillah yazım bax istinada

Üsuli-din, fürui-din cüdadır
Gərək təfkik ola bu ibtidada

Əgərçi lazım və məlzum həmdir
Cüdadır cayiqahı iqtizada

Əgər bir kəs namaza münkər olsa
O kafərdir sözüm yox iddiada

Namaz ilə Hüseynin fərqi çoxdur
Buna diqqət buyur durma inada Fürui-dində vaqedir namazın
Hüseyn cüzvi-usuli-dindi sadə

Necə qurban edirsən əsli fərə Buyur
biz də bilək ey şeyxzadə

Usuli-dində vaqedir imamət
Rücu eylə kitabi-etiqadə

Nəmazi-bivilayət dərdə dəyməz
Hüseyn isbat edib nuki-cidada

Hüseynsiz bir namazın xeyri olmaz
Namaz əhli çox idi Kərbəlada

Əgər dini ağac fərz eləyək biz
Usuli-dindi rişə bu fəzada

Ağac hər meyvə versə rişədəndir
Fürui-şaxü-bərg, meyvə dadə

O rişə olmasa oddur cəzası
Əzəl gün səbt olub lövhi-qəzada

Vurublar əslə bir vəslə həvəslə
Yazım ta söz qala ayəndə nəslə

Xudadan eylərəm mən istianət
Edəm ayrı cəhatə ta işarət

Öləndə tərk olmur şayəd namazın
Müsəlmansan yenə mömin be ayət Vilayət olmasa sən də o ləhzə
Ölübsən çün zamani-cahiliyyət

Fürui-dində var üzrü müvəccəh
Üsuli-dində yoxdur üzrü-qəflət

Namazı sındırırsan gah-gahi
Müvəccəh olsa yox eybi nəhayət

Hüseyni heç zaman sındırmaq olmaz
Hüseyn tohidə münzəmdir beğayət

Buyurmuş həzrəti Baqir bu sirri
Ki, beşdir rüknü ərkani-dəyanət

Namazı, orucu, həcci buyurdu
Zəkatilə vilayət saydı həzrət

Dalinca etdi fərmayiş sərihən
Ki, dördündən də əfzəldir vilayət

Soruşdu illətin ravi, buyurdu:
Vilayətdir kilidi hər ibadət

Yenə ayrı dəlayil axtarırsan
Gedib Quranə bax eylə qəzavət

Xəlil öz oğlu İsmaili aya
Kimə qurban kəsirdi başəhamət

Namaza oğlunu etmirdi qurban
Kəsirdi Allaha qurban o saət
Sözüm yoxdur ki, çıxdı imtahandan
Qəbul etdi onlardan Rəbbul-izzət

Gedib bax ayədə ləfzi-əzimə
Təfəkkür eylə üstündə bediqqət

Xuda qurbanı İsmail olanmaz
Hüseyn istər bu iş etsin qiyamət

Hüseyn Allaha qurban oldu bişəkk
Fədəyna ayəsi eylər dəlalət

Hüseynin fərqi çoxdur bizlər ilə
Hüseyndəndir şərəfləndi ibadət

Hüseyn vasil behəqdir vəsli-dindir
Hüseyn ruhi füru və əsli dindir

Verib Allah özü rüchan Hüseynə
Qoyub minnət Həqqi mənnan Hüseynə

Müqəddəsdir füruati-şəriət
Olanmaz şənidə yeksan Hüseynə

Namaza, oruca qurban olum mən
Olar da hamısı qurban Hüseynə

Hüseynsiz namaz dinara dəyməz
Namaz ağlar özü ətşan Hüseynə

İki üzvün Peyəmbər çox öpərdi
Desəm ağlar balası qan Hüseynə
Biri qəlbiydi, bir də ləbləriydi
Öpüb söylərdi hey can can Hüseynə

Həmən qəlbi nə hala saldı peykan Qələm
yazma belə ünvan Hüseynə

O ox əyləşdi Əkbər dağı üstə
Çəkəndə ağladı peykan Hüseynə

Yaza bilsəm əgər ayrı qəmindən
Olar məclisdə bir tufan Hüseynə

Peyəmbər öpdü bir gün dişlərindən
Edibdir nalə və əfğan Hüseynə

Sual etdi bu işdən əhli-beyti Nədir
sirri eylə elan Hüseynə

Peyəmbər dinmədi tökdü sereşgin
Qalıbdır pərdəli cəryan Hüseynə

Keçib illər gəlib Kufə qabağa
Hələ qalmışdı söz pünhan Hüseynə

O sirri xeyzəran açdı həmən gün
Dəyəndə dəmbədəm ətşan Hüseynə

Neçə yol xeyzəran hey qalxıb-endi
Demə qaldı ləbü-dəndan Hüseynə

Rüqəyyə səslədi incitmə əl çək
Töküb göz yaşını tiflan Hüseynə Dedi Zeynəb ki, zalım vurma vurma
Vurursan yara gör hardan Hüseynə

O ləblərdən Peyəmbər çox öpüdür
Öpüb tez-tez olub geryan Hüseynə

Hüseyn aləmdə hər dərdə dəvadı
Hüseyn fəthul-futuhi-ənbiyadı

Hüseyn cəmi-sifati ləm yəzəldi
Hüseyn əsrari-küllü manəzəldi

İbadətdə itaətdə Hüseyndir
Hüseyn həyyi əla xəyril-əməldi

Hüseyndir ismi-əzəm, ləfzü-məna
Hüseyn cəmi-füyuzati-məhəldi

Fəda olsun Hüseynə hər nəyim var
Hüseynin zəhri-üşşaqə əsəldi

Gözəllərdən xəbər alsan deyəllər
Gözəllərdən Hüseyn vallah gözlədi

Hüseyn tək beyti şeri Kərbəladı
Hüseyn çün aşiqanə bir qəzəldi

Hüseynə fitrətən aşiqdi aləm
Hüseynin eşqi çün beynəlmiləldi

Hüseynin mehri cənnətdir cinandır
Hüseynin qəhri duzəxi-filməsəldi Xəlayiq səf çəkib zərr aləmində
Bəlanın şiddətindən göz qaraldı

Salıb başın hamı yeksər aşağa
Şəhadət var, əsarət var, cədəldi

Hüseyn birdən dedi ləbbeyk ya Rəbb
Üqul heyran olub yeksər gicəldi

Nida gəldi Hüseyn ləbbeykə sədəyk
Cəzakəllah ki, eşqin bixələldi

Hüseyn tənha deyil Zeynəb də vardır
Məhəbbətdə onlar zərbül-məsəldi

Odur ki, səs düşüb eşq aləmində
Bacı-qardaş bunlar başda oldu

Hüseyn beyət əlin verməz Yezidə
Əli, Allah əlidir bibədəldi

Gedib Musaya bax qorxur ölümdən
Hüseyn qaçmaz vəli, mərdi-əməldi

Əgərçi qamətin bükmüşdü Abbas
Əyildi qəddi ta Quran düzəldi

Hüseyn atdan düşəndə sağ üz üstə
Nə tənhə ənbiya, Zəhra da gəldi

Düşüb qodalə gördü nuri-eyni
Ucaldı asimana şurü-şini
Hüseynin məqtəli ümmül-quradı
Hüseyn adı gələn yer Kərbəladı

Anası Fatimə nurun əla nur
Atası kerdegarın xanəzadı

Yıxıldı sədri-zin üstən türabə
Dilində Rəbbəna, ya Rəbbənadı

İmamı qəsdi-qürbətlən vurullar
Şürəyhin hökmüdü, nəsli zinadı

Avamın dini hərracə qoyuldu Xəvssın
kisəsi por əz təladı

Onu hər kim köməksiz gördü vurdu
Əlində daşdı, xəncərdi, cidadı

Demillər bu yaralı bir nəfərdir
Baxır Zəhra buna Xeyrün-nisadı

Əbəlfəzlin su üstə öldürüblər
Sınıb meydanda quştək qol-qanadı

O dəmdə üstünə bir sayə düşdü
Görüb Cibril məşğuli-bükadı

Salam etdi dedi mən Cəbrəiləm
Sənə lay-lay deyən əbdi-vəfadı

Dedi şəh başımın üstə dayanma
Bura Yəsrib deyil, Kərbübəladı Əgərçi məhrəmi-Ali-Əbasan
Sözün, rəmzin həmişə aşinadı

Vəli bu cilvəyə biganəsən sən
Sənə bu cilvələr naaşinadı

Hərimi hifz elə gəlmə qabağa
Yanar şəhpərlərin gəlsən xətadı

Nə lazımdır Hüseynə Rəbbi ərini
Bu qodal içrə bir mən, bir Xudadı

Uşaqlardan bilirsən nagəranam
O qızlar itrəti-Ali-Əbadı

Dayanma get xiyamə qorxuşullar
Rüqəyyəm nazpərvərdə baladı

Yananda xeymələr gözlə Rübabı
Ölübdür Əsğəri qəlbi yaradı

Gözü ətrafi hər ləhzə gəzirdi
Gedib Cibril, Şimrə müntəzirdi

Bu kimdir qanına qəltandı ya Rəbb
Vücudu sərbesər peykandı ya Rəbb

Düşüb qodala qan içrə Hüseyndir
Fərata göz tikib ətşandı ya Rəbb

O qədri nizələr qoymuşdu nöqtə
Kəənnəh peykəri Qurandı ya Rəbb Hüseyni yaralar saldı nəfəsdən
Yıxılmış yerdə niməcandı ya Rəbb

Dönübdür hər yana vurdu cəmaət
Bədən başdan-ayağa qandı ya Rəbb

Deyir ravi gözüm təll üstə düşdü
Nə gördüm Zeynəb nalandı ya Rəbb

Çıxıbdır xeymədən əllər başında
Gözündə göz yaşı tufandı ya Rəbb

Aman ol vəxtidən Zeynəb yetişdi
Nə gördü, Şimr bivicdandı ya Rəbb

Hüseynin sinəsində, əldə xəncər
Demir bu teşnələb mehmandı ya Rəbb

Çıxıbdır çəkməli ərşi-Xudaya
Bu əndazə məgər asandı ya Rəbb

Xanım Şimrilə dərgir oldu nagəh
Məgər Abbas ölüb, böhrandı ya Rəbb

Çəkir Şimri sala Zeynəb aşağa
O istər zibh edə hər andı ya Rəbb

Yapışdı Şimri-şumun xəncərindən
Yalın xəncər əli doğrandı ya Rəbb

Olubdur keşməkeş Zeynəb yıxıldı

Deyillər bir belə cəryandı ya Rəbb Çuxur yer üç nəfər cəngü-cidəlda
Biri qəşş eləyib çoxdandı ya Rəbb

Bədəndə yarələr düşdü fişarə
Gözün açdı görə hardandı ya Rəbb

Görübdür Zeynəbi qanə batıbdır
Hüseyn nimxiz olub durdu ya Rəbb

Dedi get xeyməgahə iş qutardı Denən
bu şəh sənə qurbandı ya Rəbb

## Salam olsun sənə ya Əba Əbdillah (ə)

Salam ola o çuxur yerdə xəstə can ağama
Salam ola bədəni oxlara nişan ağama

Salam ola beşiyin Cəbrəil tərpədənə
Həsirə çolqalanıb cismi dəfn olan ağama

Salam Şimrin əlində qalan yaralı başa O
halda xeymələrə nagiran baxan ağama

Salam qətligaha xeymədən oruc gedənə
Salam ola orucun axşam açmayan ağama

Salam ola ağamın qorxuşan balalarına

Gecə o xeymə dalında tikan yolan ağama

Salam ola o yol üstündə əyləşən balaya
Xiyamü-təll arasında o ağlayan ağama

Salam ola o ələ, sariban əlində qalıb
Bir ömür duz-çörəyin sariban danan ağama

Salam o əllərə ki, Əkbərin telin daradı
Ərəbi kakuli qanə batan cavan ağama

Salam ola o ərusun daranmamış saçına
Gəlin qızın telinə qan həna yaxan ağama

Salam ola ala gözlü uca ələmdara
Uşaqlara öz əlilə su paylayan ağama

Salam sübh açılınca Rübabı ağladana
Balıq kimi susuzundan çalıxlayan ağama

## İmam Hüseynin (ə) vidalaşması

O dəm ki, ayrılıq oxun qoyar kəmanə ayrılıq
Alovlanan ürəkləri edər nişanə ayrılıq

Elə bir oxdur hər dilə dəyə onu yarıb sökər
O qan olan ürəkləri iki bölüb qanın tökər
Ağac şükufədə necə bağa qara bulud çökər

Dolu düşər, gülü vurar, verər talanə ayrılıq

Solubdu gülüstani-din, vəfalı bağiban gedir Uşaqların
üzün öpur, o yari-mehriban gedir
Ucadan ağlıyanmır Hüseyn ürəkdə qan gedir
Düçar edib o həzrəti qəmi-nihanə ayrılıq

Xülasə ayrılıq tozu o dəm qonubdu hər yana
İmam ilən görüşdülər uşaq-böyük danə-danə
Hamı o gündə bir yana, xanım Rübab bir yana Uzaqda
göz yaşın tökür salıb fəğanə ayrılıq

Kənaridən kənizitək edir nəzarə sərvərin
Çağırdı şəh hüzuruna icazə verdi dilqəmin
Rübab öpdü ol zaman əbanın üstən əllərin
Əlində qanı görmüsən qalır nişanə ayrılıq

O qan desin nə qanidir, vəfa nişanıdır o qan
Rübabi bəxti qarənin qəmi-nihanıdır o qan Həman
o şirixarənin boğazda qanıdır o qan
Bir az qabaq seşöbə ox qoyub kəmanə ayrılıq

Rübabı səsləyib Hüseyn o dəmdə səlbi-təvan edir
Xüsusi bir danışdırıb sözün ona xitab edir
Buyurdu Zeynəbə demə ətəş məni kabab edir
Özüm təkəm yorulmuşam gətirdi cana ayrılıq

Mənə Mədinədə hamı o dəm ki, ağlaşar ələn
Həya olanda manelər, daşanda qəlbidə mühən

Xüsusi ağla sən mənə, qıl Əsğəri bəhanə sən
Nəvaya ki, salar səni çox aşiqanə ayrılıq

Deyir qoşunda bir nəfər: yubandı gəlmədi imam
Təhəmmül etmədi ədu, qoşunda olmadı davam
Dedim ki, fori mən gedib xiyamə sarı bir baxam
Görüm nə oldu illəti çəkər haçanə ayrılıq

Yetəndə səmti-təllə mən eşitdim ağlamaq səsin
Nə gördüm onda qız-gəlin tutub Hüseyn dövrəsin
Biri öpürdü əllərin, biri öpürdü çəkməsin  Gələn
deyil bu şərh ilən yenə bəyanə ayrılıq Hezarə
misli teşnələr qonublar gül budağına
Biri su camını atıb, əlin qoyub dodağına
Birin alıb qucaqına, biri düşüb ayağına
Salıbdı dudi-ahidən yol asimanə ayrılıq

Bulud kimin dolub Hüseyn cahanı yandırıb yaxar
Sükut edib danışmır, gözaltı Zeynəbə baxar
Yanında qızların bilir danışsa ağlamaq tutar
Hələ sükutilə onu edir rəvanə ayrılıq

# İmam Hüseynin (ə) vidalaşmasına işarə

Dübarə qəmli dilim yandı suzi-möhnətdən
İşim düşübdü Hüseynə ürəkdə hacətdən

Hüseynə ağlamağın əcri binəhayətdir Müsəlləm
əmridi məlum olur rəvayətdən

Bu ağlamaq həm ibadətdi, həm mübarizədi
O qövmilən ki, Hüseyni danıb xəbasətdən

Hüseyndi ruhi-məhəbbət, Hüseyndi rəfəti-vücüd
İnanmırsan xəbər al sahibi şəriətdən

Qapı-qapı gəzərəm, dərdimi Hüseynə deyəm Hüseyn
qapısının quluyam böyük səadətdən

Uşaqlığımdan Hüseynə elə ağa demişəm
Mahaldir, daxi mən çıxmaram o adətdən

Hüseyn görən işi heç kim görənməyib vallah
Gedib sən tarixə bax bir də diqqətdən
Baş əymədi, bizə izzət qazandı məqtəldə Qurtardı
şiəni ta həşrə, ölüncə zillətdən

Hüseyn sizi o çuxur yerdə bir dua eləyib
Nəticəsin görəcəksiz zəmani-rehlətdən

O dəm ki, qoydular qəbrə Hüseynə ağlayanı
İki mələk yetişər aləmi həqiqətdən

Əzəl ürəyini iylələllər iştiyaq ilə
Görəllər aşiq imiş həzrətə iradətdən

Deyərlər ayrısına bənzəməz bu, sahibi var
Hüseynin ətri gəlir qəlbi por ütufətdən

Bu etiqaddayam, etməyin mənə irad
Görərsiz ərzimi siz həşridə sədaqətdən

Şiələrsiz Hüseyn cənnətə ayaq qoymaz
Hüseynçi Ali-Hüseyndir yaxın qərabətdən

Əlində öz yaralı başı məhşərə gələcək
Hüseyn gələndə qiyamət qopar qiyamətdən

O halda dolanıb bir baxar əzadara
Deyər gəlin mənə sarı kamali-rəfətdən

Deyillər öz anasından süd əmməyibdi Hüseyn
Əcəbdi əhli-dil və sahibi bəsirətdən

Hüseyn bu illətə əmdi Rəsul barmağını
Ki, səhmi artıq ola məhzəri-risalətdən
Bir imtiyazdır Taha Hüseyninə verdi
Soruş o "ləhmukə ləhmi"dəki ibarətdən

Hüseyn ki, əmməsə Zəhra südün Hüseyn olmaz
Nə var o süddədir feyzü-kəmali-ismətdən

Hüseyn əmbidi müsəlləmdi südü imandan
Dəlili var sözümün zikr olub sərahətdən

Dəlili də bu sözə Cabirin ziyarətidir
Bizə müşəxxəs olubdur həmən ziyarətdən

O böyük səhabə sərahətən buyurub
Ki, rüşd edibdi Hüseyn şiri-Fatimiyyətdən

Hüseynin ağzına Taha dilin salıb gah-gah
Ki, aclıq-susuzluq rəf ola kəramətdən

Hüseyn babasının əmdi dilin uşaq vaxtı
Müyəssər olmadı Əsğər əmə məhəbbətdən

Əgər dilin balanın ağzına salardı imam
Hərarəti balanı yandırardı şiddətdən

Ana gərək balasın neçə yol əmizdirsin
Bu hökm sadir olub məsdəri-cəlalətdən

Rübaba baxma südü olmadı verə balaya Su
içməmişdi özü üç gün idi möhnətdən

Ana su içməsə olmaz südü müsəlləmdi
Bala fişarə düşər şiddətilə üsrətdən
Uşaq ac olsa atar ağzını oyan-buyana
Gəzər ana döşünü göz yaşıyla fitrətdən

Fişardaydı bala dərdini deyənmirdi
Ac idi, həm susuz idi uşaq nəhayətdən

Rübabın Əsğəri üç gündə niməcan oldu
Gecə-gündüz anasın qoydu istirahətdən

Odur ki, xeyməsəradə həmişə ağlardı
Görərdi qönçə gülü hey düşür təravətdən

O qədri sinəsini eylədi xəraş Əsğər
Ləbən yerinə ləbaləb edib cərahətdən

İcazə aldı o dəmdə vəfalı Zeynəbdən
Əlini bağladı vəli öldü xəcalətdən

O əlləri babası qətligahidə açdı
Çalıbdı bir əl-əyaq dincəlib məşəqqətdən

Sözüm bir ayrı mətləbdi göz yaşım qoysa
Ənani-şeri qələm məndən aldı sürətdən

Ürəkdə hacətin olsa Hüseyndən əl çəkmə
Kərimdir bu ağa tez verər kəramətdən

Qapını sidqilə sən vur, Hüseyn açar üzünə
Nə istəsən alasan mal o dinü-izzətdən

Bu müxtəsər xəbəri nəql edim ki, həzz edəsən
Məqamını biləsən mənzəri-vilayətdən Hüseynə sail olan
aləmə Süleymandı
Məqamı başdı bütün şahlara şərafətdən

Yazıllar bir ərəbin dərdi binəhayət idi
Döyüb Hüseyn qapısın bir gün sədaqətdən

Sözü bu idi: ağa neyləyim giriftaram
Hara gedim daxi məni kəsrəti-fəlakətdən

Kimə dedim qapısın bağladı mənim üzümə
Mənə cavab elədi yandırıb şəmatətdən

Məni qanadına al qoyma abrım getsin
Gedənmirəm evimə müntəhayi-xəcalətdən

Dedim Mədinədə kimdir kərimü-bəxşəndə
Səni veriblər nişan gəlmişəm məsafətdən

Hüseyn açıb qapını sailin danışdırdı
Məhəbbət eylədi sultan gedayə rəfətdən

Büküb rədasına dörd min hüdudicən dinar
Dedi güzəşt elə şərməndəyəm bu qillətdən

Bu qədər bil sənə ürəkdən məhəbbətim vardır
O sail ağladı birdən pozuldu riqqətdən

Bəli, Hüseynin əli aləmə kərəm əlidi
O əl ki, Kərbübəlada kəsildi zərbətdən

Hüseyn elə ağadı sailindən üzr istər

Təccübəm bu qədər bəxşişü-mürüvvətdən Rəvadır gör elə
əl sariban əlində qala
Əlin kəsə o dəni niməşəb, şəqavətdən

O dəm ki, kəsdi əlin saribani-biiman
Cəhana lərzə düşüb etdiyi cinayətdən

Ucaldı onda Hüseyn vay sədası göylərdən
Düşübdü canına rəşə o ləhzə vəhşətdən

Cənazələr arasında o dərhal gizləndi
Görə nə səsdir salır masəvanı taqətdən

Çüxur məkana səmadan enibdi bir hudəc
Gəlibdi neçə nəfər qətligahə cənnətdən

Neçə kişiydi olar, bir başı qaralı xanım
Giriblər qoltuğuna şiddəti müsibətdən

O qədər ağlamışdı sədası çıxmırdı
Ana dili danışırdı kəlam və söhbətdən

Çuxur yerin başına baş açıq dolandı bir az
Təvaf edibdir deyəsən kəbəni səadətdən

Nə gördülər ki, o başsız bədən edib hərəkət
Diz üstə əyləşib etdi salam iradətdən

Dedi salam ola cədda sənə Hüseynindən Şikayətim
baba çoxdur sizə bu ümmətdən

Məni bu hala salıb öldürüblər Əkbərimi
Bu da əlimdi kəsib sariban qəsavətdən Yetəndə söz bu
yerə şurişi qiyamət olub
Əl atdı başına Zəhra bu qəmli söhbətdən

Üzün tutubdu Rəsulə o dəm bəlalı xanım Ki,
bəlkə rüxsət ala Xatəmi risalətdən

İcazə aldı vurub əllərin oğul qanına
Yaxıb onu ağaran zülfünə təharətdən

Həman o qana Peyəmbər də əllərin vurdu
Yaxıb məhasininə, alnına dirayətdən

Sonra o qanı Əli də camalına yaxdı
Boyandı lalə kimi rəngi mənəviyyətdən

Edib bəqiyyə də Tahaya iqtida ol dəm
Müxəzzib oldular Sarəlləhilə növbətdən

O qan ilə deyə billəm təyəmmüm etdi onlar
Namazi şəb qılalar xuni-Rəbbül-izzətdən

O halda nə görüblər ki, ayrı səs gəlir
Uşaq səsidi müşəxxəs olurdu halətdən

O səs gələndə qonaqlar çıxıblar məqtəldən
Hüseyn çağırdı həman tifli bəzmi-xəlvətdən

Baba-baba çağırdı o qız sızıldardı
Gecə zamanı gəzir məqtəli fərasətdən

Hayandasan baba səs ver tapanmıram yerini
İtirmişəm yolu bu tirə şəbdə zülmətdən Cənazələr
görünür qorxuram gecə vəxti
Bibim yanımda deyil çəkmə əl himayətdən

Sınıb baba qadağan mən hələ su içməmişəm
O səhlidir sənə çox söz varımdı qarətdən

Azan çağıydı sənin canamazın açmışdım
Yoluna müntəzir idim əzəlki adətdən

Edibdi həlhələ ləşgər doluşdu xeymələrə Açıblar
qəmçilərin birbəbir ədavətdən

Deyənmirəm baba onda bizə nələr oldu
Bibim yıxıldı yerə şiddəti-cərahətdən

Haraya səslədi qızlar əmim Əbəlfəzli
O ləhzə nüsrət ola bəlkə kani qeyrətdən

Məni güzəşt eleyin niyyətim vida idi
Çəkildi söz bu yerə ayrı bir hidayətdən

İmam Kərbübəlada neçə vida eləyib
Çətindi hər biri min aləm qiyamətdən

Aman ilahi aman axərin vidasından
Ki, tab alar gecə gündüz imami Höccətdən

Həman kərəm əli ki, sariban kəsmişdi
Çəkərdi qızlarının başına məhəbbətdən

Dayandı xeymə qabağında səslədi gedirəm  Gəlin
görün məni fürsəti qənimətdən Hüseyni
dövrələdi nagəhan bala balalar
Gəlini, qızları töküldü xiyami-ismətdən

Uşaqlarına imamın məhəbbəti çox idi
Sevirdi qızlarını eşqi binəhayətdən

Rüqəyyənin öz əlilə daradı saçlarını
Alardı çiyninə Yəsribdə vəxtu-fürsətdən

Səkinə çün dəmi bəxtidi çox sözü var idi
Sukutilə danışırdı vəli işarətdən

Hüseyn baxıbdı dedi qəlbimi alışdırma
Bu noyi baxma qızım müntəhayi həsrətdən

Nə çarə vardı qızım məndə iş belə gəldi
Müqəddər olmuşdu sahibi cəlalətdən

Sən ağlama, ürəyim ağlayanda sən dözmür
Düşər fişarə bu qəlbim böyük süubətdən

Hamızı tapşırıram Allaha özüm gedirəm
Yolumu gözləməyin bir də fikri-rəcətdən

Öpüb balalarını birbəbir vida elədi
Müsəmməm oldu gedə rəzmgahə niyyədən

Hüseyni indi gərək kim ata səvar eləsin
Ölübdü qardaşı məzur olubdu xidmətdən

Nə vardı Əkbər, nə Qasim və nə Əbəlfəzli
Ki, məst olub üçü də badeyi-şəhadətdən Vəfalı Zeynəb
özü Zülcənahı gətdi
Tutub rikabı səvar eyləyə şərakətdən

Hüseynin heç beli gəlmirdi ta səvar olsun Cavan
oğul ölümü salmış idı taqətdən

Deyillər Zeynəb özü Zülcənaha mindirdi
Hüseyni saldı yola səbri-Zeynəbiyyətdən

Hüseyn gedir, nə gedir ruhi-Zeynəbi aparır
Yaxındı ayrıla can cismi-ünsüriyyətdən

Daliyca səslədi birdən Hüseyn ayaq saxla Ölür
bacın elə dəfn elə get bu saətdən

Aya İmam Zaman ver icazə ərz eləyim
Məni güzəşt elə bu etdiyim cəsarətdən

Baxanda birdə Hüseyn gördü can verir Zeynəb
Dərhal qoydu əlin qəlbinə təbabətdən

## İmamın (ə) qızı ilə vidalaşması

Ağlama ey gülşəni-eşqə həzarə qoy gedim Düş
qucağımdan yerə ey mahparə qoy gedim

Az yapışdır sinəmə suzilə yanmış sinəni
Çək dodağımdan dodağın belə yandırma məni
Mən sənə bir busə borclu Şamdə görrəm səni
Öp nə qədər orda öpsən hər yaranı qoy gedim

Baxma sinnin xırdadır ey ahuyi-hillü-hərəm
Mən sənə Zəhra gözündə baxmışam hər bir qədəm
Ağlayanda sən düşür yadıma Yəsribdə o dəm
Ağlayırdı Fatimə dildə şərarə qoy gedim

Heydərə xatir dalınca məscidə qaçdı anam
Sən də gəldin məndən ötrü qəlbidə dərdü-ələm
Sən mənim xırda anamsan mən gərək atdan enəm
Hörmətin vacibdi Zəhratək bu zarə qoy gedim

Gün ki, axşam çağı batdı mən boyandım qanıma

Ay çıxanda sən də çıx sirrin demə nisvanıma
Saxlaram sinəmdə yer gəl qətligahə yanıma
Gözlərəm orda balam canı dübarə qoy gedim

İndidən əmmən kimi öyrəş fəraqə get bala
Düş qucağımdan sönə suzi əlaqə get bala
Allaha xatir səni aldım qucaqə get bala
Ağlayıb çox salma babanı fişarə qoy gedim

Hamızı tapşırmışam Allaha mən tək-tək qızım
Sən bilirsən ki, anam gözlər məni göyçək qızım
Əlli ildi həsrətəm Zəhrayə sən əl çək qızım Rəhm
elə göz yaşıma bax inkisarə qoy gedim

Sən ki, dildə bu az sinnilə çox vabəstəsən
Çırpınır qəlbin quş kimi dilxəstəsən
Bu nə aləmdir hələ mən getməmiş can üstəsən
Can verir güya qəfəsdə bir qənari qoy gedim

## Vida növhəsi

**(Cuşi və sinəzən)**
Sal yola anan Bətulə, qardaşın qonaqdı Zeynəb
Səbr elə qəmi fəraqə, eşq bu siyaqdı Zeynəb

Başının bacı bəlası yetməyib hələ təmamə

Sən özün bir Hüseynsən, ver bu nehzətə idamə
Hazır ol ki, qəm qətarın Kufədən çəkəllə Şamə
Şam yolları bilirsən Kufədən uzaqdı Zeynəb

Bu Rüqəyyəni bilirsən çox sevirdim əvvəlindən Ağladıb
məni yol üstə doymadım şirin dilindən
Xəstə bülbülü çəməndə ayrı saldılar gəlindən
Az zaman sənə Rüqəyyə Şamidə qonaqdı Zeynəb

Adət eyləyib mənilə hər gecə bu qız yatardı Qolların
salardı möhkəm boynuma yuxu tutardı Sübh mən
üzün öpərdim nazilə gözün açardı
Öyrəşib mənə üç ildi neyləsin uşaqdı Zeynəb

Ayrı halətilə gördüm mən o qəmkeş fəraqı
Xofidən ürək dayanmır titrəyirdi dil-dodaqı
Tez dodaq-dodağa qoydum ölməsin mən ol uşağı
Dil-dodaq demə deyirsən bir yanar ocaqdı Zeynəb

Öldü qardaşım bu çöldə qəlbimə fəraqı oxdu
Əl tutan gedib əlimdən başımın bəlası çoxdu
Əkbərim cavan ölübdür qalmağın da həzzi yoxdu
Bir seşöbə ox çöldə gözlərəm haçandı Zeynəb

Möcüzi imamət ilə Zeynəbə təkan veribdir
Qəlbinə əlin ki, qoydu nimə cana can veribdir Zeynəbin
açıldı nitqü eşqidən bəyan veribdir
Olma nagəran Hüseynim nehzətə dayaqdı Zeynəb

Get vəfa elə Hüseynim əhdi-aləmi-ələstə
Düş yaralı qətligahə qoyma din ola şikəstə
Olma nagəran qızından ey şəhənşəhi-xücəstə  Qafil
olmayıbdı, olmaz, hər zaman oyaqdı Zeynəb

## Ya Hüseyn (ə)

Sən süruri qəlbi Xətmül-mürsəlinsən ya Hüseyn
Məşriqül-ənvari Rəbbul-aləminsən ya Hüseyn

Ey kəlamullahdakı, əssabiqunəs-sabiqun
Nəfsi nəfsul-mütməinnə kaf, eyn, sad və nun
Yatdığın yer ərşidən baş sirri ma la tələmun
Mürşidü-ustadi-Cibrili-əminsən ya Hüseyn

Səcdəgahda aşiqi xunin vüzusan seyyidim
Qoli "kuntu kənzi"də sirri məqusan seyyidim
Hər du aləm ənbiyayə abirusan seyyidim
Sən həmən Quran deyən həblul-mətinsən ya Hüseyn

Şahidani-bəzmi-vəhdət yox sözüm kamildilər Ali-Taha
mərdü-zən xoşbu gül, sünbüldülər
Sən bəhari-eşqisən hərçənd onlar da güldülər
Ayrı ətrin var sənin xoşbutərinsən ya Hüseyn

Onda ki, atdan yer üstə etdin iclali-nüzul
Qilü-qalə fəlsəfə sındı edib məntiq üful
Eşqi fatih çıxdı aləmdə olub heyran üqul
Bildi aləm ta əbəd aşiqtərinsən ya Hüseyn

Vardı bir qarə qulamın şah başından tac alar
Qabə-qovsəyni qaşından ləzzəti-merac alar
Bir namazın ənbiyanın hamısından bac alar
Qətligahda sacidi xunin cəbinsən ya Hüseyn

Ey yaralı peykəri başdan-başa bir parça naz
Xəncərə naz eyləyən aşiq, şəhi sail nəvaz
Sən yaralı səcdəyə getdin şərəfləndi namaz
Gördülər ruhi-namaz, əsli-dinsən ya Hüseyn

Peykəri-İslama vurmuşdu böyük yarə ədu
Tari-zülfü-Əkbərilə eylədin amma rüfu
Nizə başında dolandın şəhri-eşqi-kubeku
Ta bilə aləm rəisül-aşiqinsən ya Hüseyn

## İmam Hüseynin (ə) düşmən qoşununa xitabı

Yaxşı baxın Hüseyn dedi ey əşqiya mənə
Eşq əhliyəm yazıldı bəla ibtida mənə

Quran mənəm, Kitab mənəm, əsli-din mənəm
Yoldan nə çıxıbsız, nə rəva, bu cəfa mənə

Əfv eylərəm ölənlərimin qanın almaram
Bu şərtilən eyləyəsiz iqtida mənə

Fikrim budur Yezidi salam təxtdən yerə
Nüsrət edin bu barədə siz mütləqən mənə

Meyxarə bir xəlifə yaraşmaz bu məktəbə
Bir fikr edin camaat olun həmsəda mənə
Zillətdi fasiqə baş əyək beş gün ömrüdə
İzzətdi qanlı ölüm baxın bərməla mənə

Agah olun Yezidə Hüseyn baş əyən deyil
Başım kəsilsə olsa cüda müttəka mənə

Aldım Fəratı  gördü hamı içmədim vəli
Su istəməm ki, zillət ola hakəza mənə

Mutu desəm bir anidə məhv eylərəm sizi
Mən neynirəm əsani ola əjdəha mənə

Mən verməsəm icazə çəkənməz biri nəfəs
Canız əlimdədir deməyin narəva mənə

Tutsa qoşun bu dəşti Hüseyni yıxanmaz
Əkbər yıxıb məni yetişib ibtila mənə

Qəlblərdəki məhəbbətimi öldürənməzsiz
Zahir fənada səbt olunubdur bəqa mənə

Bir iddə adımı yazacaq qara pərçəmə
Hər yerdə dair eyləyəcəklər əza mənə

Abbas ölüb nə qəm, hələ bir Zeynəbim də var
Həmrahdı əvvəlindən elə hər qədəm mənə

Qalu bəla bəlasına bir yol bəla dedim
Yüz Kərbəla yenə də yoxdu “la” mənə

Amma özüm sizə rəhmim gəlir mənim
Bu qədər etməyin daxi zülmü-cəfa mənə Peyğəmbərin
səhabəsi Cabir tanıyır məni
Ondan sual edin yetişin cabeca mənə

Zeyd ibn Ərqəmi çağırın bir danışdırın
Zikr eyləsin fəzayili-biintiha mənə

Ləşgər arasında o halda səsləndi bir şəqi Bəsdir
sükut elə demə çox macəra mənə

Biz Heydərin ədavətinə gəlmişik bura
Şərh eləmə bu qədri Hüseyn “Həl əta” mənə

Öldürməyincə biz səni burdan qaytmarıq
Qəlbdə Əli ədavətidir müddəa mənə

Bu səs gələndə döndü Nəcəf səmtinə Hüseyn
Səsləndi qıl nəzər baba ya Mürtəza mənə

Mən ya Əli deyəndə bunlar daşlayır məni
Eşqində səhlidir gələ hər ibtila mənə

Atalığından başqa mən özüm aşiqəm sənə
Adın veribdi hər iki aləm baha mənə

Eşqim nə qədər ola yenə Zəhraya çatmaram
Şahid yanan qapıdı sübhü-məsa mənə

Amma baba köməklərimi öldürübdülər
Rəhm etməyibdi zərrəcə qövmi dəğa mənə

Var xatirində iyirmi biri məhi siyam
Abbası tapşırırdın o gün cabeca mənə
Sən tapşıran vəfalını öldürdü küfiyan
Bax nəhri Əlqəmə eylə dildən dua mənə

Ey Xeybərin qapısını tək qozayan baba Tək
qalmışam yoxumdu kömək yar ola mənə

## İmam Hüseynə (ə) sevginin izharı və qətligah əhvalatına işarə

Səslərəm dildə mükərrər evin abad Hüseyn
Pareyi-qəlbi-Peyəmbər evin abad Hüseyn
Xələfi-Heydəri-Səfdər evin abad Hüseyn
Harda var sən kimi rəhbər evin abad Hüseyn
Ey adı dillərə əzbər evin abad Hüseyn

Yox ümidim öz ibadətlərimə dilsərdəm
Sənə göz tikmişəm amma ürəyi por dərdəm

Baxma ol zahidə ki, cənnətə xoşdur hərdəm
Cənnətə bir baxışın versəm əgər namərdəm
Bax mənə ol dəmi axər evin abad Hüseyn

And ola Zeynəbin ağ saçlarına, göz yaşına
Mərkəbindən üzü üstə yıxılan qardaşına
O susuz Əsğərə ki, çatmadı heç bir yaşına
Gəlməyibdir bu camaat bu yerə öz başına
Sənin eşqində gəliblər evin abad Hüseyn

Seyyidim, hacətimiz çoxdu rəva istəyirik
Dərdimiz vardı şəha, hökmü-şəfa istəyirik
Demirəm Məkkə və Miqat, Mina istəyirik
And ola Zeynəbə biz Kərbübəla istəyirik
Harda cənnət ora bənzər evin abad Hüseyn

Ağlaram şam-səhər Zeynəbə, qəm yoldaşına
Xırdaca qəbridə yatmış o uca qardaşına Kərbəla
şövqü düşüb cana, qəsəm göz yaşına
Bir görəydim sürünüb mən də dolannam başına
Səslərəm orda mükərrər evin abad Hüseyn

Eşq xeymə qura bilməz qəlbi hər dini kəcdə
Bir müqəddəs ürək istər ki, gətirsin vəcdə
Kimdi ki, pey apara səndəki izzü-məcdə
Adəmə etdi mələklər sənə xatir səcdə
Adəmə kim nəzər eylər evin abad Hüseyn

Şirmərd istəyir ta qaçmaya heç bəlvadan

Əkbərindən keçə meydanda düşə yaradan
Hələ Adəm keçə bilmədi iki buğdadan
Tək Hüseynin işidir məst ola bu səhbadan
Hey çəkə başına peydər evin abad Hüseyn

Qanlı ehramına heyrandı sərxil mələk
Oldu hüccac ara həşrə kimi həccintək
“Ləkə ləbbəyk”inə səs gəldi ki, “Allahu məək”
Dedi ləbbeyk Hüseyn Rəbbi-cəli , ərşü-fələk
Səslədi göydə mələklər evin abad Hüseyn

Dedilər kimdi belə səcdeyi-mümtaz eləyir
Zülcəlala özünü eşqilə dəmsaz eləyir
Bu necə yarəlidir xəncərə də naz eləyir
Uca boylu o xanım kimdi ki, ecaz eləyir
Əllərin doğradı xəncər evin abad Hüseyn
Bar ilaha, bu qoşun belə cəfa eylər ona
Zülm qalmır ki, daxi qövmü dəğa eylər ona
Biri daşlar, biri ləbbeyk səda eylər ona Xırda
bir qız oturub yolda dua eylər ona
Babasın nazilə gözlər evin abad Hüseyn

Var yeri səs gələ nurüs-səqəleynimdi mənim
Batini Kəbədi ruhül-hərəmeynimdi mənim
Sevgilimdir o, qətiül-vədceynimdi mənim
Bu həman Fatimənin oğlu Hüseynimdi mənim
Şafeyi-aləmi-məhşər evin abad Hüseyn

Baxmayın peykərini oxlara amac elədim

Yandırıb xeyməsini ərseyi-tarac elədim
Mənim eşqimdi Hüseyn xilqətimə tac elədim
Xeyli üşşaqı buna həşridə möhtac elədim
Əhli-eşqə budu sərvər evin abad Hüseyn

Fətəbarəkdə olan nəssə budur şəni nüzul
Öz Hüseynimdi, Bətulun gülü, dilbəndi-Rəsul
Etmədi zərrəcə öz əhdi ələstindən üdul
Ağzını hər nəyə açsa edərəm mən də qəbul
Gər dua etsə oləblər evin abad Hüseyn

O xanım da ürəyi parçalanan Zeynəbdi
Tiri-alamü-bəliyyata nişan Zeynəbdi
Bu Hüseynin bacısı qəlbi yanan Zeynəbdi
Zərridə oldu şəriki bu həman Zeynəbdi
Ləhnidə Heydərə bənzər evin abad Hüseyn

## Qətligah

Bürüyüb peykəri Quranı qızıl qan Allah
Bu Hüseyndir yıxılıb məqtələ ətşan Allah
Zikri ləbbeykidi ya Qadirü-Mənnan Allah Görməyib
Nuhi-nəbi bir belə tufan Allah

Salehin peylədi öz qövmü o gün ki, dəvəsin
Üç günə gəldi bəla kəsdi o qovmün nəfəsin
Kərbəlada qoşun öldürdü Peyəmbər nəvəsin

Nə idi hikməti ki, etmədi viran Allah

Allahın bax işinə gör nə nəmayan elədi Onların
zülmünə çox yerləri viran elədi Kərbəlanı
bəzədi tərfə gülüstan elədi
Eşqə bax gör nə verir rövnəqi-dükkan Allah

Kəsdi Yəhya başını təştdə bu çərxi-dəni
Cuşə gəldi o gözəl qanı tutub zaniyəni
Yenə də olmadı paymal ayaq altda bədəni
Bu Hüseyn tək ölən olmaz hamı dövran Allah

Qarışıb bir-birə Ha, Mim, Əlif, Lam və sətur
Xətt oxunmur pozulub Tura düşən ayeyi-nur
Bayi-Bismillah əsir qatil əlində porşur
Nur özü səslənir ey nuri-dilü-can Allah

Bu Hüseyndir sənə xatir sürünür eşqində
Lalətək qırmızı qana bürünür eşqində Bu
da qəlbimdi kürəkdən görünür eşqində
Başimin mətəliyəm, qalmaya nöqsan Allah Elədim bu
yaralı peykəri gülşən baxasan
Çeşmətək qanım axa ta neçə yerdən baxasan
Hamı gözlər yumula bircə fəqət Sən baxasan
Xibrəsən, Sən verəsən qiyməti şayan Allah

Bir də ərzim budur ey sahibi-iclalu-şüun
Qan olan qəlbimi ləşgər eləyib ğürfeyi-xun Hələ
mən ölməmişəm xeymələrə getdi qoşun

Əl çala qarətə bu firqeyi-üdvan Allah

Aləmi zərridəki, sözdən üdul eyləmirəm
Varam öz əhdimin üstündə nükul eyləmirəm
Mən baxam Zeynəbi vursunlar, qəbul eyləmirəm
Sən Özün qüdrətini eylə nümayan Allah

Xatirimdə hələ vardır qapımızda o zaman
Anamı vurdular, dinmirdi babam, dildə fəğan
Əli qoynunda baxırdı qapıya əşki-rəvan
Mən dözənməm, o Əlidir, elə ehsan Allah

Xeyməni bəski Hüseyn qəlbinə bir dərd elədi
Ta qəbuli-ərzini Həyyi-səmədü-fərd elədi
Bilmirəm noldu qoşun birdən əqəbgərd elədi
Döndülər yaralının üstə şitaban Allah

Qoşun amarına bax qırx minə vardır xəbəri
On minin ölmüşə qoy biş-kəmi müxtəsəri
O qalan dövrələyib hammı vurur bir nəfəri
Bu qədər yaraya yox cismidə imkan Allah

Bax ziyarət fəqəratındakı suzu mühənə
Dəydi saysız yara meydanda bir gül bədənə
Gör otuz min nəfərin qalxa əli birdən enə
O bədəndən nə qalar qalmışam heyran Allah

Ölən ənsarını bir-bir çağırır leyk Hüseyn Göndərir
ahilə hər tək-təkinə peyk Hüseyn

Şühəda səslədi birdən hamı ləbbeyk Hüseyn
Batinən verdi səda xeyli şəhidan Allah

Şühədaya elədi ahi şərər bari əsər
Qumların üstə bədənlər hamısı titrədilər
Səs verib aləmi mənadə o dəm səslədilər
Yenə başdan keçərik gər verə fərman Allah

Rədd edib sətrü-hicabatı o dəm əmri-İlah
Ta baxıb səhneyi-ecaba məlayik nagah
Dedi “la həvlə və la quvvətə illa billah”
Kimdi bu yaralı səslər belə subhanəllah

Tutdu güya o zaman sovti-cəli afaqi
Eylədi yeksər əhatə o səda nöh tağı Bu
həmən tiflidi ki, ərşə gəlib qundağı
Öz Hüseynimdi mənim etmir kitman Allah

Yeri var fovci məlayik desə ey Rəbbi-cəlil
Onda ki, oğlunu gətdi edə qurbani Xəlil
Yolladın bir qoç ona fidyə bərazəndə bədil
Eylədin Hacərə Sən lütfü fəravan Allah

Bu yaralı ki, baxır xeymələrə qərqi-mühən
Gör neçə Hacəri var xeyməsərada mələşən Nə
olar bir qoç da buna indi əvəz göndərəsən
Bu bəladan qutula xosrovi-xuban Allah Sahəti-qüdsünə
söz yoxdu ki, qurban kəsilər
Su verəllər çoxuna bəzisi ətşan kəsilər

Hansı qurbandı Minada başı daldan kəsilər
Bu Mina hansı Minadır, bu nə qurban Allah

Əmr edə var yeri xəllaqi-səmavatu-ərz
Hacərin oğlu hara, bu hara şənində qərəz
İki dünyanı verəm fidyə buna olmaz əvəz
Özünə müştəriyəm eylər elan Allah

Göstərəm ruhi übudiyyəti verdim sizə söz
Gərnə bundan qabaq ölmüşdü Hüseyn fəxri Rəsul
Ruhu bağlıydı çünki Əkbərə o aşiqi küll
O öləndə bu da ölmüşdü verib can Allah

Şərəfi, izzəti faiq gəlir hər bir şərəfə
Eyni qibləmdi Hüseyn dönsə əgər hər tərəfə Özü
Kəbəm, gözü Zəmzəm, çüxür yer Ərəfə
Aləmə etdi bunu Kəbeyi-canan Allah

Qətli-məsumidə Şimrin işinin əvvəlidi
Bilmir harda kəsəcək xəncəri də qüssəlidi
Sinəsi üstə Hüseynin oturub çəkməlidi
Hansı bir minbərə çıxmışdı o nadan, Allah

İmtahan mərhələsi hər ürəyi silkələyir
Yar özü səhnəyə nazirdi bəlanıələyir
O təkan verdikcə xəncərə, Zəhra mələyir
Səs verir Fatiməyə xəncəri bürran Allah

Az qalır iş qurtara aç oxu məqtəl sözünü

Ölənin, öldürənin tutmuşidi qan gözünü
Zeynəbi onda görüblər ki, yetirdi özünü
Yıxılır birdə durur izzəti-nisvan Allah

Şəh görüb əhlü-əyalın  gəlir, qəlb sıxılır
Dözmədi bəs deyəsən tiri kəmandan çıxılır
Sürünür qızlara sarı gedə bilmir yıxılır
Ayrı bir mənzərə var görməli meydan Allah

Güya məqtəli bir ləhzədə tufan bürüdü
Açmaram keşməkeşin üstünü hardan bürüdü
Bu qədər var ki, xanım Zeynəbi də qan bürüdü
Qarışıb bir-birinə orda iki qan Allah

Çox bacı qardaşa xatir özünü dərdə salıb
Kimdi bir saətin ərzində otuz il qocalıb
Zeynəbin orda büküldü beli dərdi çoxlıb
Tiri möhnət elədi qəlbini şan-şan Allah

Hali Qurana baxıb ağlayır İncil, Zəbur
Əlqərəz nizədə qanlı başı sərgərmi-hüzur Yummayıb
gözlərini xeymələrə sarı baxır
Xeymələrdə mələşir bir sürü ceyran Allah

Qəm yağır gördü xeymədə süzən ulduzlardan
Va Əliyya səsi ovc eləyir adamsızlardan
Gördü bir qız Nəcəfə sarı qaçır qızlardan
Əllərin başdan ucaldıb o pərişan Allah

İki yol qaldı ayaq altda Hüseyn, cani-cahan
Biri Yəsribdə yanan vəxtə əşgi-rəvan
Bir də atlar ayağı gül bədənin etdi xəzan
Nazənin peykər olub xakilə yeksan Allah

## İmam Hüseynin (ə) Allaha sevgisi

Sərşardır həmişə bəla ilə cami-eşq
La cürə nuş edər bu meyi teşnəkami-eşq

Eşq əhlinə zəmanədə xoş gün yazılmadı
Başdan-başa bəladı qüud və qiyami-eşq

Aşiq gərəkdi sahibi səbri cəmil ola
Əcri-cəzili ya ki, verə layənami-eşq

Aşiq düz olsa ayinə neynir özün görə
Dildari göstərər gözünə xişti-xami-eşq

Gör neyləyib hədisdə ki, mən eşqini
Padaşə bax "ənə diyətuhu"dur kəlami-eşq

Ol gün ki, səs yetişdi ələstə birəbbikum
Elan edibdi maliki-mülki-fəxami-eşq

Düzgün bəlayə sizlər ara kimdi müştəri Möhkəm
vura fəzayi-məhəbbətdə qami-eşq

Başlar düşüb aşağa hamı eylədi sükut
İlla Hüseyn ki, səslədi ey Zül-kərami eşq

Yığ bir-birə bəlaları bir yerdə sat mənə
Mən qaçmaram nə qədri ola rənci-müdami-eşq

Əmr elə qanilə elə Kəbə edim aləm
Gəlsin təvafə batini-Beytül-hərami-eşq

Çək imtəhanə qanımı tök, ax desəm əgər
Olsun Hüseynə ta be qiyamət hərami eşq

Alış-veriş qurtardı, satan verdi xeyrini
Cənnət yazıldı şiəyə gəldi səlami-eşq

Zərr aləmi götürdü bəla pərçəmin Hüseyn
Səs düşdü aləmə ki, Hüseyndir imami-eşq

Aldı o gün şəfaəti bir qanlı köynəyə
Şərt oldu Fatimə toxya leyk mami-eşq

Bax Kərbəlayə kimləri gör bəsləyib Hüseyn
İsaya naz edir hələ qarə qulami-eşq

Sən bir qulama bax ki, nəzərkərdədir özü
Şəhlər ona qulamidi bəh-bəh məqami-eşq

Ərz elədi üzüm qaradır neyləyim ağa Mən
də bir aşiqəm ki, varım iltizami-eşq

Naqabiləm özüm bilirəm sən kərimsən

Elə kərəm ucat başımı ta qiyami-eşq

Söz yox qulamuzam sənə göz tikmişəm şəha
Sındırma qəlbimi mənim ey xoşmərami-eşq

Əkbərdən öz qara qulunu seçmədi Hüseyn Qoydu
üzün qara üzünə şah, ənami-eşq

Bax ənbiyayə çoxları var xırda paydılar
Tacir Hüseyndi eşqidə namusü-nami-eşq Əkbər adilə
qurdu məhəbbət bəsatini
Əsğər adilə yığdı bəsatin hümami eşq

Aldı qucağə südəmər oğlun şəhi ənam
Ta göstərə sipahə o zülehtişami-eşq

Qoydu əlin qaş üstünə bir baxdı ləşgərə
Rədd elədi əbanı o niku-mərami-eşq

Bir ay göründü ləşgərə min aya dəyər
Səd heyf tutqunidi o bədrüt-təmami-eşq

Səsləndi siz gəlin aparın su verin buna
Ətşandı az qalır ölə bu teşnə kami-eşq

Səd oğlunun işarəsini aldı Hərmələ
Bir ox atıb o tiflə ələddul-xisami-eşq

Ox dəycəyin susuz bala bir güldü dəfətən

Heyran qalıb o gülməyə hər xassü-ami eşq

Dilsiz uşağı vurdu bələşdirdi qanına
Mən bilmirəm nə vəxt alnar intiqami-eşq

Çəkdi oxu basıbdı əlin yarəyə imam  Qan
durmadı saraldı gülü lalə fami-eşq

Fəvvarə verdi qanı qayıtdı öz üstünə
Forən tutubdu ovcuna miri-izami-eşq

Əvvəl o qanı niyyət edib səpdi göylərə
Xeyrin verib Rübabə o xeyrul-ənami-eşq Bir südəmər
uşaqda məgər qan nə qədər olar
Bənd olmadı axıb üzə əşk, mudami-eşq

Ləşgər müqabilində dəvam eləyənmədi
Üz döndərib xiyamə şəhi-badavami-eşq

Gördü Hüseyn bala ölür amma ölənmir
Birdən nida yetişdi ki, ey şadkami-eşq

Aç qundağın ki, qoymur uşaq əl-əyaq çala
Zəhmətdədir kəbutəri-xunin-dami-eşq

Sözdən söz aldı qiblə özü, döndü qibləyə
Qoydu yerə balanı o aliməqami-eşq

Yenə də qumatı açdı Hüseyn ahü-zarilə

Azad olub çalıb əl-əyaq tifli rami-eşq

Ayrıldı ruhu zəhmət ilən uçdu cənnətə
Yandırdı aləmi o məhi-ərşi-bami-eşq

Əlqissə eşq gülləri bir-bir dərildilər  Bir
teşnələb Hüseyndi, qalan bir mənami-eşq

Növbət yetişdi aşiqi kull bəzli-can edə
Pərvəndə bağlana oxuna vəssəlami-eşq

Atdan düşəndə topraqə sültani-məşriqeyn
Qodalə endi hər nə var idi tamami-eşq

Üçşöbə bir xədəng gəlib qəlbini söküb
Bəndin qırıb o peyki-məhəbbət pəyami-eşq Bir ox da
gəldi ləblərini tikdi bir-birə
Ağzı yumuldu açdı dilin ehtişami-eşq

Ərz eylədi bu mən, bu çuxur yer, o qızlarım
Əhdimdə mən varam nə qədər var davami-eşq

Baxma sənə şikayət edib şeyxül-ənbiya
Nifrin edərdi qövmi o peyki-ikrami-eşq

Min Əkbərim ölə yenə mən gəlmərəm dilə
Ta hifz ola qiyamətədək ehtirami-eşq

Eşqin qızışdırıb məni hey mən-mən eylirəm

Ya Momin, əl-Muhəymin, ya Əssəlamu eşq

Ya Zülmənn Özün bilirsən mən deməz Hüseyn
Mən də özünsən ey Həqqi əla məqami-eşq

Əkbər kim idi ad gətirən Sənsən Əkbərim
Ey əvvəlin əvvəl və ey ixtitami-eşq

Şer əhli Sadiqi sözü sözdən seçər özü
Qurtar, qurtarmayandı qəmi natəmami-eşq

## Qətligah

Qurtardı sözlərin ki, Hüseyn gizlənib nəfəs
Vardır yeri gələydi səmadən bu nöyi səs

Qəm çəkmə ya Hüseyn bu gülüstan mənimkidi
Güllər mənimdi lalə və reyhan mənimkidi

Eşq aləmində yoxdu bizim fərqimiz Hüseyn
Dillərdəki məhəbbətin hər an mənimkidi

Çox baxma xeyməyə mən özüm də Hüseynçiyəm
Əxyamidə o heyəti tiflan mənikidi

Sənsiz nə cənnət, nə hidayət, nə xeyri əməl
Xeyrül-əməl səninkidi ehsan mənimkidi

Sənsiz namaz-ruzəni dinarə almaram
Höccət mənimdi həşridə, bürhan mənimkidi

Öyrətməsən Rüqəyyəni sinəndə yatmaqa
Axşam gələr dübarə, o nalan mənimkidi

Peyğəmbər öldü Fatiməni qoymadım qala Ağlardı
daimən o pərişan mənimkidi

Səndən sonra Rüqəyyəni də yubatmaram
Bir az zaman xərabədə mehman mənimkidi

Şənin kimi gərəkdi uca minbərin ola
Təbliğ elə ki məktəbi Quran mənimkidi

Qoymulla yerdə söhbətə çıx nizədə danış
Alçaq uca nə fərqi, hər yan mənimkidi

Quranı başla nizədə Zeynəb darıxmasın
Yandırma qəlbini dili suzan mənimkidi

Baş fikrini başından elə gəl hüzurimə
Aşiq nədir başı sərü-saman mənimkidi
Zatım bir idi hüzn, büka və məlalidən
Yoxsa əzalıyam sənə peyman mənimkidi

Yax qanını cəmalına qoy ərğəvan ola
Rəngi pəridə görməsin üdvan, mənimkidi

## Qarət

Yetişdi əmri-qarət xeyməgahə ləşgər atlandı
Gülüstan paymal oldu qızıl güllər ayaqlandı

Necə həcmi müsibətdən qələm öz mətləbin almaz
Qoşun saysız, xiyəm mədud, bu nisbət qiyas olmaz
Qonağın öldürün, soyğunçular qırx min, çadır çox az
Hara doldu qoşun, əhli-işarə mətləbi qandı

Qoşun murü-mələxtək Zeynəbiyyə təllini aşdı
Tutub vəhşət uşaqları gəlib bir yerdə toplaşdı
Qaçan qaçdı əli başda qalan qızlar qucaqlaşdı Səmaya
va Əliyya ovc edib fəryad və əfğandı

Hərimi-nazidən Abbastək ta bir keşik getdi
Əduyə əmn olub Ali-Əlidən ev-eşik getdi
Səhər axşam Rüqəyyə tərpədən xırda beşik getdi
Rübabın əlləri başda bala vay səslənib yandı

Çıxıb seyrindən ulduzlar qoşun amalinə yetdi
Uzaqda gördülər Abbasi hər kəs bildiyin etdi
İraq Leyla gözündən Əkbərin əmmaməsi getdi
Dedi Zeynəb: ana gəl Kərbəlayə vəxti böhrandı

Ana ya Fatimə, zağü-zəqən gülşəndən əl çəkməz
Necə cənnətdə də dərdü-müsibət səndən əl çəkməz
Qapımız odlanan gündən ana od məndən əl çəkməz
O evimiz, bu xiyamim gəl özün bax gör nə talandı

Bu qarət möhnəti sahib zamanın qəlbini yandırdı
Nə yol vardır, nə can var qaçmaqa hər yer alovlandı
Qabaq düşmən, dalı atəş, vəsətdə xırda qızlardı
Açıldı qəmçilər beldən nəva əflakə qozandı

Təcəllayi vilayətdən xanım bir mənzərə qurdu
O doğranmış əlin qalxızdı ləşgər cabeca durdu
Özü Gülsümlə bahəm uşaqların qızılların aldı
Atıb dünya malın amma dünya sevənlər bir də tolandı

Əgər "mutu" desəm bir anidə vallah sizi qırram
Vəli dil vermişəm dildarimə səbr üstə mən durram
Ərusu vurmayın mən zaminəm dünyanı yandırram
Məni vursaz vurun, canim bəlaya vəqfi bir candı

Bəla da doysa Zeynəbdən, bəladən bu xanım doymaz
Yorulmuş cismidən qeyrət libasın soymayıb soymaz
Ərusi-Müctəbayə əl dəyə Zeynəb ölər qoymaz Belə
əmmə, belə bacı tapılmaz qeyri-imkandı

Deyər ravi nə gördüm mən bəladan dil dönüm orət
Yağır qeyrət vücudundan keşidə bir cism, orət
Girir bir xeyməyə tez-tez çıxır oddan həlim orət
Dedim kimdir Xudayə bu xanım hansı bir insandı

O san ki, asiman öz sinəsində gəzdirir mahi
Alıbdır sinəsi üstə nə gördüm Höccəti İlahi
Yaxından eylədim diqqət dedim Zeynəbdi vəllahi

Hələ məqtəldə ki, cəngü-cədəldən əlləri qandı
Əl açdı qarətə əda hərimi izzü-naz üstə
Namazı öldürüb üz qoydular rükni namaz üstə
Edərdi keşməkeş neçə nəfər bir canəmaz üstə
Hüseynin xeyməsi tarac olub zülmilə odlandı

Bu sözdə var yeri Sahib Zaman qan ağlasa hər an
İki xırda uşaq nəşi qalırdı xeymədə pünhan
Deyillər qorxudan ölmüşdülər olar söz ayrı ünvandı

Soruşdum əqlidən bir belə şair vardı İranda
Xüsusən Ərdəbil, Təbriz, Tehran və Zəncanda
Bular kimdir dedi sərmayəmizdir şerü-irfanda
Onlar üstadi məktəb, “Sadiqi” tifli-dəbistandı

## Həzrət Zeynəbin (s.ə) qətligahdan getməsi

Bu qədri eyləmə Ali-Əbayə sən cəfa zəncir
Bizi incitmə bir belə daxı eylə həya zəncir

Özün saldın cahanda hər zaman bir surətə gəldin
Gəhi mismar olub Zəhrayi-əthər sinəsin dəldin
Anamı qan götürdü Möhsin öldü sən də dincəldin
Əli qoynunda baxdı Mürtəza dildə yara zəncir

Gəhi şəmşir olub züllam əlində həqqi bilməzdin
Atam Heydər başın yardın o gün cövlan verib gəzdin

Gəhi at nəli oldun sən Hüseynin sinəsin əzdin
Qarışdı bir-birə ləhmü-izami cabeca zəncir

Bu gün etdin kömək əşrarə sən Tahanı ağlatdın
Əcəbdir Kərbəladə Zeynəbi Səd oğluna satdın Uşaqlar qol-qola bağlandı qanı əşgimə qatdın
Yaralı qəlbimə vurdun dübarə çox yara zəncir

Bu qədri zülmüdə tüğyan edib əndazədən çıxma
Mənim Səccadımın boynun fişarilə belə sıxma
Balam naxoşdu rəhm eylə daxı səbrim evin yıxma
Baxanda ağlayır qızlar bu əhvalə bəsa zəncir

Uşaqlar xəstədir sən qəmçi yorğunların incitmə
Dünənnən yatmayıblar Fatimə qızların incitmə
Rüqəyyəm nazpərvərdədir onun qolların incitmə
Mənə çox tapşırıb nazlı qızın miri-hüda zəncir

Olubsan dəstbənd noərusimə iftixarın var
O qız nisgilli bir qızdır qolun sıxma, nə karın var
Bu sən bu qollarım cübran elə hər nə fişarın var
Yenə səbr eylərəm yetsə nə qədri ibtila zəncir

Ağrıdır bu səfər incitmə Leylanı fişarından
Cavan oğlu ölübdür şərm elə Pərvərdigarından
Oğul dağı ona bəsdi utan öz kerdigarindan
Cidadə Əkbərin başından elə sən həya zəncir

Məhəbbət riştəsiydin sən odur xürsəndi eşqimsən

Adın qeydi əsarətdir özün pabəndi eşqimsən
Dolaşdın boynuma bildim ki, gərdənbəndi eşqimsən
Bizə fərq eyləməz zənciri ahən, ya təla zəncir

Sən ey zənciri-ahəndil bu nöyi kinədə durma Bu
qədri həlqə-həlqə səs verib Zəhranı yandırma
Qabaqda Kufə vardır Zeynəbi-məhzunu sındırma
Məni çoxları tanır orda varımdır aşina zəncir
Gələr bir gün qabağa həlqə-həlqə mən səni qırram
Açıb Səccad boynundan Yezidin boynuna vurram
Mənə Zeynəb deyəllər mən tilsmi-zülmü sındırram
Nə Musayəm ola lazım əsa o əjdəha zəncir

Gələndə Kərbəlayə məhmili-zərtarilən gəldin
Hüseyn, Əkbər və Qasim gül gülzarilən gəldim
Əbəlfəzlim yanımdaydı uzun qollarilən gəldim
Varım birdən yox oldu, aldı məndən Kərbəla zəncir

## Qətligahdan köç

Ey Zeynəbi ağlar qoyan
Qardaşım lay-lay, qardaşım lay-lay
Yollandı Şamə karivan
Qardaşım lay-lay, qardaşım lay-lay
Rahət yat, yaralı

Sən ki, yıxıldın topraqa gül üzün üstə
Sinəsi xəstə
Soydu xiyamın əşqiya dəstə be dəstə

Gəldi peyvəstə
Qızlar qaçıb dildə nəva, zarü-dilxəstə
Qəlbi şikəstə
Çöllərdə başlandı fəğan
Qardaşım lay-lay, qardaşım lay-lay

Aşiq gərəkdir tən verə səbrü-alamə
Rənci əyyamə
Sən imtahan eşqini verdin itmamə
Xətm olub namə
Zeynəb də qolbağlı gedir Kufə, Şamə
Məclisi amə
Sən olma məndən nagəran
Qardaşım lay-lay, qardaşım lay-lay

Qoymur yanında Şimri-dun qızların qalsın
Qızların qalsın
Bari yaxından bir zaman ətrini alsın
Ətrini alsın
Abbasə əmr eylə bizi ta yola salsın
Ta yola salsın
Vermir əman bu sariban
Qardaşım lay-lay, qardaşım lay-lay

Hicrində yanmış sinəmi dağlaram qardaş
Dağlaram qardaş
Rüxsarimə gözyaşimi bağlaram qardaş
Bağlaram qardaş
Ömrüm boyu ox yarənə ağlaram qardaş

Ağlaram qardaş
Dəydi ürəkdən nagəhan
Qardaşım lay-lay, qardaşım lay-lay

Hər nə bəla gəlsə mənə səbridə durram Hər
səhər axşam
Kaxi Yezidi nütqilə bir-birə vurram
Fikrinə qallam
Zəhrayə and olsun Hüseyn, köynəyin allam
Qəbrinə sallam
Mən qoymaram batsın bu qan
Qardaşım lay-lay, qardaşım lay-lay

Səndən sora dünyadə çox qalmaram ölləm
Mən özüm billəm
Nazlı Rüqəyyə möhnətin Şamidə görrəm Əşgini silləm
Gər ölməsəm qalsam Hüseyn qırxına gəlləm
Gəlməsəm ölləm
Qəbrində ollam mehman
Qardaşım lay-lay, qardaşım lay-lay

Getdim Hüseyn gözyaşı qan, mən xudahafiz
Mən xudahafiz
Çəkdi qətari sariban mən xudahafiz Mən
xudahafiz
Qızlardan olma nagəran mən xudahafiz
Mən xudahafiz
Qardaşım lay-lay, qardaşım lay-lay

## Eşq hacısı

Bu çuxur yer Ərəfatındi özün haciyi-eşq
Zeynəbin yuxulamayan gözləri zəmzəm

Aləmə, adəmə ezazü-şərəf səndəndi  Sən
ilən topraq olub həzrəti Adəm yaralı

Kimdi Səd oğlu əsir eyləyə Zeynəb bacını
Sən əsir eyləmisən qoy bilə aləm yaralı

Atəşin nitqilə Şamı gedirəm fəth eləyəm
Baxma zahirdə sınıb xətti müqəddəm yaralı

Yarmısız siz başızı mən hələ ləbbeykdəydim
Dildə ləbbeyk Hüseyn sinəsi por-qəm yaralı

Kufədə onda ki, Quran səsini allam Hüseyn
Çubeyi-məhmilə vurram başı möhkəm yaralı Kərbəla qoy
sənin olsun yatasan Əkbərilə
Gedirəm məndə vuram Şamidə pərçəm yaralı

Yığmısan dörənə nazilə ay-ulduzlarını
Həmrahım qarə ləçəklərdi münəzzəm yaralı

Bu Rüqəyyəndi salıb sinənin üstə özünü
O da Leyladı çəkir ahi dəmadəm yaralı

Bu Səkinəndi tənabə çəkilib Şamə gedir

Tökülür göz yaşı rüxsarinə nəm-nəm yaralı

Gül boğazında Hüseynim elə yerdən öpərəm
Nə atam, nə anam öpdü, nə də Xatəm yaralı

Xeymələrdən ki, dünən əzm elədin ayrılasan
Can yığışdı sinəmə mən dedim ölləm yaralı

Əl qoyub sinəmə etdin məni yol üstə dua
Tazə can gəldi mənim canımə kəm-kəm yaralı

Kim kəsibdi o şəfabəxş əlini məqtəldə
Mən dünəndən bətərəm bəs hanı mərhəm yaralı

Zeynəbin şənü-vüqarı sən idin əvvəldən
Nə yatıbsan quru yerdə bu nə aləm yaralı

Mən görəndə kürəyin üstə yıxılmışdın Hüseyn
Necə düşdün üzün üstə şəhi-əzəm yaralı

Baxıram qəlbdəki ox yarənə göynür ürəyim
Ürəyim yarənə qurban ola hərdəm yaralı

Kaş öləydi bu çuxur yerdə bacın Zeynəb də
Dəfn edeydi o əşayir bizi bahəm yaralı

Baxma çarəm kəsilibdi gözü yaşlı gedirəm
Doymadım səndən Hüseyn ey qəmi müdğəm yaralı

## Kufə müqəddiməsi və həzrət Zeynəbin (s.ə) sözləri

İki aləm ki, Hüseyn oldu bizim sərvərimiz
Oldu şahani-cahan bu qapıda çakirimiz

Olmuşuq hər nə qədər hәlqə bequşi-dəri-eşq
Olacaq cin-mələk hәlqə bequşi-dərimiz

Gözləyir zahid ölə, kovsəri cənnətdə tapa
Gözümüzdən gecə-gündüz tökülür kovsərimiz

Qəlbimiz möhr olub əvvəldə Hüseynin adına
Dinimiz eşqi Hüseyndür, özü taci sərimiz

Gər Hüseyn eşqi də cürm olsa əuzu billah
Duzəxində bizi yandırsa Həqqi davərimiz

Alışıb peykərimiz ləhzədə min yol kül ola
Ya Hüseyn səsləyəcəkdir yenə xakistərimiz

Yeri var naz eləyək Yusifi-gülpirhənə
Misridə getdi qulam oldu o peyğəmbərimiz

Onu dərbari əcanib, bizi mövla bəyənib
Fərqə bax gör nə qədər başdı bizim müştərimiz

Bibəha məfrəği əlhəq zəri nab etdi Hüseyn

Şükr ola xibrədi bazaridəki zərgərimiz

Nizədə gəzdi başı əymədi baş namərdə
İftixari-bəşəriyyətdi bizim rəhbərimiz

Qandi elan elədi Hinddə bu məsələni
Ki, Hüseyndədi bu nehzətdə olan cövhərimiz

Ələvidir ağamız Fatiməyə nisbəti var
Gül dodaqından öpübdür nəbiyyi-əthərimiz

Məktəbi Ali-Əba xali deyil Fatimədən
Ayrı bir Fatimədir Zeynəbi qəm pərvərimiz

Zeynəbin başınə Məryəm gecə-gündüz dolanar
Neyləyib Kufədə bax gör o mələk mənzərimiz

Ravi nəql eləyir, mən aldım Əlinin səsini
Əcəba fikr elədim Kufədədir Heydərimiz

Qozadım başimi gördüm vəli Zeynəb danışır
Naqədə əlləri bağlıydı vəfa pərvərimiz

Həmd edib həzrəti Məbudə fəsahətlə əzəl
Dedi ey qövmi-sitəmkar, cəfa qostərimiz

Belə fikr eyləməyin öldü Hüseyn yatdı aləm
Duşi-Səccad ilə Zeynəbdədi pərçəmlərimiz Yatmayıb din
aləmi həşrə kimi yatmayacaq

Əlbəəl gəzdirəcək Baqirimiz, Cəfərimiz

Yetəcəkdir bu ələm bir günü Məhdi balama
Alacaq bu tökülən qanı o gül peykərimiz

Siz mənə gülmək ilən Ali-Əli xar olmaz
Çərxi-çarəmdə Məsihayə dəyər Qənbərimiz

Biz viladətdə vilayətlə zühur eyləmişik
Həmd ola feyzi-şəhadətdi bizim axərimiz

Heç zadiz da yoxdu sizin ta ona fəxr eyləyəsiz İftixar
ilə dolubdur başa-baş dəftərimiz

Mən Əlinin qızıyam fəxr edirəm qeyrətinə
Var yadızda hələ də Xəndəyimiz, Xeybərimiz

Başımın üstə uca nizələrə eşq olsun
Aftab ilə çıxıb seyrə məhü-əxtərimiz

Gər Hüseyn ölmüşidi bəs necə Quran oxudu Siz
ölübsüz xəbəriz yoxdu deyib Davərimiz

And ola eşqdəki möcüzə, aşiq ölməz
Biz varıq həşrə kimi ta qurula məhşərimiz

Minbər, nizə, ya naqə bizə heç fərq eləməz
Həqqi elan edəcək ləblərimiz, həncərimiz

Qozayın başızı diqqətlə baxın nizələrə
Elə bil aydı bizim Qasimimiz, Əkbərimiz Qonağın
hörməti vacibdi bir az şərm eləyin
Naqədə tazə gəlin var axır əşki-tərimiz

Vermədiz yer bari tohin bu qədər eyləməyin
Görüsüz zahiri-surətdə sınıb ləşgərimiz

Olmaya qardaşım Abbası uzaqda görüsüz
Daş atırsız bizə ey ümməti-xeyrəsərimiz

Atmayın daş toxunar nazlı Rüqəyyə başına
Əkbərə sevgilidir bu anama bənzərimiz

Çırpınır qəlbi qucağımda əmanətdi bu qız
Aparam Şamə gərək, əmr eləyib sərvərimiz

Yaralı başı o dəm nizədə dindirdi xanım
Dedi olmazdı Hüseyn bu cəryan bavərimiz

Sən hara, kül hara ey gül, kül olaydı başıma
Nəyə lazımdı bu qanə batan tellərimiz

Oxu Quranı uca nizədə aləm eşidə
Bizlərə alçaq-uca fərq eləməz minbərimiz

Demərəm düşməninə leyk səsim çıxmır Hüseyn
O qədər ağlamışıq yolda batıb səslərimiz

Mən Hüseyn səbr edərəm nazlı Rüqəyyə darıxıb
Onu dindir nigərandır balaca doxtərimiz

Qədəğən sındı Hüseyn şami-qəriban gecəsi
Su gəlib xeyməyə yandı dilmiz dilbərimiz Yalvarırdım
üsərayə hələ içmirdi çoxu
Biri də qəmli Rübab idi o qəm mehvərimiz

Gözlərim ağla hanı "Yəhyəvi" tacüş-şüəra
Hanı "Sədiyi-zəman" bir qəvi cövhərimiz

Nə oldu Müztər hanı, Zehni hanı, Safi və Şəhab
Asəfa harda yatıb, Münzəvimiz, Ənvərimiz

## Kufə əhvalatına müqəddimə və əhlibeytin (ə) müsibətlərinə işarə

Məni vadar eləyib yazmaqa öz idrakım Pərdə
çəkmir sözə əslən qələmi-çalakım
Həqqi elan edirəm zərrəcə yoxdur bakım
Niyyətim əmri be mərufidi, nəhy əz münkər
Bir fəqət Allaha xatirdi nə yazsam yeksər

Əcəba, bəzi əməl bais olub göz yaşıma
Sui-rəftarimiz fikri düşübdür başıma Bir
təzəkkür də varımdır oxuyan yoldaşıma
Növhəxansan hədəfin aləmə isbat eylə
Şəni-Alullahi hər yerdə müraat eylə

Niyyəti-xidmət ilə başına xəlqi yığısan
Evdə məsciddə hüseyniyyədə əl çaldırısan
Hətki-hörmət eləyib hörmətini sındırısan
O məkanlar ki, müqəddəsdi qədasət varıdı Hörmətin sındırısan leyk nə illəti varıdı Gər Hüseyn nokərisən baxma o şeyx-şabə
Zişt əmal ilə içdirmə ona xunabə
Nökərin şəni gərəkdir yaraşa ərbabə
Hansı məqtəldədi bu ki, sənə mədrək qaldı
Deyirik hansı təvəllüddə Hüseyn əl çaldı

Rüşdü-fərhəngini ki, başlamısız sız ağalar Cəşni-milad adına dəhridə çox işlər olar
Az zamandan sonra heyətdə çalıb-oynallar
Bəzi işlər bu cəmaətdə zühur eyləyəcək
Yəfrəhun adına çox fisqü-fücur eyləyəcək

Nəfs tovlar bəşəri olma belə bazəndə
Qorx o gündən səni təqbih eləsin ayəndə
Növhəxansan gözəlim, ya deyirik xanəndə
Cəvvi-heyətləri az cəhlilə məsmum eylə
Oxumaqdan qabaq öz xəttini məlum eylə

Xoş sədasan bunu bil eyni kəramətdi o səs
Lütfüdür şamil olub halınə izzətdi o səs
Ayıq ol etmə xəyanət ki, əmanətdi o səs Əyyühənnas edirəm mən sizə elani-xətər
Rüşdü-fərhəngi gələr nohəni tətil eylər

İqtibas ilə oxursan belə rəqs ahəngi
Şişeyi-qəlbi-Rəsulə vurusan hey səngi
Əhli mənadə bu işlər yaradıb diltəngi
Xərməni-şəri o ahəng ilə odlandırısan
Xəbərin yoxdu ki, Zəhra ürəyin yandırısan

Müstəme sən də müqəssirsən o babətdə əyan
Göstərirsən elə bir səhnədə kazib həyəcan
O günah eylir, sən də ona hey əl çalısan Etiraz etsən əgər
rişteyi-cəhlin toxumaz
Ona əhsən deməsən, elə ahəng oxumaz

Nohə ki, oldu təranə məsəli şair yazıb
Növhiyə fatihə ki, qəbrini bil-mərrə qazıb
Şüərani ki, ölüb harda belə nohə yazıb Ənvər,
Münzəvi, Yəhyəvi, Sədiyi-zaman
Tuli-ömründə yazıbdır belə ahəng haçan?

Bakılı, türkiyəli cürmünü təkmil eləyir
Tazə ahəngi-təranə yaza təcil eləyir Həman
ahəngi bu da nohəyə təbdil eləyir
Məşq edir öz-özünə cürmünə sərlövhə yazır
Ağlayan şiələrə oynamağı nohə yazır

Bir həya eylə bari zülfün açan qızlardan
Qəlbinə tiri-müsibati saçan qızlardan
At döşündə Nəcəfə sarı qaçan qızlardan

Sən aya şair və zakir uzaq ol bəlvadan Səy
elə çıxmıyasan ləhzə rəhi-təqvadən

Əsəfa noldu o sabiqdəki keyfiyyətlər
Qoymayın daxil ola dinə qələt bidətlər
Səy edin hifz ola əvvəldən olan sünnətlər
Necə mümkündür olaq nokər, ədəb rəsmin ataq
Hamımız səy eləyək bəlkə Hüseynə yaraşaq

Gör bərazəndədi bir kəs belə iğfal olsun
Xadimi-Ali-Əba batilə dəllal olsun
Zeynəbin nohələri heyfidi paymal olsun
Gör necə qardaşına Kufədə dil dağlardı
Vay Hüseyn vay çağırıb nohə deyib ağlardı Kufədə səbt
edirəm dəftərə qəmli xəbəri
Bu sözü nəql edənin vardı bəsirət nəzəri
Əhli-fəzlidi özü dildə vilayət şərəri
Danışıb çəkdi sözü Kufəyə çatdı hədəfə
Həzrəti Əbdül-Əzimdə dedi ləyli-Ərəfə

Güya Kufədə bundan qabaq əyyami-səbəq
Neçə il yağmadı kəsdi nəzərin həzrəti Həqq
Feyzi-baran kəsilib sürətilə döndü vərəq
O zaman idi zəif əhli-yəqin olmuş idi
Fatihi-Xeybər Əli xanəneşin olmuş idi

Asiman bəxl elədi nazil olub xəlqə bəla
Vəhşətə düşdilər dara, nədar və züəfa
Vermədi fayda zöhd, vərə, zikr, dua

Bəli sünnətdi bəla gəlsə ürək odlanacaq
Nik-bəd, alim-cahil hamı bahəm yanacaq

Xoşksali onlara oldu bəsa dərdi-giran
Xətəri-qəhti edib mərdum ciddən
nigəran Kufədə gətdi qabağa həyəcan bu
cəryan
Məclisi-məşvərəti qurdula bir gün züəma
Hərə bir söz dedi illa biri dinmir əbəda

Çöhrə nurani müvəqqər rəculi-kamil idi Şeyxi-varəstə
və xoşməslək idi, aqil idi
Cüzi-əshabi-Peyəmbər, özü röşən dil idi Axərul-əmr
sukutundan edib xəlq gilə
Gətdilər mərdi-cəhandidəni məclisdə dilə

Özü bir pir idi çox təcrübələr görmüşidi
Ruzgarın dedi gahən bu da bir gərdişidi
Həll edə müşgülüzü bircə Əlinin işidi
Gər aça müşgülü bir ayəti münzəl açacaq
Xeybərin müşgülünü həll eləyən əl açacaq

Mərhəbə tapdı Əli bərtəri mən də var idim
Şad edib həzrət Peyğəmbəri mən də var idim
Qozayan vəxtə dəri-Xeybəri mən də var idim
Hacətiz vardı gedin fori rəva etsin Əli
Yalvarın ta sizi sidqilə dua etsin Əli

Siz təvəkkül eləyin indi həqqi-zülmənə

Şəhri-Yəsirbdə gedin fori dəri-pənctənə
Heydəri and verin Fatimə ilə Həsənə
Var yəqinim daxi məyus eləyib göndərməz
Qapısından sizi mövla əli boş qaytarmaz

Yəsribə gəldi qərəz neçə nəfər pir-cəvan
Babi-hacati döyüblər ədəb ilə o zaman
Həsən açdı qapını sərvərü-salari-cinan
Səslərin aldı Əli verdi o dəm izni-duxul
Mənzilə varid olub kufəlilər zarü-məlul

Mahəsəl oldu pəzirayi, gəlib abü-təam
Yedilər, içdilər, dincəldilər yekbarə təmam
Qonağın hörməti vacibdi şəriətdə müdam
Söz açıldı səfərin illəti şərh oldu əyan
Dedilər mətləbi mövlayə o dəm giryəkonan

Dedi mövla o zaman nuri-du-eyni çağırın
Həsənə söylədi mahi-səqəleyni çağırın
Əmr qıldı ki, qaçın oğlum Hüseyni çağırın
Kərbəla şahı gəlib məhzərə qəlb dağladılar
Bir xüsusi danışıblar üçü də ağladılar
Dedi oğlum bilisən Küfəyə var bir səfərin
Düşəcək Zeynəb ilən bir gün o şəhrə güzərin
İstirəm kufəlilər hörmət edə var xəbərin
Gəl özün eylə dua ta ki, ola rəddi-bəla
Gərdənində onların bəlkə sənin həqqin ola

İstirəm qızlarını naqədə ağlatmayalar

Zeynəbin xuni-dili göz yaşına qatmayalar
Qonaq olsan onlara başına daş atmayalar
Zülmü-bihəddi o gün bari rəva bilməyələr
Əl çalıb Zeynəbimin göz yaşına gülməyələr

Dəstəmaz aldı Hüseyn tapdı o dəm hali-dua
Sariban kəsdiyi əllər ucalıb suyi-səma
Başladı həzrəti Məbudə özü həmdü-səna
Demirəm bağü-gülü-gülşənə xatir nəzər et
Bar İlaha! Mən Hüseynəm, mənə xatir nəzər et

Əlqərəz şiri-Xuda rəhmətin itmam elədi
Onları evdə qonaq saxladı ikram elədi
Müjdeyi-rəhmət ilə Küfəyə ezam elədi Az
zaman keçdi verib nəxli-vilayət səmərin
Gördülər Kufənin üstündə duanın əsərin

O dua ki, Hüseyn etmiş idi oldu qəbul
Əbri-porbar tutub Kufəni mat oldu üqul
Yağdı rəhmət yağışı əsli məram oldu hüsul
Bərəkət şamil olub topraqı çün zər gəldi
Keştü-məhsulları neçə bərabər gəldi

O zaman bir cələsə qoydu dübarə süfəra
Şərhü-bəst eylədilər mətləb olub xəlqə əda
Nəql ediblər ki, Hüseyn ibni Əli etdi dua
Oldu təsvib hamı çatdıla bu fərcamə Yazılıb
Yəsribə əz babi-təşəkkür namə

Yazdılar Heydərə daim ürəyin şad olsun
Bizi ehya elədin sən evin abad olsun
Ağalıq etdi Hüseyn, qıldı dua yad olsun
Belə fikr eyləmə biz səddi-vəfanı yıxarıq
O məhəbbətlərizin bir gün əvəzin çıxarıq

Əhli-Kufə sənə mədyunidi himmət edərik
Xidəmət ilə sizə cübrani-məhəbbət edərik
Səri-fürsətdə sizi Kufəyə dəvət edərik
Ta nəfəs vardı dayannıq sözümüz üstündə
Saxlarıq Ali-Əlini gözümüz üstündə

Ay keçib il dolanıb qəlbləri qəm dəldi
Kufəyə Ali-Əli daxil olub, məqtəldi
Nizə başında Hüseyn, naqədə Zeynəb gəldi
Yeddi qardaşı ölüb qəlbidə çox möhnəti var
Daş atıllar üsərayə qəminin şiddəti var

Nizədə düşdü gözü birdən Hüseynin başına
Verdi rüxsət o zaman qanə dönən göz yaşına
Bir baxıb mərdümi-şəhrə, bir Hüseyn qardaşına
Dedi qardaş bu mühən göz yaşımı qanə qatır
Sən dua eylədiyin kufəlilərdir, daş atır

Bacının qəlbinə bu mənzərələr od salır
Yanıram baxdıqica taqətü-aram alır
O təşəkkür eləyənlərdi bizə əl çalır
Bamidən kül tökülür başımıza odlanıram

Baxıram qanə batan başına qəlbdən yanıram Belə fikr
etmə Hüseyn vaqifi-mətləb deyiləm
Görürəm başda yaran vardı müəzzəb deyiləm
Bu başı salim aparsam başa Zeynəb deyiləm
Başını yardı əcuzə, mən özüm billəm Hüseyn
Yarmasam başimi məhmildə bu gün ölləm Hüseyn

Ələvi qanı qızışdı xanımın döndü halı
Çubeyi-məhmilə bir baxdı, bir az getdi dalı
Ya Hüseyn! səslədi çaldı başını dil yaralı
Qüssəli qəlbini bir anidə tufan götürdü
Zeynəbi, məhmili üryan dəvəni qan götürdü

## Gəlin Fatimənin (s.ə) Qasimə (ə) xitabı

Əmoğlu göz götürmə bu pərişan ruzgarından
Amandır kəsmə lütfün noərusi-dilfiqarından

Nə qədər vursa da səbr elərəm vursun yaman ovçu
Uçurdanmaz məni min taziyanə şaxsarından

Uzaq gəz bəd nəzərdən gərçi zülfün pərdədarındır
Görərsən bac alır birdən o zalım pərdədarından

Səba da düz demir mənilən əmoğlu bu keşakeşdən
Rəqibanə gəzir kuyində lütfü-bişümarından

Bilir ki, var gözüm piçü-xəmi-zülfi-çəlipadə
Götürmür əl azan vəxti zülfü-tabdarından

Kəsibdir abi-həyat çeşməsin hindu kimi xalın
Alır künci-ləbində feyzi-ləli abdarından

Əsirəm, ovunam, pərbəstəyəm, dilxəstiyəm, rəhm et
Nə tez tutmaq həman doydun bu dilxəstə şikarından

Uzaq yol, ac-susuz, birəhm düşmən, naqə bəd rəftar
Təmamən səhlidir eşqində lütfü-kirdigarından

Gedəndə rəzmigahə heç dalınca baxmadın getdin
Məni yandırdı bu nisgil niqahi-əşgbarından

Bizə bir əqd oxundu xeymədə bir parça dərd oldu
Babam da ağladı əqd üstə sirri istitarından

Mənim iqbalıma seyr elə bir gör nə qarə bəxtəm
Fələk bir baxmağı çox gördü rəsmi-rüzgarından

Gözləyirdim əqəllən ayrılanda bir dalı baxsın
Göz altı bir xudahafiz edək çeşmi-xümarından

Su olmadı dalınca xeymələrdə göz yaşın səpdim
Gözüm yollarda qaldı səbr qıldım istibarından

Bir az keçdi xəbər gəldi, gəlir Qasim həna əldə
Nə gəlmək, görməsin heç müntəzir göz intizarından

Babam gətdi səni əxyamə qoydu bir uca yerə

Dedi damadıdı şənin bilindi öz vüqarından

Eşitdim qətligahda kakülün əllərdə qalmışdı
Kül olsun başıma cismi-sərasər zəxmidarından

Xanımlar aşkara ağlaşırdı, leyk mən gizlin
O gündəndir gəlugir olmuşam suzi-şərarından Utandım
adını mən tutmadım nəşin gələn vəxtə
Sənə Əkbər adilə oxşadım rəmzü-işarəndən

## Şam yolu və Fatimənin (s.ə) həzrət Qasimə (s) xitabı

Vurmusan qarə telindən boynuma zəncir əmoğlu
Gözlərində çox gözüm var qıl mənə tədbir əmoğlu

Sən kimi aləmdə hərgiz bir kəmandar ovçu olmaz Hansı
səyyadın daliyca yol gedər nəxcir əmoğlu

Mən dedim nəşin gələndə çıxmadım pişvazə küsdün
Qaşların çəkmiş o illət üstümə şəmşir əmoğlu

Pərtovi-hüsnü-rüxunda qaşların qövsi-qəzəhdir
Zülfün amma nizədə niluфərə bənzir əmoğlu

Hər yel əsdirdikcə zülfün bir qəmim eylir təcəlla
Göz yaşım qoymur və lakin şərh edəm bir-bir əmoğlu

Ver icazə hamısın bir kəlmədə edim xülasə
Nə qız oldum, nə gəlin, yox hacəti-təfsir əmoğlu

Mayiləm ovci-bəqayə pər vuram əfsus neylim
Tayiri-ruhim olubdur zülfünə dərgir əmoğlu

Eşq zəncirində bir güc var onu heçkim qıranmaz
Aşiqi bağlar çəkər hər yana bu zəncir əmoğlu

Axşamın dəyəcək nəsimi ney kimi ruhum sızıldar
Aşiqə xoşdur həmişə naleyi-şəbgir əmoğlu Məhrəmi-
eşqim səfadən mərvə üstə hər veləm var
Naxuni-həsrət sinəmdə eylərəm təqsir əmoğlu

Mən qulağım yarəsindən etmərəm hərgiz gilayə
Xoşdu aşiq yarə xatir olmasın dilgir əmoğlu

Az qalır əşgim məni rüsva edə əğyar içində
Hey edir əsrarimi rüxasarimə təhrir əmoğlu

İstirəm öz dərdimi pünhan edəm qoymur sereşgim Tök
cəmalə qarə zülfün qıl mənə tədbir əmoğlu

Hər qədəmdə ağlaram mən halimə öz naqəm ağlar
Var qəribin naləsində ayrı bir təsir əmoğlu

Sən mənim göz yaşimə baxma cida üstə pozulma
Söz mənim bəxtimdədir, yox səndə heç təqsir əmoğlu

## Həzrət Rüqəyyənin (s.ə) naqədən yıxılması

**(Sinəzəni)**

Düşdüm gecənin vəxti əcəb müşgülə Allah
Rəhm eylə mənə gözdən itib qafilə Allah

Saldı məni gözdən necə bir silsilə ya Rəbb
Çox yalvarıram dadıma Əkbər gələ ya Rəbb
Bəs harda qalıb gəlmir o qarə gələ ya Rəbb
Saldı bu fələk ayrılığı yüz ilə Allah

Yusif kimi xoşdur məni qəmlər aparırdı
Bir çahə düşərdim qəmi digər apardı
Ordan çıxarardı məni Əkbər apardı
Şamatə çatardı yorulan qafilə Allah

Hicran daşını kaş bu səhradə atardım
Yol yoldaşımın birdə qucağında yatardım Ömrüm
də qutarsaydi gedib Şamə çatardım
Çün söz verib Şamə babam da gələ Allah

Xoşdur ki, qəmü-həsrəti-canandan ölərdim
Şamə yetişib möhnəti-virandan ölərdim
Ey kaş görərdim babamı ondan ölərdim
Yainki vurardı məni də Hərmələ Allah

Ay çıxdı gecə eyləyə səhrayə təmaşa

Çöldə bir uşaq gördü qaçır yekkə və tənha
Başında qara məcəri var hüsnü dilara
Kimdir bu bala çöldə düşüb müşkülə Allah

Qəm haləsi göydə ayın ətrafına gəldi
Baxdı o qıza gördü özündən də gözəldi
Zülfü bələşib torpağa bimislü-məsəldi
Xar üstə qaçır qibliyə sarı çölə Allah

Eyb etmə desəm müxtəsər ay endi aşağa
Yol üstə Allaha görə xırda uşağa
Gördü balaca qızdı qaçır hey sola-sağa
Nagəh yetişib Zəcr, o xunin dilə Allah

Ətrafə bir az qaçdı o qız qəlbi şikəstə
Düşdü nəfəsi təngə oturdu yerə xəstə
Zəcri o zaman qeyzilə gördü başı üstə Qəmçi sağ əlində
özü bihövsələ Allah

Fori, o bala vəhşətilən durdu yerindən
Qoydu əlini başinə, salam eylədi birdən
Vurma məni “ya şeyx” dedi başladı şivən
Ravi deyir az qaldı o çöldə ölə, Allah

Mən Zəcrə dedim qeyzilə çox kinədə durma
Gəl mehrü-vəfa riştəsini bu gecə qırma
Var xırda qızın Allaha bax bu qızı vurma
Bax surətinə bənzər solmuş gülə Allah

Səbr eylə dedi bari çatım qızlara öldür
Babamı görüm qəmçiyə ondan dola öldür
Əmməm nigərandır məni görsün sonra öldür
Çöldə məni dəfn eylədi şayəd hələ Allah

## Şamın xərabəsində Rüqəyyənin (ə) atası ilə dərdləşməsi

Gərçi təşrif mülukanə məhəbbətdir baba
Namünasibdir yerim əsbabi-xəcalətdir baba

Eşq bir otdur alışmaz hər dili-biganədə
Şəm yandı, şölə görsəndi pəri-pərvanədə
Qanlı başə bir təvəssül eylədi viranədə
Söylədi al canimi ömrüm kifayətdir baba

Can alıb, can verməyin gərçi özüm ustadiyəm
Evmizi tərk eləyəndən canilə dəvadiyəm
Əkbərin nəşi gələndən ölməyə amadiyəm
Al qutar bu can deyil, vallahi zəhmətdir baba

Bir günü viraniyə gəldi Yezidin doxtəri
Ali bir camə geyinmişdi, başında məcəri
Fəxr ilə çox söz danışdı göstərib simü-zəri
Fikri qıldı simü-zər əsbabi-izzətdir baba

Bax qolumda, gərdənimdə söylədi zibü-zərə

Qardaşın çəkdi gözümə, baxdı bir dövrü-bərə Mən
dedim bir Əkbərim var, vermərəm aləmlərə
Şibhi-Taha məzhəri xətmü-risalətdir baba

Neyleyim tiri-şəmatət qəlbi bica dəlmədi
Səqfsiz viranədə bir an qızın dincəlmədi
Ağladım yazdım adın toprağə Əkbər gəlmədi
Yandıran axşam məni dərdi-şəmatətdir baba

Nasipasəm mən baba qədri-vüsalın bilməsəm
Kor olum gər zülfüm ilə məh cəmalın silməsəm
Bir yol aç qanlı gözün eşqim yalandı ölməsəm
Sən bilirsən Ali-Haşim kani qeyrətdir baba

Aç gözün amma baba bu qəlbi-zari dağlama
Məndən ötrü sil əşkin gül üzarə bağlama
Baxma sili rəddinə nili üzümdə ağlama
Qismətim Zəhra anamtək nili-surətdir baba

Şami-tari ömrümü döndərdi vəslin gündüzə
Qoymaram hicran əli bu rişteyi-vəsli üzə
Eşqimin muzdu bu olsun qoy mən ilə üz-üzə
Mən öpüm, sən söhbət eylə, dəm qənimətdir baba

Əmr edib Alullahə əvvəldə çün Allahi-eşq
Ta ola pirü-cəvan məsti fəna fillahi eşq
Mən də ölləm qəbrim olsun kuyi-danişqahi eşq
Çün ülul-əlbabə fikrim dərsi-ibrətdir baba

Mən deyərdim gülşəni-Zəhradə bir ziba güləm
Nazdanə bəxtur qız, sevimli, şirin diləm Nazımı
indi çəkən yox bir çəmənsiz bülbüləm
Ruzigarə uff ola çox bimürüvvətdir baba

Cireyi-cəngi-əsirə rəsmidir təmin ola
Olmadı şamil bizə bağlandı qızlar qol-qola
Kərbəladən Şamədək biz ac-susuz düşdük yola
Maidə nazil olub gahən həqiqətdir baba

Sən həmişə sinən üstündə yatırdardın məni
Gör necə dövran dönübdür ey məhəbbət gülşəni
Almışam indi qucağə mən bu hal ilə səni
Kaş öləydim görmiyəydim bu nə halətdir baba

Bax mənə ta kokəbi-bəxtim vura susu gecə
Həm açıb, həm pər-pər olsun bu gülü xoşbu gecə
Qaldı Zəhratək az ömrümdən fəqət bir bu gecə
Aç gözün ətrafə bax gör nə qiyamətdir baba

Cilvəgərdir surətdində ayeyi “Allahu nur”
Kül alanmaz gün qabağın nur edir səndən zühur
Hüsnünə lətmə vuranmaz min elə künci-tənur
Gün sənin hüsni-rüxündan xırda ayətdir baba

Ram edər hər bir ata tiflin ucalsa şivəni
Bus edib nazın çəkər ta zayil eylər qüssəni
Sən baba yollarda da dindirmədin hətta məni
Al xəbər nisgillərimdən indi fürsətdir baba

# Şamın xərabəsində Rüqəyyənin (s.ə) atasına xitabı

**(Sinəzəni)**

Ləblərin görrəm yaradır ey şəhi-aləm yaralı
Yarənə qoy göz yaşımdan eyləyim mərhəm yaralı

Qəlbimin başın xədəng dərdilə hicrində yardın
Gözlərim yollarda qaldı səbrimi dildən apardın
Sən özün vermişdin adət hər gecə mənlən yatardın
Adətim çıxmır başımdan təng olub sinəm yaralı

Bir məzar içrə sənilə agəhəm Əkbər yatıbdır
Sinən olmuş gəhvarə nogülü pər-pər yatıbdır
Mən yatardım sınən üstə fərqi yox Əsğər yatıbdır
Neyləyim qismət beləymiş siz yatın bahəm yaralı

Qəlbimdə bir vəhşətim var xeymələr otda yanandan
Qorxuram Şimrin səsindən at qabağında qovandan
Yolda bir sili vurubdur naxoşam mən ol zamandan
Gözlərim qanilə doldu mən dedim öllləm yaralı

Sənsiz aləmdə baba mən bu fəna ömrü neynirdim
Sayə tək başın dalınca hər yerə yorğun gedirdim
Ta xəbər gəldi gəlirsən ölməyin məşqin edirdim Sən
oxu Quran verim can, tut özün matəm yaralı

Qoymayıblar əhli-beytin ağlayıb yas saxlasınlar
İstirəm bir iş görəm mən qəlbi-zari dağlasınlar
Ölməyim olsun bəhanə ta sənə bir ağlasınlar
Səs-səsə versin hərəmlər ağlasın əmməm yaralı Arizu gülzari qoyma bu xərabə yerdə solsun Lütf eylə ta bu yətimin kaseyi-amali dolsun
Səbrimin əcri ləbindir qoy öpüm ta muzdum olsun
Həşrədək dillərdə qalsın ta mənim busəm yaralı

Qabizul-ərvahə əslən verməcəm can zarü-xəstə
Canımı lütfən özün al ey şəhənşahi-xücəstə Qəlbidən şadəm əgərçi halsızam mən dilşikəstə
Əfv elə gər məhzərində ağlayıb gülsəm yaralı

Var mənə cayi-məzəmmət qədrini gər bilməsəydim
Ləblərindən ləxtə qanı zülfüm ilə silməsəydim
Yoxdu imkanım görürsən ta sənə qurban kəsəydim Mən özüm qurbanın ollam dəmbedəm hərdəm yaralı

Şamidə qallam həmişə ağlaram bir məhcəbinə
Kərbəladən qorxuram mən orda dağlandı bu sinə
Əfv elə əmməm gələndə gəlməsəm mən Ərbəinə
Şamidə adın dilimdə vurmuşam pərçəm yaralı

Kaş Əkbər adıtək dodağında olardım Sən gedəndə rəzmigahə gül budağında olardım
Ox dəyəndə qəlbin üstə mən qucaqında olardım
Nəsb olardım sinənə ta həşrədək möhkəm yaralı

Kaş mən məzun olaydım qovmiləm cəngü-setizə
Əkbərimtək doğranaydım məhzərində rizə-rizə
Sancılardı gözlərimdən rəzmigəhdə tirü-nizə
Görməyəydim kül üzündə ey şəhi-aləm yaralı

İxtiyar etdim dili şəb mən də mərgi-ixtiyarı
Aşiqin dəhri-fənadə olmasa yarı, nə karı
Xeymədən sən ayrılandan eylirəm ləhzəşümarı
Sən bil Allah, getmə birdən qoy gedək bahəm yaralı

Əkbərə vardır bilirsən qəlbdə eşqi-fövqəladə
Sübhətək viransəradə əllərim qaldı duadə
Yalvarırdım gəlsin Əkbər gəlmədi ol şahzadə
Adını torpağa yazdım gözlərim pornəm yaralı

Mənzili viranə gəlsin olmadı bir zərrə meyli
Söylə məndən Əkbərimə ey gülü gülzari-Leyli
Gəlmədin viransərayə mən də can verdim gileyli
Səslədim hey Əkbər-Əkbər hər zaman hər dəm yaralı

## Həzrət Rüqəyyə (s.ə) atasının intizarında

Gəldi viranə adı qəlblərimiz qan oldu
Morği-ruhim pər açıb bir qıza mehman oldu

Gün batan çağı yetişdi üsəra mənzilinə
Gözü düşdü yorulan qızlara geryan oldu

Tanıdı Zeynəbi əvvəldə namaz üstündə
Gördü Zeynəb qocalıb hali pərişan oldu

Hər uşaq balış edib öz qolunu öz başına
Gizlədib ağlamağın naləsi pünhan oldu

Ucadan ağlamağı düşmən edibdir qədəğən
Gecə-gündüz o yerə neçə nigəhban oldu
Üç yaşında bala röyadə görübdür babasın
Aşiqanə yuxusu dillərə dastan oldu

Dedi əmmə bu gecə mən babamı istəyirəm
Ömrümə bu dili şəb müjdeyi-payan oldu

Aşiqin naləsi məşuqi də bədxab elədi
Tərki-sənduq eləyib dilbərə mehman oldu

Yaralı başı təbəqdə götürüb neçə nəfər Necə
baş! mənzili-viranə çirağan oldu

Təbəqi qoydu nigəhban yerə çıxdı çölə
Örtüyü götürdülər viranədə tufan oldu

Hər kimin düşdü gözü ləblərinə vurdu özün
Ya Hüseyn surəti çıxıb ərşə nümayan oldu

Yummamışdı gözünü yarəli baş Şamə kimin
Nizədə naziri-əhvali-əsiran oldu

Örtüyü rədd eləyəndə gözünü yumdu o baş
Zeynəbindən utanırdı gözü giryan oldu

O baş əllərdə dolandı yetişib sahibinə
Öpdü daş yarəsin əvvəldə nəvaxan oldu

Nə qədər sən var idin gövhəri-porqiymət idim
Sən ki, getdin babacan qiymətim ərzan oldu

Aşiqin şəni budur canını məşuqə verə
Görələr dilbər ilə yekdilü-yekca oldu
Çox deyirdim baba qurbanın olum, olmamışam
İndi fürsətdi mənə moqeyi-cübran oldu

Bax mənə can verim aləmdə həmişə deyələr
Babasın gördü bu qız tez ona qurban oldu

Sən demişdin nə qədər vursalar da dinməyəsiz
Mən itaət elədim hər nə ki, fərman oldu

Şimr hey vurdu məni başımı saldım aşağa
Dinmədim zikrim elə ayeyi-Quran oldu

Hər müsibət ki, gəlibdir başıma bir tərəfə
Əmməmi vurdular gördüm ürəyim qan oldu

Səni qoy and verim öz ürəyindən keçənə
Bu qəsəm ayrı qəsəmdir mənə bürhan oldu

Səni Zəhra anamın sili dəyən nili üzü
Ki, gecə gördü Əli sinəsi suzan oldu

Qusl edən vəxtə Əlinin o əsən əllərinə
Saxlayanmırdı özün əlləri lərzan oldu

And verirəm o üzə qoydu qoydu Əli divarə
Ucadan ağladı birdən işi əfğan oldu

And verirəm o qola çıxdı kəfən altından
Səni ağuşə alıb həşr nəmayan oldu

Belə qəlbim darıxıbdır məni burdan qurtar
Gecə gündüz bu məkanda ürəyim qan oldu

# Həzrət Rüqəyyənin (s.ə) əhvalatı

**(Növhə-sinəzəni)**

Əşgilə vurub aləmi tufani-Rüqəyyə
Gətdi babasın mənzili-viranə Rüqəyyə

Öpdü qəmi-dil şərhin o qəmdidəyə verdi
Can nəqdin o qız dilbəri-dirinəyə verdi
Sən aşiqə bax canını bir busəyə verdi
Öz şəminə oldu gecə pərvanə Rüqəyyə

Aldı başın ağuşə o rəncuri-fərağın

Doldurdu gözün rəmzilə dindirdi qonağın
Əvvəldə nişan verdi babasinə ayağın
Şərh etdi qəmin məhzər sültanə Rüqəyyə

Al canımı bu qanə batan ğəbğəbin üstə
Aləm desin öldü bu qız ayrı dəbin üstə
Mən bus eləyim canımı saxla ləbin üstə Həsrətdi
baba bu ləbü-dəndanə Rüqəyyə

Gəlmişdi baba canim ala qabizul-ərvah
Çox yalvarıb etdim ona bu barədə əlhah
Sən alma verim sahibinə mat ola ərvah
Görsünlər yetib rövzeyi-rizavanə Rüqəyyə

Səbr eylə dedim didə qəmi-faşinə düşsün
Can üstə gözüm ləblərinə qaşinə düşsün Viranədə
qanim babamın başinə düşsün
Təqdim eləsin canını cananə Rüqəyyə

Etmə əcələ bu gülü eşq üstə saralsın
Bu ölməyinin həşrə kimi qoy sözü qalsın
Səbr eylə bir az canımı gəlsin babam alsın
İfa eləsin etdiyi peymanə Rüqəyyə

Ey kaş nə şadlıq günü, nə bayram olardı
Nə sübh açılırdı baba, nə axşam olardı
Nə Şimr gəlirdi, nə xərabə Şam olardı
Nə Zəcri görərdi baba, dürdanə Rüqəyyə

Mən ağladım Şamidə biş-kəmə xatir
Baxdım aya yandım gecə ayrı qəmə xatir
Çox qüssəmi pünhan elədim əmməmə xatir Yalvardı
vəli bir gün o nalanə Rüqəyyə

Səndən bibi şərməndədi bu qəlbi-şikəstə
Müddətdi səni eyləmişəm Şamidə xəstə
Sən bil babamın canı mənə bir ölüm istə
Agəhsən özün burda gəlib canə Rüqəyyə

Qəm tiri qərəz qəlbi-həzinə saçan öldu
Əkbərdən o tur zülfünü hər dəm açan öldu
Çöllərdə piyadə tikan üstə qaçan öldu
Az ömrünü verdi gecə payanə Rüqəyyə

Baxdı elə ki, qanlı dodaqlarə gecəylə
Düşdü nəzəri xibrə xəridarə gecəylə
Can nəqdini çəkdi səri bazarə gecəylə
Baş bir yana düşdü özü bir yanə Rüqəyyə

## Şamdan çıxış və həzrət Zeynəbin (ə) Rüqəyyəyə (s.ə) növhəsi

Ey xərabə sən gülü-Tahanı basdın bağrına
Fəxr elə ki, xırdaca Zəhranı basdın bağrına

Ey xərabə, ey müqəddəs türbəti-kəhlul-bəsər
Xırdaca bir Kərbəlasən, kəbeyi-əhli-nəzər
Səndə bir ulduz batıbdır aftabə naz edər
Aftabi-məşriqi-imani basdın bağrına

İki mədfəndir gecəylə dəfn olub Ali-Şəfi
Hər bir aləm boyu ənduhü-qəm şəni-rəfi
Şiəni çox ağladır bir bu xərabə, bir Bəqi
Sən belə lölöyi-mərcanı basdın bağrına

Can kimi ağuşə aldın baxma yalquzdur bu qız
Asimani-eşqidə rəxşəndə ulduzdur bu qız
Nizə başində babasın ağladan qızdır bu qız
Xoş sənin iqbalına cananı basdın bağrına

Çəkdi az sinnilə dünyanin fişarü-cəbrini
Zeynəbin amma vurub tufanə dərya səbrini
Dırnağımla qazmışam mən bu yətimin qəbrini Yaxşı
saxla bülbülü şeydani basdın bağrına

Var yeri səs gəlsə: əmmə, yarımın dildarısız
Məhrəmi-əsrari-həqqin məhrəmi-əsrarısız
Pozmayın çox halızı siz Ərbəin zəvvarısız
Tez görərsən mərqədi-babanı basdın bağrına

Az bu qəbrim üstə əmmə qəlbi-zari dağlayın
Səbrilə rahi-sereşgi gözlərizdə bağlayın
Siz doyunca ağlamağı Kərbəlayə saxlayın
Onda ki, xaki-şəhi-xubanı basdın bağrına

Kərbəladə get düşən şövqilə qəbri əthərə
Bir gilayə eylə məndən onda başsız peykərə
Şamidə qoydun məni tək yoldaş oldun Əkbərə Eybi
yoxdur Əsğəri ətşanı basdın bağrına

## Ərbəin

Aşiqin nə qədər olsa xoşdu ibtilası qardaş
Zeynəbin qutarmayandı başının bəlası qardaş

Cövhəri vücudi-aşiq dərdü-rənc, səbrü-qəmdir
Dözməyən bu imtahana iddiası kələdəmdir
Xaksar ola nigarə tazə əvvəlin qədəmdir
Şəmtək yanıb kül olmaq dərsi-ibtidası qardaş

Fəth qılmışam Hüseynim qülleyi-fərazi-eşqi
Almışam bu ləşgər ilə həft şəhri-nazi-eşqi
Nizədə səsin ki, gəldi başladım nəmazi-eşqi
Naqədə rükuya getdim qalmaya qəzası qardaş

Qəm sipahını hüzurən mümkün olsa san verərdim
Rəmzi-eşqi qəbrin üstə şərh edib bəyan verərdim
Baxmasaydı xırda qızlar çiynimi nişan verərdim
Var hələ bu peykərimdə eşqinin yarası qardaş

Qoy deyim sənə Hüseynim öz əsəfli halətimdən
Əhli-beyti-Mustəfayə etdiyim kifalətimdən

Qızların qəza deyəndə ölmüşəm xəcalətimdən
Şərmsari əhli-beytəm qəmlər aşinası qardaş
Şirzən bacın qocaldı canidən daxi usandım
Ağlayanda xırda qızlar başına durub dolandım
İstədi yemək Rüqəyyə olmadı verəm, utandım
Qüssələr belə əritdi qaldı bir nəması qardaş

Şamidən cəlalı bərhəm, qollarımda yarə gəldim
Can verən zaman Rüqəyyən, ölmədim dübarə gəldim
Tozlu qəbrinə qızından naibuz-ziyarə gəldim
Qurtaran deyil bilirsən Zeynəbin vəfası qardaş

Olmasaydı bu vəzifə Zeynəbə əgər mühəvvəl
Qaytaram bu karivani qəbrin üstünə müəccəl Sən
xərabəyə gələndə mən özüm ölərdim əvvəl
Xəstə canimə gələrdi gözlərin qadası qardaş

Mən deməm Hüseyn ki, zülmü- cövri-düşməni soruşma
Dastani-mərgi-bülbül vəzi-gülşəni soruşma
Hər kimi desən xəbər al, bir Rüqəyyəni soruşma
Öldü gəlmədiz əzayə xar olub əzası qardaş

Şamə rəhsipar olanda qaməti-xəmidə getdim
Cövrü-zülmü Ali-Hində yazmağa xəridə getdim
Xırda qızlar ilə bahəm məclisi-Yezidə getdim
Başını Rüqəyyə görcək ovc edib nəvası qardaş

Xeyzəran həvayə qalxdı, dizlərim əsib alışdım
Haşimiyyəlik vüqarin hifz edib o dəm çalışdım

Aqibət elə qızışdım Mütrəza kimi danışdım
Əhli-məclisin ucaldı afərin sədası qardaş

Vardır illəti məzarın öpdükcə şövqə gəlləm
Axərin ziyarətimdir mən özüm bu sirri billəm
Bir də sonku Ərbəinin görmərəm yəqin ki, ölləm Zairəm
məni danışdır sözlərin fədası qardaş

Zeynəbəm, sənə müridəm haqqın üstə canfişanəm
Kuyi-eşqinə bələdçi həmlədari-zairanəm Bax bu
qanlı köynəyindir sinəm üstə qəhrəmanəm
Almışam, vəli nə almaq, çoxdur macərası qardaş

Nəhri-Əlqəm üstə bir ay ki, düşüb Hüseyn mühaqə
Vardı Zeynəbin o qolsuz sərsipahə çox əlaqə
Söylə gəlməyib Rüqəyyə, sən utanma çıx qabaqə
Dur bacın gəlib səfərdən ey gözüm ziyası qardaş

And ola o qanlı başə həmçu şəms-zühaha Başlara
dalınca aytək "vəl-qəməri iza təlaha"
İstirəm qalam yanında "vəs-səmai və ma bənaha"
Al bu xəstə canı məndən Allahın rizası qardaş

Var yeri bu nisgil ey şəh əldən alsın ixtiyari
Seltək Rübab eylir göz yaşın üzarə cari
Hey sual edir bacından Əsğərin hanı məzari
Söylərəm alıbdı hətmən sinəyə atası qardaş

Çox becadı səs gəlirdi de Rübabı dilşikəstə

Olma nagəran balandan ağlama bu noyi xəstə
Nazilə yaralı Əsğər yuxulayıbdı sinəm üstə
Üç nəfər yatıbla bahəm xoş, ata balası qardaş

“Sadiqi” düz olsa aşiq çün kəbutəri hərəmdi
Şahidani qürbü-vəslə həmneşin və həmqədəmdi
Boşla bildiyin hər aşiq yandıqca möhtərəmdi
Sinəsində söz eşqi ruhunun qəzası qardaş

## Ərbəin müqəddiməsi

Dolandı bir gün Məcnuni diləfkar
Tapa Leyli məzarin didə xunbar

Zibəs axtardı dildə iştiyaqı
Yetib bir yerdə gördü bir uşaqı

Soruşdu tiflidən zarü-pərişan Ki,
Leyli qəbrini aya tanırsan

Çəməndə nogülü eşqim solubdur
Bu səhradə nigarim dəfn olubdur

Məni gözdən nə müddətdir atıbdı
Nişan ver sevgilim harda yatıbdı

Dil açdı nagəh ol tifli-dilagəh
İtab etdi o sərgərdanə nagəh

Dedi sən ki, özün aşiq bilirsən
Livayi-eşqi-yari həml edirsən

Düz aşiqsən əbəs şivən salıbsan
Nədən bəs o ölübdür, sən qalıbsan

Belə məlum olur napoxtə gülsən
Danışma get hələ aşiq deyilsən

Verim qoy eşqidən ali nişanə
Dolan payi-bürəhnə yanə-yanə Yetişdin hər yerə bireybü-hiylə
Götür toprağını ovcunda iylə

Məşamə buyi-eşqi gəlsə harda
Yəqin bil ki, məzari-Leyli orda

Bəli, eşqin rümuzatındə iş var
Məcazi aşiqə çox sərzəniş var

Sual et zər əyarin zərgərindən
Gedib dərs al Rübabın məhzərindən

Qələm ki, səbt edir bu şərhi-halı
Dedi bir şəxsi-fazil bu məqalı

Yetişdi karivan Kərbübəlayə
Xanımlar tazədən düşdü bəlayə

Səfər sovqatı üzdə qan-yaş oldu
Rübabın dərdi hər qəmdən baş oldu

Özün saldı yerə məhmildən endi
Oturdu torpağın üstə döşəndi

Tapıbdır dərdinə ümdə dəvanı
Götürdü iylədi xaki-şəfanı

Dilində vay oğul, göz yaşı dərya
Baxardı sağ-sola ağlardı güya

Deyərdi kaş gül məsəli solardım
O bağlı əllərə qurban olardım Görüb əhvalını Zeynəb o saət
Rübabə söylədi ey kani-ismət

Nə illət var belə rəftar edirsən
Niyə torpağı hərdəm iyləyirsən

Edib nagəh Rübabın dərdi şiddət
Xanımdan çox ədəblə aldı rüxsət

Dedi əfv eylə sinə dağlasam mən
Hüzurunda ucadan ağlasam mən

Ürək başın yenə qəm tiri dəldi
Məşamə Əsğərimin ətri gəldi

Keçən nisgillərin yadıma sallam
Bu topraqdan balamın ətrin allam

Var illəti belə sinə dağlaram mən
O bağlı əllərinə ağlaram mən

Qərəz Zeynəb, o mahi-biqərinə
Qutardı Şami gəldi Ərbəinə

Hüseynin qəbri üstə yanə-yanə
Özün saldı dil açdı aşiqanə

Baxıb altı guşəyə yandı nəhadı
Dedi qəbrindi, ya ərşi-Xudadı

Demə bir ləhzə Zeynəb dincəlibdir Eşitdim qəbrinə Cabir gəlibdir Hamı zəvvaridə bir mənsəb olmaz
Bir aləm Cabir olsa Zeynəb olmaz

Sənə dildə Hüseyn gizlin sözüm var
Uzaqdan gəlmişəm ağlar gözüm var

Keçib dərdü-qəmim əndazələrdən
Sözüm çoxdur sənə dərvazələrdən

Yanıbdır dağlı qəlbim dərd əlində
Uşaqlar qaldılar namərd əlində

Özüm billəm ki, qəlbin nagərandı
Rüqəyyə söhbətin salma amandı

Yaralı qəlbimi böldü Rüqəyyə
Bacın qaldı Hüseyn, öldü Rüqəyyə

Bu axir gəlməyimdi indi billəm
Gələn il olmaram qəbrində ölləm

Əcəldən xəstə canə möhlət olmaz
Mənə bir də məzarın qismət olmaz

## Həzrət Zeynəbin (s.ə) şəhadəti

Bu xəbər ki, yazıram dəftərə ünvan olsun
Qəmi Zeynəbdi ki, aləm ona qurban olsun

Ravisi əhli-xəbərdir özü nəsli-nəbəvi
Alim, arifi-varəstə benami Ələvi

Yetişib başə o gün səhneyi-Aşuri bəla
Aləmi qoydu təhəyyürdə rəisi-şühəda

Cigəri Ali-Əba zülm oduna dağlandı
Zeynəbin xeyməsləri yandı qolu bağlandı

Çiyninə Zeynəb alıbdır şühəda pərçəmini
Şamidə nəsb elədi Kərbübəla pərçəmini

Ümdə məmuriyəti Zeynəbin itmam oldu Üsəra
ilə xanım Yəsribə ezam oldu

Xəlqi agah eləyib sinələri dağlatdı
Göstərib qanə batan köynəyi qan ağlatdı

Dudumani Ələvidən ucalıb ərşə nəva
Şərh olub qisseyi-cansuz o qəmi-Kərbübəla

Həzrəti Zeynəb özü mətləbi ifşa elədi
Ali-Süfyanı xanım şəhridə rüsva elədi

Dəstgahi-sitəmə həmləsini etdi şədid
Şamidə vəhşətə düşdü dərü-dərbari Yezid

Hakimi-zalım şədidən edib ehsasi-xətər
İstədi saxlaya daim xanımı təhti-nəzər

Dedilər birdə gərək gülşəni Taha solsun
Şəhri-Şamə o zaman yazdıla təbid olsun

Üz Bəqiyə çevirib izn verib göz yaşına
Üzünü qoydu o gizlindəki qəbrin daşına Qismətim yoxdu
hüzurunda çatam kamə ana
Yola sal Zeynəbi birdə gedirəm Şamə ana

Paytəxti-Əməvi Zeynəbə şəhri-qəm idi
Gərçi ətrafi dolu bağdı, çox xürrəm idi

Orda bir bağ var idi ki, Xuda agah idi
O bağın sahibi öz şohəri Abdullah idi

Zeynəbiyyə tanıyır xəlq o yeri, şöhrəti var
Xanıma məskən olub, həşrə kimi möhnəti var

Zeynəbin qəlbin o yerdə deme qəm sıxmaz idi
Gülə baxmazdı otaqdan çölə çıxmaz idi

Gülə düşsəydi gözü Əkbərinə ağlardı
Qönçə görsəydi Əli Əsğərinə ağlardı

Su görən vəxtə üzə gözyaşını bağlardı
Sərv görseydi Əbəlfəzlə ürək dağlardı

Çox deyərdilə xanım seyr elə bir bağı dolan
Ürəyin bəlkə açılsın eləmə əşgi rəvan

Necə söylərdi baxım gülşənə qəlb dağlamayim Kərbəladə
çəmənim soldu necə ağlamayım

Əlqərəz naxoş olub Zeynəbi pakizə sifat
Şiddətilə təb edib zahir olub hali-məmat

Əridi günbəgün əzbəs ki, o banuyi-nəcib
Başı üstə gətirib həzrəti Səccad təbib
Bir təbibanə baxıb gördü təbin şiddəti var Sən
ilə bu xanımın söylədi nə nisbəti var

Gözləri doldu imamın dedi çoxdur möhnətim
Həqqi var gərdənimizdə xanım əmməmdi mənim

O təbib agəh olubdur dedi əsli qərəzi
Dığlayıbdır bu xanım yoxdu bir ayrı mərəzi

Tirəyir dil-dodağı qəlbi vurur şiddət ilə Vərəm
eylib ürəyi fori ölər həsrət ilə

Çırpınır qəlbi düçari-həyəcandır bu xanım
Bilmirəm mən kimi gözlür nigərandır bu xanım

Niyə bu şiddətilə göz yaşı rüxsarə axır
Az qalır canı çıxa gözləri yollarə baxır

Kimi var yolda məgər tez-tez onu yad eləyir O
kimin köynəyidir sinədə fəryad eləyir

Gün batan çağı nədən nuri-du-eynim çağırır
Doldurur gözlərin əşgilə Hüseynim çağırır

Bilmirəm mən bu mərizin nə gəlibdir başına
Tez verin indi xəbər ellərinə, qardaşına

Əcəlin tiri bu tezlikdə yanan qəlbi bölər Can
yetib sinəsi üstə səhərə çıxmaz ölər

Dili-afaqı qərəz tiri-mühən böldü gecə

Səhərə çıxmadı Zeynəb nigəran öldü gecə
Anası Fatimə öldü yetib əflakə xəbər
Gecənin aləmi dəfn etdi onu yeddi nəfər

Bu mühən şiələrin qəlbinə həsrət oxudu
Dəfni-Zeynəbdə həman yeddi nəfər də yoxudu

Səsi çıxmazdı yavaş sinəsini dağlardı
Bir Hüseyn adı gələndə ucadan ağlardı

Hey deyərdi ona Səccad ki, ey cani-cahan
Bu qədər şiddətilə ağlama sən naxoşsan

Əmməcan əşgini daim üzünə bağlamısan
Gecə-gündüz bilirəm qardaşına ağlamısan

Sən özün aliməsən xəstədi yorğun bədənin
Bir zaman səbr elə kahiş tapa dildə mühənin

Dedi neylim yanıram ərsədə tək qalmağına
Ağlıram qardaşımın xeymədən ayrılmağına

Buracan ravi deyən mətləbi inşa elədim
Ayrı fikrilə, vəli həlli müəmma elədim

Səhhətü-süqm süxən gərçi mənim zikrimdir
Neçə beyti ki, qələm səbt edir öz fikrimdir

Gəldi Zeynəb yenə Şamə o zaman səhhəti var

Vəli bu gəlməyinin batini bir hikməti var

Doxtəri-Fatimədir, şəni vilayət varıdır
Bala bir qıza qəlbində məhəbbət varıdır
Gərçi məşhuridi təbid olunub doxti-Əli
Onu Şamə gətirən xırdaca bir qızdı vəli

Zahirən gərçi onu Ali-Üməyyə gətirib
Batinən Şamə vəli eşqi-Rüqəyyə gətirib

O xərabə xanımın qəlbini qan etmişidi
Ayrılanda baladan çox nigəran getmişidi

Yetişib Şamidə Zeynəb demə dincəldi gecə Əlləri
başda o viranə yerə gəldi gecə

Güya Zeynəb özün bəzmi-nigarə yetirib
Yıxılıb durdu o nisgilli məzarə yetirib

İstədi xəlvət edə doxtəri-məhparə ilə
Gəldi viranəyə bir cüt bala guşvarə ilə

Bisəbəb söylədi səbrim evini qəm yıxmır
Gecələr ağlamağın indi də yaddan çıxmır

İstirəm tiri-qəminlə bu yanan qəlbi böləm
Gəlmişəm mən də Rüqəyyə sən ölən yerdə öləm

## Həzrət Zeynəbin (ə) şəhadəti

Zeynəb, o şirdoxtəri-salari-müttəqin
Babül-həvaicə, şərəfi-məktəbi-yəqin

Bir Zeynəb ki, bəslədi can şiri-eşqidən
Süd Fatimə südüdü, alıb canə ləzzətin

Ləhni Əlidi, səbri Həsən, gözləri Bətul
Canı Hüseynidi, yerişi Xətmi-mürsəlin

Qəddi-qamətində qaməti Abbastək uca
Zeynəbdə göstəribdilə qaməti qiyamətin

Söz yox Hüseyn qiyam elədi iftixar ilə
Ali-Üməyyənin şühəda yıxdılar evin

Fərman verən bu cəbhədə gərçi Hüseyn idi
Zeynəb dağıtdı leyk oların kasə-kuzəsin

Bir söz deyim xəyali xəta etmə müddəi
Fikr eyləmə ğülüv edirəm vermə nisbətin

Gər istəsəydi zati-Xudavəndi zülcəlal
Nisvanə də verərdi məqami-imamətin

Həqqi bu idi aləmə Zeynəb imam ola
Qarətdə sabit elədi Zeynəb ləyaqətin

Cənnətdə bu eşqə əgər məktəb açsalar
Zeynəb gərək idarə edə eşq məktəbin

Çün dərs eşqi aləmə Zeynəbdi öyrədən
Şagirddi hüzuruna kullü müdərrisin

Təfsir edən tapılsa əgər nami-Zeynəbi Heyran
olar adında təmam müfəssirin

Heydər ki, zinət idi özü əsli-xilqətə
Təkmil edib onunla Xuda cümlə ayətin
Bax Zeynəbin məqamına zinətdi Heydərə
Qurban olum cəlalətinə Zeynəbiyyətin

Zeynəb Hüseyni gündə yaxından gərək görə
Ətrin məşami-canə ala nazlı dilbərin

Zənciri-eşqə bax bunları gör nə bağlayıb
Bir ruh iki bədəndə gəzir eşqə afərin

Axir qocaltdı çərxi-cəfapişə Zeynəbi
Gəzdirdi, gətirdi Şamə tərəf ömrü vapəsin

Gətirdi vəfalı Zeynəbi qürbətdə öldürə
Yoxdur vəfası bəski bu çərxi-sitəmgərin

Səccad ağa baxır xanıma göz yaşın tökür
Gahi onun qolundan öpür, gəh öpür əlin

Tərzi-əməl əcibidi cayi-sual olub
Forən soruşdular bu işin əsli-illətin

Doldurdu gözlərin dedi dünyayə uff ola
Çox haqqı boynumuzda bizim var bu əllərin

Ərz eylədi ki, əmmə niyə sinə dağlayırsan İllət
nədir sereşgin axır çün dürrü-səmin

Can üstə söylədi ki, anam yadıma düşüb
Gördüm özüm ölən gecədə qanlı sinəsin

Zəhra qəmində indi də ağrıyır sümüklərim Durmurdu
qanı qüsl eləyəndə o peykərin Zeynəb, nə Zeynəb
ölməyi də dərd olub bizə
Qürbət məkanda eldən uzaq, zarü-dilqəmin

Axşam çağıydı çəkdi xanım bir dərin nəfəs
Viranələrdə yuxulamayan yumdu gözlərin

Aşiq gərəkdi canını məşuqinə versin
Can üstə səslənirdi odur nuri-didəsin

Məqtəldə həncərəndən öpən Zeynəbəm, Hüseyn
Can üstəyəm yubanma gəl, ey kuyi-həqneşin

Elan elə ki, Zeynəb ölür gəlsin ellərim
Alsınlar dövrəmi bu ölən vəxtə qız-gəlin

Sənlən bu ömrü başlamışam mən Mədinədə
Gəl indi sənlə başə verim ömrün axərin

Şam əhli sağlığımda Hüseyn çox gülüb mənə
Bari gəlin cənazəmə qürbətdə gülməsin

Abbasimi deyərdi gələndə gətirməyin
Billəm özüm o yarəli şirin xəcalətin

Yoxdur əli ki, əl ata tabutuma mənim
Bir yol utandı bəsdi daxi olmasın qəmin

Zeynəb xülasə yumdu gözün öldü Şamidə
Qəssalə gəldi qüsl edə sadatin əmməsin

Əvvəl yetişdi göz dolusu baxdı Zeynəbə
Doldurdu gözlərin dedi ya Rəbbəl-aləmin Zeynəbdi bu
Mədinədə çox ismü-rəsmi var
Var idi yeddi qardaşı bu nazpərvərin

Məlumdu ki, yaslidi heç qoymayıb həna
Ağ saçların töhübdü üzarə ipə kimin

Əlqissə qoydular xanımı məğsəl üstünə Əvvəl
başından açdı onun qarə məcərin

Ahistə qara köynəyini xaric elədi
Bilməm nə halda gördü o dəm nili peykərin

Bir baxdı cisminə dayanıb qüsl edənmədi
Doldurdu əşgilə gözünü saxladı əlin

Verdi ərizə mətləbi Səccadə pirizən
Bu tərzilə soruşdu onun rəmzi-möhnətin

Kərbübəladə əmmən ağa cəng edib məgər
Başdan-başa yaralıdı cimsi bu əthərin

Çox orətə işim budu mən qüsl vermişəm
Belə cənazə görməmişəm ömür müddətin

Vardır əlində bir yarə çox yandırır məni
Xəncər yarəsidir görürəm mən cərahətin

Çiynində yoxdu saf yeri yol-yol kəbud olub
Harda vurubdu qəmçi buna qövmi-bədqərin

Bir nəhvilə cənazəyə qüsl etdi pirizən
Qüslin qutardi xəstə bədən geydi xələtin İstəyirlər indi tapşıralar qəbrə Zeynəbi
Tabutə kim gərək yapışa yoxdu bur müin

Lütf oldu "Sadiqi" sənə bu girü-daridə
Yazdın cənabi Zeynəb ülya şəhadətin

Ərz elə Zeynəbə bu sözə istirəm silə
Sən ki, bu xadimin bilisən ümdə hacətin

Allaha and ola ki, əgər etməsən rəva
Zəhrayə elərəm iki dünya şikayətin

## Həzrət Zeynəb (ə)

**(Sinəzəni)**

Axşam çağı qürbətdə heyhat heyhat
Can verdi məzlumanə əmmeyi-sadat
Başə qəm gəldi Zeynəb dincəldi
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb

Əcəl təri alnına bir-bir düzüldü
Ellərindən qürbətdə əli üzüldü
Yorğun gözlər axınıb birdən süzüldü
Sağ-sola baxdı, göz yaşı axdı
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb

Zeynül-ibad ağlayıb dilbərin öpdü
Yuxulamayan Zeynəbin gözlərin öpdü
Əmməsinin göyərən əllərin öpdü
Başladı əfğan, Səccadi-nalan
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb
Lay-lay vəfanı başdan atmayan əmmə Qardaş qəmin heç qəmə qatmayan əmmə
Viranədə sübhədək yatmayan əmmə
Vəfalı əmmə, həyalı əmmə
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb

Nədən belə məni yandırıb yaxırsan
Yavaş-yavaş ulduzlar məsəli axırsan
Kimi gözlürsən belə yola baxırsan
Yandırıb yaxma, yollara baxma
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb

Fikr eləmə ellərin gözdən atıbdır
Göz yaşını qürbətdə qanə qatıbdır
Qardaşların topraqlar altında yatıbdır
Dərdü-qəmin çox, Şamə gələn yox
Ya Zeynəb, ya Zeynəb, ya Zeynəb, ya Zeynəb

## Həzrət Ümmül-Bənin (s.ə)

Aləm tapar səfa bayram axşamı
Qəlbə yetər sürurü-cəla bayram axşamı

Qüdrət əli dübarə ərusi-təbiəti
Xoş tərzilə bəzər fəliza bayram axşamı

Fəsli-baharı dərk edə bülbül də nəzr edər
Güldən gülə qona oxuya bayram axşamı

Mərsumdur ata balanın fikrinə qalar Tazə
libas alar uşağa bayram axşamı Hər bir
ana ki, neçə rəşid oğlu var onun
Gözlər oğul gələ yanına bayram axşamı

Bir madər ki, oğlu ölüb qəlbi dağlanıb
Tazələnər dilində yarə bayram axşamı

Bayram olanda ağlar iki tayfa belə Gəlməz
qəmi sana, əbəda bayram axşamı

Bir binəva yətimidi, bir dağ görən ana
Gülməz onlar, geyllər qarə bayram axşamı

Qəmnak olar yətim uşağın xəstə gözləri
Bənzər həmişə tutqun aya bayram axşamı

Kim baxsa həsrətilə gözündən tanır onu
Xoş dindirir qəmi dağıla bayram axşamı

Heç kəs yanında almaz uşağın qucağına
Qorxar yətim nisgil ola bayram axşamı

Kim başına çəkəndə əlin ağlamaq tutar
Dərdin deməz vəli çoxuna bayram axşamı

Bir də o binəva anadır göz tikər yola
Bəlkə gələ dübarə bala bayram axşamı

Bir kimsiyə deməz vəli xəlvət yer axtarar
Ta boş otaqda başın aça bayram axşamı

Başlar bir oxşama ürəyin hey ovuşdurar
Əşgin tökər üzarə ana bayram axşamı

Bir səs gələndə fori durub gözlərin silər
Güya ki, ağlamır əbəda bayram axşamı

Görüşünə gələndə biri qəlbi odlanar
Səy eləməz qabağa çıxa bayram axşamı

Bainki oğluna görəsən bir il ağlayıb
Doymaz tutar dübarə əza bayram axşamı

Heç kimsə bayram etmədi Ümmül-Bənin kimi
Başdan-başa geyibdi qarə bayram axşamı

Bir qanlı pərçəmi hey öpür bağrına basır
Abbasına edirdi nəva bayram axşamı

Qurban ola uzun qoluna ölməyən nənən
Mən ağlaram sınan başına bayram axşamı

Başım ucatsan evin abad ola oğul
Qıllam səni həmişə dua bayram axşamı

Atdan düşən zamanda üzün üstə düşmüsən
Mən qoymaram xına başıma bayram axşamı

Gəldi qərəz ərəb qapıya dəqqi-bab edib
Yandırdı aləmi o səda bayram axşamı

Ümmül-Bənin rəvanə edib öz kənizini
Gör kim dəxil olubdu bura bayram axşamı

Gəldi qayıtdı sürət ilə bavəfa kəniz
Ağlardı şiddət ilə bəsa bayram axşamı
Ərz etdi bir ərəbdi ki, bayramlıq istəyir Hər
il kimi gəlib qapıya bayram axşamı

Abbas anasıdır deme ki, boş yola salar
Yığdı bir az libas-təla bayram axşamı

Dəsmala bağladı onu verdi kənizinə
Fərmayiş elədi ver ona bayram axşamı

Söylə ərəb az olsa da bu il güzəşt elə
Məzur tut, sən elə dua bayram axşamı

Getdi kəniz versin onu almadı ərəb
Bir söz dedi o əhli-vəfa bayram axşamı

Ərz elədi hər il bu zaman gəlmişəm bura
Ehsan edibdi şəxsən ağa bayram axşamı

Bayramlığı ağam öz əlilə verib mənə
Sən get, özü gələ qapıya bayram axşamı

Bayramdı istirəm o kərəm əllərin öpəm
Qəlbim tapa dübarə səfa bayram axşamı

Fizzə dözənmədi ucadan ağlayıb dedi
Vurma daxi bu qəlbə yara bayram axşamı

O əlləri kəsiblər, ərəb pozma halımı
Tutma adın bu noyi uca bayram axşamı

Xırda balası var onu yandırma bu qədər
Dözmür o tifli-məhləqa bayram axşamı Abbas adı
gələndə uşaq öldürür özün
Tez get dayanma bu qapıda bayram axşamı

Dərk eləyib ərəb bu sözü, vurdu başına
Səsləndi heyf ola o qola bayram axşamı

## Babül-həvaic Musa ibn Cəfərin (ə) növhəsi

Dur Bəqidən gəl ana, yanə-yanə ya Fatimə
Bax mənə, bax bu nigəhbanə ana ya Fatimə

Məhbəsim gün görməyən bir yer qaranlıq çahidir
Bu dərin sərdabə cismim çu pərri-kahidir
Vəzü-halimdən fəqət Allah Özü agahidir
Bənzirəm şəmi-şəbistana ana ya Fatimə

Sind əlindən gəlmişəm canə hüzurə tez çağır
Ta səsi birdən gəlir qəlbi həzinə qəm yağır
Mən qoca bir natəvan seyyid, o zalım əl ağır
Sən kimi göz doldu əlqanə ana ya Fatimə

Gözlərin qurbanı bu yolda qalan ağlar gözüm
Səbr edəm dərdü-müsibatə ana yoxdur sözüm
Naxoşam, pirəm daxi yox siliyə məndə dözüm
Qalmışam burda yanə-yanə ana ya Fatimə

Mən özüm babül-həvaic cümlə xəlqə dəstgirəm
On bir ildir olmuşam Harunə məhbəsdə əsir
Yer salıb boynumda zəncirim du şaxə incidir
Yoxdu imkan birdə dərmanə ana ya Fatimə

Qəlb mülazimdir bəlayə irtizanı axtarır
Yarədir boynum bu məhbəsdə dəvanı axtarır
Can sinəmdə gözlərim oğlum Rizanı axtarır
Gəlsə zindanə o dürdanə ana ya Fatimə

Ehtizarimdir məni cantək qucaqlır silsilə
Eylə elani-əza cəddim, babam yeksər gələ
Qoymayın qürbətdə bu babül-həvaic xar ölə Tez
gəlin şami qəribanə ana ya Fatimə

Tubetu zindan, nə gün var, nə işıq, nə rövzənə
Nə azan bəlli, nə soti-dilnişin məzənə
Danə zəncir təsbehimdi zikri-Zülmənə
Yalvaram ta Həyyi Sübhanə ana ya Fatimə

Sind qalxızdı əlin vursun məni bivahimə
Dinmədim vursun dedim gül surətimə
latimə Sili dəysə yaxşı billəm nə çəkibdir
Fatimə

Onda ki, gəlmişdin əfğanə ana ya Fatimə

Endirib napak əlin baxmayıb dili-naşadimə
Ayrı bir nisgil və lakin od salıb əkbadimə
Ta məni sililə vurdu küçə düşdü yadimə Güşvarən
düşdü bir yanə ana ya Fatimə

Ali-Haşimtək cahanda bəhri-eşqin qərqi yox
Eşq bir aləmdi ki, əbadi qərbi, ya şərqi yox
Bizlərə pir-cavan meydan, ya zindan fərqi yox
Hamiyik biz dinə, Quranə ana ya Fatimə

Elədim peyğam Harunə bu sirri-faşimi
Gündə zəncir ilə min yol xurd edə gər başimi
Söz həmandır ki, Hüseyn söyləyib baş əyməz Haşimi
Zümreyi-bidinü-nadanə, ana ya Fatimə

Ümməti-İslami tuş etdiz bir ayrı müşkülə
Adızı qoyduz xəlifə həqqi satdız batilə
Həm oğruya şərik olduz, həm rəfiqi-qafilə Vay
belə dinü-müsəlmanə, ana ya Fatimə

Xəsm meydanda qaçır, danmaz Bətulun şirini
Biz “yuhibbus-sabirinik” get oxu təfsirini
Töksələr də üstümə gər aləmin zəncirini
Əymərəm baş xəsmi Yəzdanə ana ya Fatimə

Yox sözüm vardır mənim babül-həvaic mənsəbim

Mən Hüseyn şagiridiyəm Kərbübəladır məktəbim
Səbrimin üstadı Zeynəbdir, o ismət kövkəbim
Dözdü hər bir dərdü-hərmanə ana ya Fatimə

“Sadiqi” babül-həvaicdir bu miri-müttəqin
Eylə hədyə şerini bu müqtədayə qıl yəqin
Tez verir yaxşı silə şəxsən imami-həftomin Səslənər
gəlmiş zəlilanə, ana ya Fatimə

## Müraciət

Aya saqi, o meydən ver mənə peymanə-peymanə
Alışdır canımı dərdin alım rəndanə-rəndanə

Dolaşdır boynuma zəncir zülfün həlqə behəlqə
Dalınca çək məni bir qul kimi hər yanə-hər yanə

O gündən ki, yolum düşdü sən ilə aşina oldum Gözümdə
aşinalar oldular biganə-biganə Vəsiyyət xoşdu aləmdə
deyəllər əmri şəriətdir
Səni verrəm qəsəm zülfü pərişanə-pərişanə

Nə vəxt öldüm kəfil ol kəfnü-dəfnimdə özün saqi
Cənazəm zahidə tapşırma ey fərzanə-fərzanə

Amandır qüslümü əğyarə baxma, köhnə meydən ver
Gəlim ta ərsəgahi-məhşərə məstanə-məstanə

Həvayi-meykədə xoşdur məni meyxanədə dəfn et
Əziyyət çəkmərəm olsa yerim meyxanə-meyxanə

Gələndə məhşərə məstanə həşri bir-birə vurram
Deyəllər ki, gəlibdir bir nəfər divanə-divanə

Neçin divanəyə təklif yoxdur heç təriqətdə
Məni vurmazla ollam yarilə həmxanə-həmxanə

## Aşura gününün qürubu

**(Şairlər tacı Yəhyəvinin şerlərindən)**
Cənab Mirza Məcidi Vaizi şərif və şəhir
Həmin bu bir xəbəri bir gün eylədi təqrir

Dəvə itirmişdi bir ərəb gəzirdi çölü Düşüb
qəbileyi ərabə şam vəxti yolu

Nə gördü xeymə və çadırları münəzzəmdir
Hamısı xeymələrin boş qəribə aləmdir

Qoyun, quzu, dəvə bir yerdə baş-başa çatmış
Qadın-uşaq onların səslərinə səs qatmış
Edillər nohə Hüseyn vay deyillər, ağlallar
Həvadə quşları pərvaz edəndə saxlallar

Həman qəbilədə yox bir nəfər kişi əsəri
Cəhət nədir ki, gedib boş qoyublar xeymələri

Soruşdu bir nəfər orətdən ol cavan ərəb
Qəbilədə kişi görsənmir gözə nə səbəb

Verib cavab ona lərzan səsilə bir orət
Bizim kişilər olur üç gün eləyib qeybət

Bəsic hökmü verib zadeyi-Ziyadi-şərur
Kişiləri aparıb cəngə zor ilən məmur

Bu gün günorta zamanı zəmin olub lərzan
Qara yel sədi havanın üzün tutub tufan

Göy aləmindən eşitdik ki, zahir oldu səda
Yer əhlinə dedi "qutiləl-Huseyn biKərbubəla"

Başını qozadı heyvanlar otlamağından
Tökürdülər üzə yaş gözlərin bulağından

Bizə zühuri-əlayimdən aşkar oldu
Əzizi-həzrət Xeyrün-nisa, Hüseyn öldü

Odur qəbilənin orətləri tutublar əza
Deyillər bacısı Zeynəb kimi Hüseynim va

Deyir o mərdi ərəb, gördüm onda qopdu qübar
Yetişdi yoldan o dəm sürət ilə şəxsi səvar Tutub
vücudunu başdan-ayağa gərdilə xak
Əli ayağı əsir holnak-vəhşətnak

Piyadə oldu atından yerə o mərdi səfər
Qaçıb qabağına aldı arayə orətlər

Soruşdular de görək cəng macərasından
Hüseyni-Fatimənin başının bəlasından

Dedi keçən gecə vəxti qürubi-Tasua
Süduri-hökm elədi ibni Səd bipərva

Nə qədər ki, var idi məşg, qürbə, kuzə və cam
Su qabların qoşun əhlindən aldılar betamam

Məbadə rəhmə gələ bir nəfər riayət edə
Hüseyn balalarına cürə su himayət edə

O ərsə dolmuşdu ağlamaq nəvasından
Balaca tifillərin ələtəş sədasından

Eşitdim onda özüm südəmər bala səsini
Anasının ona lay-lay deyəndə naləsini

Deyirdi su görəsən bir də Əsğərim heyhat
Başını qoy sinəmə rahət ol, əqəllən yat

Xülasə mən var idim oldu zöhrü-Aşura
Yetişdi cəngidə bir-bir şəhadətə şühəda

Hüseyn gətirdi əl üstündə altı aylıq uşaq

Dedi bu südəmər ətşan sizə gəlibdi qonaq Gəlin alın
aparın su verin, çox ətşandır
Quru dodağın əmir, görmüsüz pərişandır

Gözümlə gördüm ona Hərmələ veribdi cavab
Susuz boğazını etdi xədəng ilə sirab

Bu zülmü dərk elədim məndə qalmadı taqət
Minib ata elədim öz qəbiləmə ricət

Yolu yarı eləmişdim ki, düşdü dəştə səda
Peyəmbər oğlunu etdi şəhid Şimri-dəğa

Düşüb təlatümə yer titrədi, qaraldı hava
Tutuldu əsr zəmaniydi şəmsi-Aşura

Bu da bir ayrı xəbərdir o gün başa yetdi
Bəla günü qutarıb, gün batıb qürub etdi

Yanan çadır vurulub nəhri-Əlqəmin üstə
Sıxıldı güşəsinə əhli-beyti dilxəstə

Biri deyir bala Qasim, biri deyir Əkbər
Biri deyir, sənə qurban ola anan Əsğər

Biri deyir bibi Zeynəb baba hayanda qalıb
Rüqəyyəsin görə nə halə bu məkanda qalıb

Gəlib görə məni bu halda parə çadırda

Mən əyləşirdim haçan əmməcan quru yerdə

Dünən gecə var idim izzətü-cəlal ilən
Bu gecə Şimrə əsirəm qəmü-məlal ilən
Bu gecə fürsətim olsa babamı mən taparam
Yaralı sinəsinin üstə üz qoyub yataram

Hərəmlər orda şəhidanə başlamışdıla yas
Qoşun yatıb gecədən ta ki, keçdi bir neçə pas

Eşitdilər ki, bir orət deyir beləhni-ərəb
Bu para xeymədə kimdir adı xanım Zeynəb

Ziyarətindən onun dildə xahişim vardır
Ona yaralı Hüseyndən sifarişim vardır

Hüseyn adın eşidən vəxtə isməti-kübra
Kənarə çıxdı para xeymədən o şəmsi-həya

Nə gördü bir nəfər örətdi əldə məşgilə cam
Yanında vardır kənizin başında xonça təam

Cənabi Zeynəbə baş endirib salam elədi
Düşüb ayağına öpdü çox ehtiram elədi

Dedi canım sənə qurban ey əzizi-Hüseyn
Gəl al təamı gətirmiş sizə kənizi-Hüseyn

İcazə ver bu suyu paylayım uşaqlara

Atam-anam ola qurban yanan dodaqlara

Hüseyn teşnələbindən sənə salamım var Həvalədir
sizə bu xonçada təamım var

Xanım salamı aldı buyurdu xoş gəldin
Bu sirri söylə mənim adımı nədən bildin Dedi xanım bu
yaxında düşən qəbiləliyəm
Dürüst edib bu təamı qəbilədən gəldim

Həmin keçən günüzü zöhr vəxti keçmişdi
Yolum o qan tökülən qətligahidən düşdü

Nə gördüm orda əcəb inqilabdır, tufandır
Qoşundu sel kimi əllərdə tirü-peykandır

Alıbdı bir yeri ləşgər araya qan ələnir
Qlıncdı, nizədi qalxır həvayə tez enir

Keçib qoşun içinə ol məhəllə boylandım
Arada bir nəfəri gördüm halına yandım

Yarası çoxdu onun ağladım o əhvalə
Düşübdü haləti zəfilə qanlı qodalə

Vurur o bikəsi bir fovc, çün olur xəstə
Gedir kənarə gəlir vursun ayrı bir dəstə

O zülmkarların zülmü etdi məndə əsər

Yaxınlaşıb dedim ey bipənah, teşnə cigər

İcazə ver mənə ey şah rəfi-zülm eləyim Sənin
yolunda bu saçlarımı qana bələyim

Buyurdu şəriətdə caiz deyil sənə dəva
Cihaddan edib orətləri müaf, Xuda

Gər istəsən mənə öz xidmətin tamam edəsən
Anam Xədicəyə, Zəhrayə ehtiram edəsən Para çadır
quracaqlar kənari-Əlqəmdə
Balalarım qalacaq o güşədə qəmdə

Əsir balalarıma sən apar ver orda təam
Yetir bəlalı bacım Zeynəbə dua və səlam

Odur ki, mən də əməl etdim əmri-mövlayə
Təam və su gətirdim sizə bu məvayə

Xanım qəbul elə bu cüzü xidəmti məndən
Nişani-fəxr aparım ta qəbiləmə səndən

Eşitdi bu sözü xatuni-qəm, o orətdən
Ucaldı naləsi hamı əhli-beyti-ismətdən

Dedi gəl ey bacı Gülsum xanimani viran
Bizi Hüseynim öləndə çıxartmayıb yaddan

Qəbilədən biz üçün göndəribdi ab-təam

Özü oruc idi ac verdi can o teşnə imam

Hüseyn bacın ola qurban sənin məhəbbətinə Dəva qoyanmadım əfsus mən cərahətinə

Bu lütfin əvəzin qətligahidə edərəm
Bu zülfüm ilə kəfənpuş edib səni gedərəm

Qapında "Yəhyəvi" düz qırx beş ildi xidmətdə
Çıxartma yaddan onu mövsümü-şəfaətdə

## Xərabə

**(Zamanın Sədisi, Hüseyninin şerlərindən)** Bu gecə halın nədəndir çox pərişandır Rüqəyyə
Ağlama çox etmə nalə, az məni yandır Rüqəyyə

Ey olan qəm gülşənində əndəlibi pərşikəstə
Eyləmə bir belə nalə öz-özün çox etmə xəstə
Bu quru topraqlar üstə yatma dur gəl sinəm üstə Dildə hər dərdi dilin var əmmənə andır Rüqəyyə

Surətin divarə qoyma, göz yaşın döndərmə qanə
Gərçi zihəqsən vücudun incidibdir taziyanə
Səbr elə amma gətirmə Ali-Ətharı fəğanə
Qüssədən dillər bilirsən qönçətək qandır Rüqəyyə

Qətrə-qətrə dürrü-əşgin tökmə gözdən gül üzarə

Suzi-ahilə yanıqlı qəlbimə vurma şərarə
Sən bilirsən əmmən ölsün bikəsəm yox məndə çarə
Görmüsən əmmən sənintək didə giryandır Rüqəyyə

Şölə ahın görəndə var yeri Şam əhli yansın
Qorxuram sən ağlayanda xırda qızlar oyansın
Səs-səsə versinlə yeksər nalə əflakə dayansın
Şivəni Ali-Rəsulə əşgin ünvandır Rüqəyyə

Ey dəri-gənci məlahət gövhəri dərci-müsibət
Çəkmisən Kərbübəladən Şamədək yollarda zəhmət
Zərbəti-sili üzündə yoxsa çox eylir əziyyət
Yatmısan topraqlar üstə işin əfğandır Rüqəyyə

Hansı şəhzadə sənintək gördü bu rəncü-məlalı
Ac, susuz, yorqun, xərabə mənzili, başı qaralı
Taziyanə, kəbi-nizə eyləsin cismin yaralı
Halına öz halım əldə yaxşı mizandır Rüqəyyə

Gülşəni-ömrün soldurubdur badi-möhnət Bu gecə
gül surətində görsənir asari-rehlət Bir kəsə gəlmir
gümanim nisfi-şəb, qürbət vilayət
Bir nəfər fəryadrəs yox, şəhri-dunandır Rüqəyyə

Mənzili Əbu Həsənidə bir gecə fəsli-zimistan
Var idi Sədiyi-Zəman və Əşgi və bir cəm mehman
Müttəle yazdı Hüseyni şirkət ilə tapdı payan
Yazdıran, yadə salan bu şeri xoşxandır Rüqəyyə

# Həzrət Süğranın (s.ə) növhəsi

**(Ustad Münzəvinin şerlərindən)**

Əli, əlilə qızın ahinin əsər varıdı
Qaranlıq gecənin aqibət səhər varıdı

Nə vəxt idi anasızlıq yadıma düşməzdi
Yanımda çün bacılarımla əmmələr varidı

Gələndə yanıma sən qəm sorağə gəlməzdi Sənin
vücudunla məndə qol-qanad varidı

Səsin gələndə həmişə işıqlanardı gözüm
Səsində fikr edirəm müjdə zəfər varidı

Qoyanda alnıma əl sübhədək təb etməzidim
Olardı xeyrə mübəddəl nə qədr şər varidı

Özün gedib məni etdin evimdə zindani Dedim
Xuda aramızda məgər kədər varidı

Anam öləndən Əli tünd baxmayıb üzümə
Nə iltifat edir indi nə xoş nəzər varıdı

Nə fikr edir ki, aparmır məni qoyur evdə
Yəqin mərizlərin yolda dərdisər varıdı

Dedim ki, Leyliyə olsam kəniz, fəxr edərəm

Dedi mənim bacımın şəni-biştər varıdı

Düşərgələrdə dedim fərşini açıb yığaram
Dedi mənim kimi fərzəndi bahünər varıdı

Dedim gətirim onun ab dəstəmazın özüm
Dedi su olmasa gər gözdə əşgi-tər varıdı

Bu bir səfərdi ki, şayəd də gəlməyə su ələ
Gərək təyəmmüm ola çün suyun xətər varıdı

Dedim bəs onda vətəndə qoyun Rübab anamı
Aparmayın ki, qucağında südəmər varıdı

Uşaqlının nə işi var su olmayan yerdə
Susuzluğun hamıdan çox ona zərər varıdı

Dedi qalan sözü bacı babam gələndə soruş
Sənə dedim ürəyimdə mənim nələr varıdı

Bu karivanə celudaridir qəza və qədər
Kimin müahideyi-zərridən həzər varıdı Dedim ki, vay evimi bəs qəza-qədər yıxdı
Məgər qəza yıxan evdən kimin xəbər varıdı

Gözümü bağlama amma yerimi qibliyə sal
Baxım gedən yoluna ruhumun səfər varıdı

Sənə baxa-baxa can verməyin də ləzzəti var

Əqəlli hər baxışın həzzi-müxtəsər varıdı

Bu getməyin hamıdan çox məni zəlil etdi
Sənin adınla bacın şadü-bəxtəvər varıdı

Yəqin tutub bu fələk eşqimi bəhanə mənə
Odur bu qədri cəfa eylədi zəmanə mənə

Gecəni sübhə kimi yoldaşam sitarələrə
Baxam səmayə rəsədxanədir bu xanə mənə

Nə qədri axtarıram bəxtimin sitarəsini
İtirmişəm onu yoxdur verən nişanə mənə

Günüz darıxma gəlir əyləşənmirəm evdə
Odur ki, məskən olub poşti-astanə mənə

Sızıldaram o qədər şer olub sızıltılarım Adında
qafiyədə fənni-şairanə mənə

O qədər ərzişi var bir gecə gəlib qulaq as
Fəraq gör nə gözəl öyrədib təranə mənə

Nə qədər cəddəm Əli zülfüm istəyir daraya
Yoxumdu hövsələ qəm öyrədir bəhanə mənə Nə qədər
xahiş edir qoymuram hörə saçımı
Rəva bilibdi bu əhvalı çün zəmanə mənə

Ölüncə əhdim odur şanə vurmayam başıma

Əli Əkbər özü almayınca şanə mənə

Anam Bətultək ölsəm məni gecə götürün
Gecəylə qəbr qazıb qüsl edin şəbanə mənə

Qəribəm öz vətənimdə görən şəmatət edər
Nə yaxşı mədfən ola künci-səhni-xanə mənə

Qanadı bağlı quşam evdə sən gedən gündən
Evim qəfəsdi qəfəs küncü aşiyanə mənə

Yemək və şərbətimi etmişəm nə vəxti əvəz
Fəqət olubdu cigər ləxti-abü-danə mənə

Gecə-günüz oturub mən səni dua edərəm
Adın olubdu belə virdi-aşiqanə mənə

Varam bu halətilən əl duadə bayaramcan
Özün gəlib alasan bir zad eydanə mənə

Bir-birini çağırır qonşuda bacı-qardaş
Dəyir o səslər Əli misli taziyanə mənə

Gələndə kuçədə qasid sədası mən çıxıram
Görüb nə halda baxır xəlq yanə-yanə mənə

O zülfünü darasan bir də sübh vəxti dara
Səbadən ətrini elə özün rəvanə mənə Məziqiyyə salıram
cismi hifzi-ruh edirəm

Qəzayi-ruhdu bu eşqi-bikəranə mənə

Əsayə təkyə edən vəxtə ya Əli deyirəm
Gərək şəfa verə bu virdi-cavdanə mənə

# Kufə

**(Ustad Ənvərin şerlərindən)**
Salam o Zeynəbə ki, məntiqi-rəsasından
Xərabə zülm evini eylədi bənasından

Salam o Zeynəbə fəxrul-əimmə aldı ləqəb
Qoyubdu Məryəmi heyrətdə irtiqasından

Salam o Zeynəbə zinətdi Mürtəzayə adı
Ölüncə çıxmadı Məbudunun rizasından

Salam o Zeynəbə ki, təğziyə edib ruhu
Kəmal süfrəsinin canfəza qəzasından

Salam o Zeynəbə əsrari-vəhyə oldu xəbir
Həmişə etdi difa məktəbi niyasından

Salam o Zeynəbə pərvərdə etdi şiri-Xuda
Çu şir şərzə əsib mərdlər hərasından

Salam o Zeynəbə əmdi Bətul sinəsini
Zəkiyyə süd onu saf eylədi səfasından

Salam o Zeynəbə oldu Hüseynə həmpeyman Dedi
bəlayə “bəla” şovqü-Kərbəlasından Salam o
Zeynəbə oldu yətimlər anası
Döyüldü düşmənə çox Fatimə anasından

Salam o Zeynəbə verdi nicat Səccadə
Hifazət etdi şərar içrə pişvasından

Nə Zeynəb etsəm əgər min salam hər ləhzə Yenə
də əcz edərəm həqqinin ədasından

Nə Zeynəb olmayıb olmaz qəmü-məlalına say
Şümarə kimdi bilən başının bəlasından

Nə Zeynəb oldu şəhidə anası əllərdə
Bilinmədi hayana getdi qəmsərasından

Nə Zeynəb, etdilər mehrabda şəhid atasın
Töküldü səcdəgəhə qanı ağ mühasindən

Nə Zeynəb açdı başın teştə qəyy edəndə Həsən
Cigərlərin görüb əl üzdü Müctəbasından

Veribdi yeddi bəradər şəhid Möhsin ilə
Əlin üzübdü iki ahuvəş balasından

Macal yoxdu sayam birbəbir fədalarını

Neçə şəhidi də var xişü-əqrəbasından

Ağartdı saçlarını gün batınca Aşura
Nəfəs yoruldu düşüb peykəri-nəmasından

Yel əsdikcə sovurdu çadırların külünü
Yağıbdı kül başına Kərbəla fəzasından
Gündüz çalışdı gecə qızlara təbib oldu
Dayan sözün götürüm pərdə möhtəvasından

Gündüz şəhidlərin yarasından ox çəkdi
Gecə çıxartdı tikan qızların yarasından

Nəsimi-şəb dedi lay-lay yatışdı yorğunlar
Sızıltı qət olub ətfal mübtəlasından

Əli qızı hamıdan yorğun idi yummadı göz
Edibdi peyrəvi öz möhtərəm atasından

Gecə namazına məşğul olubdu Zəhratək
Xumar ruhunə nəşət verib sənasından

Dedi: İlahi mənə səbr ver çətindi işim
Kəminə bəndənin agəhsən ibtilasından

Edib Hüseyn Sən ilə aşiqanə bir sevda
Şərikəm bilisən mən də ibtidasından

Özü hüzuruna gəldi, yerində qoydu məni

Gərəkdi hamı olam nehzətin ləvasından

Səni qəsəm verirəm Əsğərin axan qanına
Xəcalət etmə məni ya Rəbb Ali-Yasindən

Yətimlərdən itib ölsə şərmisar ollam
Uzaqdı yol xəbərim vardı intihasından

Rüqəyyə Şamə də çatsa inanmıram qayıda
Hüseynimin nigəranam o dilrübasından Səfər libası
vücudunda bir qəra dondu
Naxoşlasa o bala acizəm dəvasından

Səhər olub üsəra tərki-qətligah elədi
Çoxuna qəmçi dəyib Şamın əşqiyasından

Sınıq kəcavədə Zəhrayi-sani əyləşdi
Gəlib nəvayə onun Neynəva nəvasından

Hüseyn cənazəsinə döndü baxdı göz dolusu Alovlanıb
ürəyi dərdi şöləzasından

Dedi: Hüseyn səni dəfn etmədim bağışla məni
Bacıntək hansı bacı ayrılıb əxasından

Vərəq-vərəq dağılıbsan çüxur yerə ey gül
Bu çölün od tökülür suznak həvasından

Yarənə sayə sala qaldı çöllərin quşuna

Macal yoxdu bizə vəxtin iqtizasından

Yasında bəstədi ahulərin mələşməsinə
Sədaləri ucalır qətligah arasından

Bacın da bir bölük ahunu Küfiyə aparır
Hamısı xəstədi səyyadilər cəfasından

Vürudi-Kufədi mətləb, müəttələm amma
Yazım Əli qızının hansı macərasından

Bu yas İmam Zamanın bibisinin yasıdır Özü
də əmməsinin çıxmayıbdı yasından
Təvəccöh etsə əgər dilneşin edər sözümü
Qılar təla, mis əbyatı kimyasından

Übur edib üsəra kuçə və xiyabanı
Aman o şəhrin aman əhli bivəfasından

Əli ədavəti dildə olanlar atdı daşın Nişan
olan balalar dinmədi həyasından

Deyən yox idi bunlar Kərbəladə çox vurulub
Çoxu yaralı gəlib Neynəva Minasından

Kənari-məscidi-şəhrə yetişdi Ali-Əba
Çox idi millətin orda əşərri-nasından

Əli ibadət edən məscidi görüb Zeynəb

Damarları qızışıb Heydəri-dəmasından

Qəzəblənib dedi ey sariban dayan getmə
Rəvəndələr dayanıb Zeynəbin nidasından

Cəsarət eyləmədi sariban qədəm götürə
Müşəvvəş oldu o siddiqənin sədasından

Xanım görübdü o yer söhbətə münasibdi
Gərək difa edə məzlum Neynəvasından

Gəlib dilə dedi ey Küfiyani-tərdamən
Başız ucalmadı heç hiylə mütəkkasından

Yel əsdi hər tərəfə xarü-xəs kimi getdiz
Kamala yetmədiz İslamın etilasından Misali-şəbpərə
zülmətdə zindəgi elədiz
Çirağİ-həqqin işıq aldız ziyasından

Nəxi-dəyanətiz ey qövm pənbəyə döndü
Əliz üzüldü həqqin rişeyi-vilasından

Mənim babamdı bilin şəxsi-əvvəli-xilqət
Böyükdü rütbəsi Allahın ənbiyasından

Onun gətirdiyi din abiru verib ərəbə
Dücalər aldı işıq məşəl hüdasından

Dəvələr üstə gələnlər onun balalarıdır

Baxıb utanmırsız başların qarasından

Şüreyh rahi-fəsada, təbaha çəkdi sizi
Apardı oda tərəf hökmü-narəvasından

Siz ilə söhbət edən Mürtəza Əli qızıdı
Əkabiri-ərəbin zübdə sərşünasından

Bu səs Əli səsidi qozanıbdı hülqümdən Əli
kimi hanı taət edə Xudasından?

Bu üzbəüzdəki məsciddə çox namaz eləyib
Namaza ruh verib eşqi-kibriyasından

O şahidi-əzəli kam alıb bu məsciddə
Şəhadətə yetişib ruhi-irtizasından

Şəhidi-məscidü-mehraba varisəm tanıyın
Müdafeyəm atamın eyni müddəasından Səfiri-
dövləti-xun qorxu bilməyib, bilməz
Sözün bahasına gər keçsə can bahasından

Dilim kəsilsə də haqqı işarətən deyərəm
Əli qızı bilin əl çəkməz iddiasından

Damarlarızda əgər xuni-din və qeyrət var
Gedin tutun siz Übeydüllahın yaxasından

Kəzayi-hakimi məsdərdə qoymayın qalsın

Yalançı müfti gərək xəl ola libasından

Mənim gözəl atamın haqqı çoxdu boynuzda
Aparımısız səmərə feyzi-iqtidasından

Qoyun gedim babamın məqtəlin ziyarət edim
Öpüm məhəlli-münacati-canfəzasından

Gəlir qulağıma “fuztu və Rəbbi Kəbə” səsi
Kəsilməyib o səda məscidin fəzasından

Açın yolu üsərayə gedək Nəcəf çölünə
Gəlin bizi qurtarın zülm təngnasından

Ehanət eyləmeyin Kərbəla qonaqlarına
Qiyamətin gününün xof edin cəzasından

O əllərizdəki xurmanı qaytarın aparın
Sədəqə rədd olunub şərən Ali-Yasindən

Müdar edin şühəda xanəvadəsilə bir az Sevinməyin
bunların qüssəli liqasından Nəvazişlə səpin dağlı
ürəklərə su
Olan olub bizə Kufənin dəğasından

Vurublar qəmçi göyərçinlərin pəri göyərib
Şikəstə pərdi çoxu zərbət inikasından

Hüseynimin soruşun qətlinin dəlili nədir

Nə illətə başını kəsdilər qəfasından

Peyğəmbər oğlu bilin çöldə bikəfən qaldı
Nişanə qalmadı əmmamə və əbasından

O parə-parə bədən atlara ayaqlandı
Mələşdi huri-mələk dərdi-canquzasından

Nə Sədin oğlu həya elədi, nə Şimri dəni
Azından siz utanın cəddi Mustəfasından

O hansı əldə öləndir ayaqlanıb bədəni
Bacısı yasaq olub məclisi-əzasından

O hansı əldə öləndir yananda xeymələri
Baxıbdı qızlarına qatilin cidasından

O hansı əldə öləndir suyun kənarında
Yanıb dodaqları düşmənin ədasından

Görüm xərabə qala Hərmələ becərdən yer Dil
açmayan balanı oxladı cəfasından

Anası Kərbübəladən bura kimi mələyib Qəm
ayrıla çətin, ol qəmlər aşinasından Şəhidlər
ələmin şəhrizə vurub gedirəm
Müvəffəqəm bilirəm Fatimə duasından

Bu sözlərin səni Ənvər çəkər behiştə tərəf

Yaxan qutarsa əgər nəfsin əjdahasından

# Həzrət Əli Əkbər (ə)

**(Ustad Müztərin şerlərindən)**

Olubdur müntəşir bu söz, Əli Əkbər cavan öldü
Hüseynin oğlu şəhla göz Əli Əkbər cavan öldü

Cavan dağı ki, görməyibsən çətin-asandı bilmirsən
Hüseynin qəlbi bu qəmdə nə noyi yandı bilmirsən
Eşidibsən yaralandı, oğul doğrandı bilmirsən
Necə əza olub göz-göz Əli Əkbər cavan öldü

Cavan oğlu ölən ana edər saət besaət qəşş
Öləydi haqqı var, haqqı o Leyla müsibətkeş
Ürəkdə Əkbərin dərdi gəzərdi çöldə məcnunvəş
Deyərdi hər gecə-gündüz Əli Əkbər cavan öldü

Vətəndə ruzü-şəb ağlar naxoş bacısı yol gözlər
Dilinə eyləyib əzbər Əli Əkbər, Əli Əkbər
Yuxuda hatifi qeybi dedi ey zarü-qəmpərvər
Yoluna dikmə bir də göz Əli Əkbər cavan öldü

Ayıldı yuxudan ol qız bulud kimi gözləri doldu
Gəlib fəryada, fəğana pərişan zülflərin yoldu
Görüb divarda bir quş deyir: bülbül, gülün soldu
Əlin güldən, çəməndən üz Əli Əkbər cavan öldü Dedi:
qanlı qanadlı quş vurubdur kim sənə yarə

Nə dərdin var qonubsan sən bu sübhün vəxti divarə
Ölüm xəbəri verməzlər ölüm çatanda bimarə
Nədir bu kəlmeyi-cansuz Əli Əkbər cavan öldü
Mündəricat

Ya Hüseyn (ə) ............................................................ 3
Həzrət Əli (ə) ............................................................ 3
Həzrət Əmir əl-möminin Əlinin (ə) mədhi ...................... 7
Həzrət Əlinin (ə) şəhadəti ............................................... 9
Həzrət Zəhra (s.ə) ....................................................... 10
Həzrət Zəhra (s.ə) sevgisi ............................................ 14
Həzrət Zəhranın (s.ə) şəhadəti...................................... 17
İmam Əlinin (ə) həzrət Zəhranın (s.ə) qəbri üstündə növhəsi ................................................................... 19
Qitə ............................................................................ 22
Həzrət Zeynəb (s.ə) ana matəmində ............................. 22
İmam Əli (ə) həzrət Zəhranın (s.ə) matəmində ............. 23
Həzrət Zəhranın (s.ə) şəhadət əhvalatı .......................... 25
Bəqinin Əmir əl-möminin Əliyə (ə) naləsi .................... 28
Həzrət Zəhranın (s.ə) həzrət Zeynəbə (s.ə) xitabı .......... 30
Həzrət Zəhranın (s.ə) Əmir əl-mömininə (ə) xitabı ....... 32
Zülfüqar ..................................................................... 34
Həzrət İmam Həsənin (ə) şəhadəti ................................ 37
Mədinədən çıxış .......................................................... 38

Mədinədən köç ........................................................ 40
Həzrət Süğranın (s.ə) əhvalatı ...................................... 41
Həzrət Süğranın (s.ə) əhvalatı ...................................... 43
Həzrət Müslimin (ə) xitabı ........................................... 44
Rübai ........................................................................... 46
Kərbəlayə giriş ........................................................ 46
Hürrun (ə) tövbəsi .................................................... 48
Vəhəb və Abisin (ə) əhvalatı və həzrət Abbasın
əhvalatına (ə) işarə ...................................................... 50
Həzrət Əli Əkbərin (ə) vidalaşması ..............................
55
Həzrət Əli Əkbərin (ə) vidalaşması ..............................
57 Həzrət Əli Əkbərin (ə) vidalaşması
.............................. 59
Həzrət Əli Əkbərin (ə) xeymələrdən ayrılması .............
62
İmamın (ə) Əli Əkbərin (ə) cənazəsinə xitabı ................
64
Həzrət Qasimin (ə) vidalaşması ................................... 66
Şairin ürək sözü və həzrət Əbəlfəzin (ə) əhvalatına işarə
..................................................................................... 67
Həzrət Əbəlfəzin (ə) əhvalatı ....................................... 70
Həzrət Abbasın (ə) qardaşına xitabı .............................. 76
Həzrət Əbələfəzlin (ə) müsibətinə işarə ........................ 77
Həzrət Əbəlfəzin (ə) əhvalatı ....................................... 81
Həzrət Əbəlfəz (ə) meydanda ...................................... 82
Həzrət Qəməri Bəni Haşimə (ə) sevgi ..........................
84
Həzrət Əbəlfəz (ə) ...................................................... 86

Həzrət Əli Əsğərin (ə) əhvalatı .................................... 87
İmamın (ə) Əli Əsğərə (ə) xitabı .................................. 90
İmamın (ə) Zeynəbə (s.ə) xitabı ................................... 92
Zərr aləmi ................................................................. 94
İmam Hüseyn (ə) və namaz ......................................... 97
Salam olsun sənə ya Əba Əbdillah (ə)......................... 107
İmam Hüseynin (ə) vidalaşması ................................. 108
İmam Hüseynin (ə) vidalaşmasına işarə ......................
110
İmamın (ə) qızı ilə vidalaşması .................................. 119
Vida növhəsi ........................................................... 121
Ya Hüseyn (ə) .......................................................... 122
İmam Hüseynin (ə) düşmən qoşununa xitabı ..............
123
İmam Hüseynə (ə) sevginin izharı və qətligah əhvalatına
işarə ........................................................................ 126
Qətligah ................................................................... 129
İmam Hüseynin (ə) Allaha sevgisi ............................. 134
Qətligah ................................................................... 138
Qarət ...................................................................... 140
Həzrət Zeynəbin (s.ə) qətligahdan köç etməsi .............
142 Qətligahdan köç......................................................
144 Eşq hacısı ..............................................................
146
Kufə müqəddiməsi və həzrət Zeynəbin (s.ə) sözləri ....
148
Kufə əhvalatına müqəddimə və əhli-beytin (ə)

müsibətlərinə işarə ................................................... 152
Gəlin Fatimənin (s.ə) Qasimə (ə) xitabı .....................
159
Şam yolu və Fatimənin (s.ə) həzrət Qasimə (s) xitabı..
161
Həzrət Rüqəyyənin (s.ə) naqədən yıxılması ...............
162
Şamın xərabəsində Rüqəyyənin (ə) atası ilə dərdləşməsi
................................................................................ 164
Şamın xərabəsində Rüqəyyənin (s.ə) atasına xitabı .....
167
Həzrət Rüqəyyə (s.ə) atasının intizarında ...................
169
Həzrət Rüqəyyənin (s.ə) əhvalatı ............................... 172
Şamdan çıxış və həzrət Zeynəbin (ə) Rüqəyyəyə (s.ə)
növhəsi ...................................................................... 174
Ərbəin ........................................................................ 175
Ərbəin müqəddiməsi ................................................. 178
Həzrət Zeynəbin (s.ə) şəhadəti .................................. 181
Həzrət Zeynəbin (ə) şəhadəti .................................... 186
Həzrət Zeynəb (ə) ...................................................... 191
Həzrət Ümmül-Bənin (s.ə) ......................................... 192
Babül-həvaic Musa ibn Cəfərin (ə) növhəsi ...............
196
Müraciət .................................................................... 198
Aşura gününün qürubu .............................................. 199
Xərabə ....................................................................... 206
Həzrət Süğranın (s.ə) növhəsi ................................... 207
Kufə .......................................................................... 211

Həzrət Əli Əkbər (ə) .................................................... 219